

# Azərbaycan Qarabağla bağlı maraqlarımıza zidd prosesə sürüklənir

*May ayından bəri Ermənistanla Azərbaycan arasında Qarabağ danışıqları faktiki dayanıb. Bir neçə dəfə onlayın müzakirələrdən sonra Prezident İlham Əliyev haqlı olaraq, belə bir onlayn danışıqların mənasız olduğunu açıqladı. Çünki belə bir danışıqlar, yalnız işğalçı ölkənin maraqlarına xidmət edir. "Unikal"a açıqlama verən Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədri, politoloq Məhəmməd Əsədullazadə deyib ki, rəsmi Yerevanın...*

Səh.13


# UNİKAL

№27 (2022) 22 avqust 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Ramiz Mehdiyevin nəvəsinin toyunda siyasi "tost"



Səh.12

## Bəzi səfirlərin "Eldar Həsənov qorxusu"

## Abel Məhərrəmovun mərasimdəki çıxışı suallar yaradıb

*Avqustun 18-də Prezident Administrasiyasının sabiq rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Ramiz Mehdiyevin nəvəsinin toy mərasimi keçirilib. Novxanıda yerləşən bağ evində keçirilən toydan videokadrlar yayılıb. Görüntülər geniş ictimai rezonans doğurub. Əvvəla, COVID-19 pandemiyası səbəbilə elan edilən karantin rejiminin tələbləri bu cür mərasimlərin təşkilini yasaqlayır. Bu səbəbdən də çox sayda rəsmi şəxsin də qatıldığı tədbir narazılığa səbəb olub. Üstəlik, kadrlardan aydın görünür ki, mərasimdə maskadan istifadə edilməsi, sosial məsafənin gözlənilməsi kimi qaydalar da pozulub. Lakin toyla bağlı daha diqqətçəkən məqam mərasimə qatılan qonaqların...*

Səh.2

## "Hər məmurun arxasında xeyli nüfuzlu şəxs dayanır"



*Prezident İlham Əliyevin dövlət şirkətlərinin fəaliyyəti ilə bağlı sərt tənqidi fikirlər səsləndirməsi bu qurumları diqqət mərkəzinə gətirib. Artıq bir sıra dövlət şirkətlərinin fəaliyyətinin qənaətbəxş olmadığı ilə bağlı faktlar səsləndirilməkdədir.*

Səh.4

## "İxtiyarım olsaydı, bəzi musiqiçilərin mükafatlarını əllərindən alardım" - Siyavuş Kərimi



*Yazdığı əsərləri ilə ürəklərə yol tapan bəstəkarlardan biri də Siyavuş Kərimidir. "Unikal" qəzeti Azərbaycan Milli Konservatoriyasının rektoru, Azərbaycan Respublikasının xalq artisti, professor, bəstəkar Siyavuş Kərimi ilə müsahibəsini təqdim edir.*

Səh.10

## "Necə getməyim toya, axı mən kişiyəm" – Siyavuş Novruzov



*Deputat Siyavuş Novruzov AMEA prezidenti Ramiz Mehdiyevin nəvəsinin toyunda iştirak etməsinə münasibət bildirib. S. Novruzov Unikal.org-a açıqlamasında dəvət edilən toya getməyin vacib olduğunu bildirib: "İnsan insandır.*

Səh.3

# Azərbaycanda yeni informasiya sistemi yaradıldı – Sərəncam



***Prezident İlham Əliyev "ASAN müraciət" informasiya sisteminin yaradılması haqqında sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncamda deyilir:

1.İctimai xarakter daşıyan kommunal, yol və nəqliyyat problemləri, infrastrukturun cari təmiri, abadlaşdırılması və təmizliyi ilə bağlı şikayətlərin elektron xəritə üzərində qeyd edilməklə operativ surətdə aidiyyəti dövlət qurumlarına göndərilməsini və həmin şikayətlərə baxılmanın nəticələrinin izlənilməsini təmin edən "ASAN müraciət" informasiya sistemi yaradılsın.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "ASAN müraciət" informasiya sisteminin operatoru müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

3.1. "ASAN müraciət" informasiya sistemini və onun mobil tətbiqini formalaşdırsın;

3.2. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, "ASAN müraciət" informasiya sisteminin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əlaqələndirilməsini, habelə yerli icra hakimiyyəti orqanlarının "ASAN müraciət" informasiya sisteminə çıxışını təmin etsin.

4. Dövlət orqanları (qurumları) "ASAN müraciət" informasiya sistemi vasitəsilə daxil olmuş şikayətlərə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada baxılmanı təmin etsinlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. "ASAN müraciət" informasiya sistemi haqqında əsasnamənin layihəsini üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

5.2. "ASAN müraciət" informasiya sisteminin formalaşdırılması, aparılması və saxlanması xərclərinin maliyyələşdirilməsi məsələlərinin həll edilməsi üçün müvafiq tədbirlər görsün;

5.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

# 190 manatın verilməsinə bahalaşdı

***Birdəfəlik ödəmənin (190 manat) verilməsinə başlanılıb.***

"Unikal" xəbər verir ki, sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 13 şəhər və rayon üzrə birdəfəlik ödəmə (190 manat) almaq hüququ yaranan şəxslərə bu gündən etibarən vəsaitlərin verilməsinə başlanılıb. Vəsait vətəndaşların may ayında birdəfəlik ödəməni almaq üçün banklar tərəfindən verilmiş bank kartlarına köçürülür. Ödəmənin verilməsinin sabah gün ərzində tam olaraq yekunlaşdırılması planlaşdırılır.

Qeyd edim ki, birdəfəlik ödəmə aprel-may ayları üzrə 190 manat almaq üçün onlayn müraciət edərkən qeyd etdiyi faktiki yaşayış ünvanı Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərinə və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan rayonlarından olan 278 min işsiz və xüsusi karantin rejimində işini itirən qeyri-formal çalışan aztəminatlı şəxsi əhatə edir. Bu artıq 4-cü ödəmədir. Bu məqsədlə ümumilikdə 333 milyon manat vəsait sərf olunub.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2500

# Ramiz Mehdiyevin nəvəsinin toyunda siyasi "tost"

## Abel Məhərrəmovun mərasimdəki çıxışı suallar yaradıb

***Avqustun 18-də Prezident Administrasiyasının sabiq rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Ramiz Mehdiyevin nəvəsinin toy mərasimi keçirilib. Novxanıda yerləşən bağ evində keçirilən toydan videokadrlar yayılıb.***

Görüntülər geniş ictimai rezonans doğurub. Əvvəla, COVID-19 pandemiyası səbəbilə elan edilən karantin rejiminin tələbləri bu cür mərasimlərin təşkilini yasaqlayır. Bu səbəbdən də çox sayda rəsmi şəxsin də qatıldığı tədbir narazılığa səbəb olub. Üstəlik, kadrlardan aydın görünür ki, mərasimdə maskadan istifadə edilməsi, sosial məsafənin gözlənilməsi kimi qaydalar da pozulub.

Lakin toyla bağlı daha diqqətçəkən məqam mərasimə qatılan qonaqların təbrik çıxışlarıdır. Daha doğrusu, çıxışların siyasi tonudur. Yayılan videogörüntülərin birində Bakı



Dövlət Universitetinin sabiq rektoru Abel Məhərrəmov Ramiz Mehdiyevin şərəfinə söylədiyi "tost"da maraqlı fikirlər səsləndirib: "Ramiz müəllim, biz sizin xidmətlərinizi çox böyük qiymətləndiririk. Çox böyük! Nəinki biz... Biz kimik ki? Xırda adamlarıq. Xalqımız çox böyük qiymətləndirir. Bu uğurlarımızın həyata keçirilməsində taktiki addımlara siz rəhbərlik etmisiniz".

Məhərrəmovun dediklərindən belə başa düşmək olar ki, sözügedən toy sadəcə evlilik mərasimi olmayıb. Eyni zamanda R.Mehdiyevə yönəlik siyasi mesajların verildiyi, onun haqqında yüksək fikirlərin səsləndiyi toplantıya çevrilib. Keçmiş rektorun Prezident Administrasiyasının sabiq rəhbəri barədə "tost"u bunu təsdiqləyir. Məhərrəmovun özünü və mərasimdəki digər rəsmi şəxsləri "xırda adamlar" adlandıraraq Mehdiyev barədə xalqın adından fikirlərini bəlağətli səsləndirməsi, ən əsası isə onu Azərbaycanın inkişaf siyasətinin "taktik rəhbəri" elan etməsi maraq doğurur. Bununla bərabər, fərqli siyasi mülahizələrə yol açır, suallar yaradır...

Bu suallar və mülahizələr son vaxtlar ictimai rəydə hakimiyyət daxilindəki "5-ci kolon"un varlığı barədə daha yüksək səslə danışıldığını nəzərə aldıqda xüsusilə diqqət çəkir.

***Elvin Rüstəmov***

# Əli Əsədov sərəncam imzaladı

***Baş Nazir Əli Əsədov "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Müşahidə Şurasının təsdiq edilməsi haqqında" sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncamla Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Müşahidə Şurası aşağıdakı tərkibdə təsdiq edilib:

Şuranın sədri

Möhsün Nağısoylu - Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik

Şuranın üzvləri:

Aslan Aslanov - Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri

Bəxtiyar Sadıqov - "Azərbaycan" qəzetinin baş redaktoru

Nizami Cəfərov - Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik

Mahirə Hüseynova - Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru, professor.

Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Dövlət Təhlükəsizliyi Xidməti məlumat yaydı

***21 avqust - terror qurbanlarının xatirəsinin Beynəlxalq Anım Günüdür.***

"Unikal"ın xəbərinə görə, Dövlət Təhlükəsizliyi Xidmətinin Facebook səhifəsində bununla bağlı paylaşım edilib.

Bildirilib ki, "Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarlarının köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı dəhşətli terrorlar və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar.

Qeyd olunub ki, Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkar siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevrilib.

"Ermənilər XIX əsrin sonlarından etibarən məqsədyönlü surətdə terror təşkilatları yaratmağa və onlardan qonşu xalqlara qarşı istifadə etməyə başlayıblar. 1970-1980-ci illərdə ASALA və digər erməni terror təşkilatları 70-dən çox insanı qətlə yetiriblər. Həmin dövrdə erməni terrorçuları tərəfindən ümumilikdə 22 ölkədə 235-dən çox terror aktı törədilib, 24 türk diplomatı öldürülüb.

Terroru dövlət siyasətinə çevirən müasir Ermənistan Respublikası insanlıq əleyhinə ən ağır cinayətlərə imza atıb. Bu ölkənin xüsusi xidmət orqanları Azərbaycanın müxtəlif yerlərində çoxsaylı terror aktları təşkil edib. Avtobuslarda, metroda, qatarlarda törətdikləri terrorlarla yüzlərlə azərbaycanlını qətlə yetiriblər.

Xocalı və Qaradağlı soyqırımları cəmi 28 il əvvəl dünyanın gözü qarşısında baş verən erməni terrorunun ən dəhşətli və qanlı nəticələridir. 2011-ci ildə Ağdamda 9 yaşlı Fariz Bədəlovun, Tovuzda 13 yaşlı Aygün Şahmalıyevanın, 2017-ci ildə Füzulidə 2 yaşlı Zəhra Quliyevanın və nənəsi Sahibə Allahverdiyevanın, 2020-ci il iyulunda isə Tovuzun Ağdam kəndinin sakini, 76 yaşlı Əziz Əzizovun qətlə yetirilməsi bir daha göstərir ki, terror, xüsusən mülki insanların, körpələrin və yaşlıların öldürülməsi Ermənistanın dövlət siyasətidir", - deyə məlumatda qeyd olunub.

# Prezident "Qobu" Elektrik Stansiyasının təməlini qoydu

***Prezident İlham Əliyev avqustun 21-də 1000 meqavat yükötürmə gücü olan 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyasının tikintisi ilə tanış olub.***

"Unikal" xəbər verir ki, dövlə başçısı, həmçinin 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının təməlini qoyub.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına məlumat verib ki, 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyasının inşası uğurla gedir. Hasil olunan elektrik enerjisinin enerjisistemə ötürülməsi, Bakının və Abşeron yarımadasının elektrik enerjisi təchizatında 500/330/220 kilovoltluq "Abşeron" yarımstansiyasından asılılığın aradan qaldırılması, istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatının təmin edilməsi, respublika ərazisində 330 kilovoltluq dairəvi elektrik təchizat sxeminin yaradılması üçün bu yarımstansiya



müstəsna rola malikdir. "Qobu" yarımstansiyasının xüsusi özəlliyi ondan ibarətdir ki, bu, Bakıda tikilən ilk 330 kilovoltluq yarımstansiya olacaq və ən əsası, ölkənin ən strateji yarımstansiyası olan 500 kilovoltluq "Abşeron" yarımstansiyasının əvəzedicisi funksiyasını daşıyacaq. "Qobu" yarımstansiyasının enerjisistemə inteqrasiyasının 2 mərhələdə həyata keçirilməsi nəzərdə tutulur.

Ölkədə enerji təminatının əsaslı şəkildə yaxşılaşdırılması, böyük infrastruktur layihələrin icrası baxımından mühüm işlər görülüb. Lakin elektroenergetika sektorunun daim inkişaf edən sahə olduğunu, əhalinin artım tempini, sənayeləşmə prosesini nəzərə alaraq sonrakı dövrdə generasiya güclərinə tələbatın müəyyənləşdirilməsi və onun vaxtında qarşılanması konkret vəzifə olaraq qarşıya qoyulub. 385 meqavat gücündə "Qobu" Elektrik Stansiyasının generasiya mənbəyi olaraq yaradılması da qarşıya qoyulan mühüm vəzifənin əsas komponentlərindəndir.

Yarımstansiya ilə tanışlıqdan sonra Prezident İlham Əliyev 385 meqavat gücündə "Qobu" Elektrik Stansiyasının təməlini qoyub.

Qeyd edək ki, bu stansiyanın tikintisi yaxın illərdə respublikada fəaliyyətə başlayacaq bir sıra qeyri-neft sənayesi obyektlərinin, o cümlədən Ələt qəsəbəsinin yaxınlığında yaradılacaq "Azad İqtisadi Zona"nın etibarlı elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaq. "Qobu" layihəsinə dünyanın məşhur şirkətləri yüksək rəy verməklə yanaşı, onun tikintisində yaxından iştirak edirlər.

"Qobu" Enerji layihəsi, o cümlədən 385 meqavat gücündə "Qobu" Elektrik Stansiyasının tikintisi ölkənin enerji sistemində bir mənbədən asılılığı aradan qaldırmaq, Bakı şəhərinin, ümumilikdə Abşeron yarımadasının elektrik enerjisi ilə təchizatının dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdırmağa hesablanıb. Bu layihənin icrası digər sosial məsələdə də əhəmiyyəti ilə seçilir. Belə ki, "Qobu" Elektrik Stansiyası və "Qobu" yarımstansiyasının işə salınması məşğulluğun artırılmasına töhfə olacaq. Burada 120-dən artıq yeni iş yeri yaradılacaq.

Sonra Prezident İlham Əliyev energetiklərlə görüşüb.

Dövlət başçısı görüşdə çıxış edib. "Unikal" dövlətimizin başçısının tədbirdəki çıxışından bəzi məqamları təqdim edir.

"Hesab edirəm ki, Azərbaycanda bu ilin 7 ayında iqtisadi vəziyyət qənaətbəxşdir, iqtisadiyyat cəmi 2,8 faiz azalıb. Ancaq bunu da nəzərə almalıyıq ki, neftin qiyməti düşüb və bu, bizim iqtisadi inkişafımıza mənfi təsir göstərir. Eyni zamanda, OPEC+ razılaşması nəticəsində hasilatımız da bir qədər azalıb. Ancaq sənaye sahəsində, o cümlədən qeyri-neft sənayesi sahəsində artım var və bu artım bu ilin 7 ayında 13 faizdir. Budur bugünkü Azərbaycan reallıqları".

"Biz maksimum öz enerji potensialımızdan istifadə edirik və etməliyik. Sevindirici hal ondan ibarətdir ki, bu gün dünyanın ən böyük enerji şirkətləri Azərbaycanda bərpaolunan enerji növlərinin istehsalına maraq göstərir və artıq bu maraq reallaşır. İlin əvvəlində iki böyük beynəlxalq şirkətlə 440 meqavat generasiya gücü olan Günəş və külək elektrik stansiyalarının tikintisi ilə əlaqədar müvafiq sənədlər imzalanmışdır".

"440 meqavat gücündə bərpaolunan enerji növlərinin Azərbaycanda yaradılması, özü də Azərbaycan dövləti tərəfindən bir manat pul qoyulmadan reallaşdırılması bizə olan inamın təzahürüdür, Azərbaycanın gələcəyinə, sabit gələcəyinə, inkişafına olan inamın təzahürüdür".

"Eyni zamanda, yerli və xarici şirkətlərə bildirmək istərdim ki, biz ənənəvi enerji növlərinin istehsalı ilə əlaqədar işlərimizi davam etdirmək əzmindəyik. Xarici və yerli investorları istilik elektrik stansiyalarının tikintisinə dəvət edirik, onları cəlb etmək istəyirik. O cümlədən onları su elektrik stansiyalarının və digər bərpaolunan elektrik stansiyalarının tikintisinə cəlb etmək istəyirik. Əgər belə maraq olarsa hesab edirəm ki, qısa müddət ərzində bu məsələ öz həllini tapa bilər".

"Bu gün ölkəmizin elektroenergetika sahəsində növbəti önəmli addım atılır. "Qobu" Elektrik Stansiyasının təməl daşını qoyduq. Əminəm ki, bu stansiyanın tikintisi uğurla gedəcək və nəzərdə tutulmuş vaxtda - 2022-ci ilin əvvəlində stansiya tam istifadəyə veriləcəkdir. Bu, bizim enerji potensialımızın gücləndirilməsi istiqamətində çox önəmli addımdır. Stansiyanın generasiya gücü 385 meqavatdır. Bu, ölkəmizdə tikilən böyük stansiyalar arasında öz yerini tapacaq".

"Əlbəttə ki, yeni generasiya güclərinin yaradılması bizim ümumi inkişafımızın təzahürüdür. Çünki enerji sistemimizin müasirləşdirilməsi ölkəmizin ümumi inkişafı ilə uzlaşır və bütün işlər planlı şəkildə aparılır".

"Son iki il ərzində 1300 meqavata qədər itirilmiş generasiya gücləri mövcud stansiyalarda bərpa edilmişdir. Ən böyük işlər Mingəçevir İstilik Elektrik Stansiyasında görülmüşdür. Orada 600 meqavat generasiya gücü bərpa edildi və bu gün 2400 meqavat gücündə tam gücü ilə işləyən bu stansiya bizim əsas enerji mənbəyimizdir. Bu stansiyanın ömrü uzadıldı və bundan sonra onilliklər ərzində bizə xidmət göstərəcək".

Daha sonra "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları Orxan Azadxanov və İbrahim Məmmədov çıxış edərək elektroenergetikanın inkişafına göstərdiyi diqqətə görə dövlətimizin başçısına energetiklər adından minnətdarlıqlarını bildirdilər.

# Tural Gəncəliyev Ermənistan səfirinə cavab verdi



***Ermənistanın İsraildəki səfiri Armen Smbatyanın son müsahibəsində bir daha bu ölkənin riyakar siyasətinin şahidi olduq. A.Smbatyan müsahibədə özünü Azərbaycan və erməni xalqları arasında təmasların qurulmasının tərəfdarı kimi qələmə verməyə çalışıb.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev deyib.

Onun sözlərinə görə, münaqişənin maraqlı tərəflərindən biri kimi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması artıq illərdir ki, işğal altındakı Qarabağ bölgəmizin erməni və azərbaycanlı sakinləri arasındakı dialoqun aparılmasını təklif edir. Lakin, Azərbaycanofobiyanı dövlət siyasəti səviyyəsinə qaldırmış Ermənistanın siyasi rəhbərliyi nəinki buna mane olur, hətta Dağlıq Qarabağın azərbaycanlı icmasının mövcudluğunu belə utanmazcasına inkar edir:

"Əgər A.Smbatyan həqiqətən də iki xalq arasında dialoq tərəfdarıdırsa, onda qoy Dağlıq Qarabağın azərbaycanlı icmasının təklifini dəstəkləsin. Lakin Azərbaycan ərazilərini işğal edərək, bir milyondan çox soydaşımızı etnik təmizləməyə məruz qoymuş təcavüzkar Ermənistanın səfirinin "Münaqişənin həlli bizdən deyil, ATƏT-in Minsk qrupundan asılıdır" deməsi ölkəsinin məsuliyyətdən yaxa qurtarmağa çalışmasının növbəti təzahürüdür.

Münaqişənin bu günə qədər həll olunmamasının səbəbi Ermənistan qoşunlarının qanunsuz olaraq Azərbaycan ərazilərində mövcudluğudur. Ermənistanın öz ordusunu işğal edilmiş ərazilərimizdən çıxarması ilə iki xalq arasında münasibətlər cox asanlıqla bərpa edilər".

# "Necə getməyim toya, axı mən kişiyəm" – Siyavuş Novruzov

***Deputat Siyavuş Novruzov AMEA prezidenti Ramiz Mehdiyevin nəvəsinin toyunda iştirak etməsinə münasibət bildirib.***

S. Novruzov Unikal.org-a açıqlamasında dəvət edilən toya getməyin vacib olduğunu bildirib: "İnsan insandır. Dost dostdur, düşmən düşməndir. Bu ağsaqqal adamdır, akademiyanın prezidentidir, məni dəvət edib toyuna. Mən indi necə getməyim ora. Onda mən şərəfsizlik paltarını geyinməliyəm və camaatın arasına şərəfsiz kimi çıxmalıyam. Mən kişiyəm."

*Orxan Həsənli*

# Lalə Şövkət xəstəxanaya yerləşdirildi

***Xəbər verdiyimiz kimi, Azərbaycan Liberal Partiyasının lideri Lalə Şövkət sabah əməliyyat olunacaq.***

"Unikal" xəbər verir ki, bu barədə APA-ya açıqlamasında Lalə Şövkətin oğlu Sidqi Şövkət bildirib.

S. Şövkətin sözlərinə görə, hazırda anasının vəziyyəti normaldır, xəstəxanada həkim nəzarətindədir: "Uzun illərdir, Lalə xanımın yoğun bağırsağında şiş var. Sadəcə, hər il şiş temperaturunun qalxmasına səbəb olurdu, müalicə edilirdi. Bu il də 4 ay həmin şiş Lalə xanımın temperaturunun qalxmasına səbəb oldu. Həkimlər və cərrahlar şişin mütləq əməliyyatla götürülməli olduğunu məsləhət gördülər. Lalə xanım sabah özəl klinikalardan birində əməliyyat olunacaq".

# “Hər məmurun arxasında xeyli nüfuzlu şəxs dayanır”

## Razi Nurullayev: “Çıxışdan sonra tez qaçıb otağıma girmək istəyirəm ki, ortaq dostlarla, tanışlarla göz-gözə gəlməyim”

***Prezident İlham Əliyevin dövlət şirkətlərinin fəaliyyəti ilə bağlı sərt tənqidi fikirlər səsləndirməsi bu qurumları diqqət mərkəzinə gətirib. Artıq bir sıra dövlət şirkətlərinin fəaliyyətinin qənaətbəxş olmadığı ilə bağlı faktlar səsləndirilməkdədir. Bir müddət öncə Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev də parlamentdə bəzi dövlət şirkətlərinin yarıtmaz fəaliyyətindən danışdı. Onun səsləndirdiyi sərt fikirlər sosial şəbəkələrdə də müzakirə olundu. “Unikal” qəzetinə müsahibəsində deputat söhbətə elə bu mövzudan başladı.***

***-Razi bəy, Milli Məclisdəki son çıxışınız cəmiyyətin müəyyən kəsimi tərəfindən müsbət qarşılandı. Sizcə, parlament tribunasından hökuməti tənqid eləmək çətindir?***

-Həyatda asan heç nə yoxdur. Əlbəttə, çox çətindir, çünki hər məmurun arxasında dayanan xeyli nüfuzlu şəxs var. Bəzən, o şəxslərlə yaxşı və ya dost münasibətlərin olur. Mən isə bir az amansız, haqlı durumda ikən söz dinləməyən birisiyəm. Çıxışdan sonra tez qaçıb otağıma girmək istəyirəm ki, ortaq dostlarla, tanışlarla göz-gözə gəlməyim. Heç kimi də qınaya bilmərəm. Bu, bizim həyat tərzimizdir. Evdə də deyirlər ki, sakit otur, sakit dayan, bizi təhlükələrə atma. Ailəm qorxu hissi keçirir.

Hər kəsə deyirəm ki, mən dövlətə, dövlətçiliyə qarşı deyiləm. Əksinə, mən dövlət və dövlətçiliyi öz əməlləri ilə yıxmaq istəyənlərə qarşı mübarizə aparıram. Üzərimə çox gəldilər və cənab Prezidentin çıxışını dəstək kimi qəbul etdim. Kimlərinsə tamahı, ehtirası və iddiası ucbatından dövlətimiz zəifləməsini istəmirəm. Həqiqətləri açıq demək lazımdır ki, gizlində görülən işlər xalqa və dövlətə ziyan vurmasın.

Kimlərsə oğurladıqları, büdcədən sildikləri milyon və milyardların üstündə oturub kef edəcəklər, qorxmayacaqlar, mən niyə həqiqəti dediyimə görə qorxmalıyam? Xalq bu gün Prezidentin sözlərini, çıxışlarını bəyənir, çünki o tənqid edir, o görür ki, bəziləri yanlış yoldadır və ciddi təhlükəyə çevriliblər. Mən də Prezidentin tutduğu mövqeyə həm də arxalanaraq sərbəst danışa bilirəm. Əks halda, bilirəm ki, mənə qarşı çox ciddi addımlar atar və məni aradan götürməyə çalışarlar. Digər yandan, hər kəsi Allah qoruyur.

***-Çıxışınızda dediniz ki, “mənə zənglər gəlməsə, təzyiqlər olmasa... Adlar da çəkəcəyəm”. Deputatın toxunulmazlığı, üstəlik ölkədə qanun yoxdurmu ki, Sizə təzyiq olsun, fikrinizdən döndərsinlər?***

-Belə şeylər azmı olub? Yalandan, qeyri-səmimi niyə danışaq ki? Ölkədə qanunlar var, həm də çox gözəldir. Qanunlar yazıldığı kimi tətbiq olunmur axı. Siyasət, siyasətçi olmaq asan məsələ deyil. Siyasətçilər üçün həmişə təhlükə var. Kimlərsə dövlətdən,



dövlətçilikdən, xalqdan və onlara çətir kimi kölgə salanlardan uzaq düşüblər, beçə verərək meşəyə çəkiliblər. Neçə illərdir bal istehsal edirlər. Sən də gəlib onların pətəyinə tüstü verirsən, çomaq soxursan. Sizcə, bu, təhlükə deyil?

***-İkincisi, elə qanunlar bu qədər iti və amansız tətbiq olunursa, bu naqisliklər, özbaşınalıqlar haradan qaynaqlanır? Xaricdə oturub söyüş söyənlər, dövləti, dövlətçiliyi, atributları, dövlət xadimlərini ən ağır təhqirə məruz qoyanlar niyə sərbəst şəkildə gəzir və hədyan yağdırırlar ? Bunları kim yaradıb, kim maliyyələşdirir? Cəmiyyətin neytral, altyapı və təsisatlar yaradan təbəqəsini kim sıradan çıxarıb? Cəmiyyəti, insanları kim ələbaxım öyrədib? Niyə bu qədər insan narazıdır, niyə bu qədər insan sosial şəbəkələrə axışıb şikayətlər edir? Nədən üzərinə vəzifə yükü qoyulanlar problemləri dağ boyda şişməyə imkan veriblər? İndiyə kimi o qanunlar harada idi? Niyə axı onları tətbiq etmirdilər?***

-Maraqlı bir məqam odur ki, adətən, Prezidentin tənqid etdiyi, narazılığını bildirdiyi məsələ barədə danışmağa icazə var, sanki belə bir əhval-ruhiyyə var. Siz də bunu hiss edirsiniz?

-Mən belə düşünmürəm. Xeyli insan özünə müəyyən çərçivə yaradır ki, nə ət olsun, nə balıq. Sən qəlbinlə, canınla dövlətə bağlı ol, xalqın, millətin yanında ol. Onsuz da Prezident bütün sahələri tənqid edir, çoxlarının demədiyi məqamları deyir, dünya hadisələri ilə bağlı cəsarətlə danışır, adlar çəkir, mövqe sərgiləyir. Amma hökumətdən ənənəvi və qeyri-ənənəvi yollarla yararlanan xeyli adamlar səslərini çıxarmır, mövqe ortaya qoymur, xarici və beynəlxalq məsələlərdə belə diplomatik danışır, özünü pis adam etmək istəmir ki, birdən xarici səfərlərdə ona irad tutarlar. Ona görə də məsələ nəyin icazə verilib-verilməməsi deyil.

Çoxları icazəli və risksiz mühitdə fəaliyyətə üstünlük verirlər və düşünürlər ki, işləri ancaq Prezidenti tərifləmək və yaltaqlanmaq olmalıdır. İnanın ki, Prezidentin onu yersiz yerə tərifləyənlərdən və yaltaqlananlardan xoşu gəldiyini beynimə sığışdıra bilmirəm. Ən təhlükəli adamlar yalandan tərif deyib, yaltaqlıq edib, sonra gedib öz yarıtmaz fəaliyyətləri ilə onun ayağının altını qazanlardır. Məgər YAP-a tərif demək, YAP iqtidarını qorumaq, onun vəzifəli şəxslərinin xətrinə dəyməmək missiyamdır, yoxsa məsuliyyətim? Partiya sədriyəm, siyasətçiyəm, prezidentliyə namizəd olmuşam, sözüm, çəkim olan bir məqamım var. Seçiclərim, xalqım və dövlətim qarşısında məsuliyyət daşıyıram. Başqa heç nə...

***-Amma Sizin parlamentdəki, sonra isə mətbuatdakı tənqidi çıxışlarınızın da “icazəli” olduğunu iddia edənlər də varg***

-Kaş elə çoxları belə ”icazəli” çıxışlar edə biləydi. O zaman, bir çox problemlərin həllinə çoxdan nail olmuş olardıq. Cəsarətli danışmağa, həqiqətləri deməyə ürək və ciyər lazımdır. Tülküyə şirlə döyüşməyə icazə versən belə nə faydasıg

Digər tərəfdən isə Parlamentdə sərbəst danışmaq və fikir bildirmək üçün xanım sədr tərəfindən normal şərait yaradılıb. Bu gün mənim sərt çıxışlarım dövlətə, müstəqilliyimizə təhdid deyil. Təhdidi qanunsuz əməllərlə varlananlar, sonra da varidatlarını dövlətə qarşı çıxanlara yönəldənlər, xalqın mərd oğullarına şər-böhtan atanlar, millətimizi ağır sosial şəraitdə yaşamağa vadar edənlər törədir.

***-Razi bəy, artıq partiyanızın adını da dəyişməyi qərarlaşdırdınız. Bundan sonra partiya quruculuğu və partiya fəaliyyətinin inkişafı üçün nələri planlayırsınız?***

-Milli Cəbhə Partiyası, inşallah çox güclü bir partiya olacaq. İdeoloji xəttimizi müəyyən edirik. Ənənəvi üsullardan istifadəni saxlamaqla yeni yanaşmalar da ortaya qoyacağıq. Ümidimiz tezliklə qeydiyyata nail olmaq və Parlament partiyasına çevrilməkdir.

***-Müxalifət partiyalarından hansılarla əməkdaşlıq etməyi düşünürsünüz?***

-Hələ ki, bu barədə düşünməmişik. Azərbaycanın siyasi partiyalarının sivil əməkdaşlıq prinsipləri yox dərəcəsindədir. Mənəm-mənəmlik hissləri çox güclüdür. Bu gün yaranır, sabah dağılır. Özümüz özümüzü niyə aldadaq kig

***-Hakimiyyətlə dialoq barədə sizin düşüncəniz nədir? Belə deyək də, Siz indi bir köynək yaxınsınız, bu təmaslardan nəsə gözləməyə dəyərmi?***

-Dialoq mühiti yaranıb və bu məsələdə Prezident Administrasiyasının müvafiq şöbəsi əməli nəticələr ortaya qoyur. Təbii ki, çox şey gözləməyə dəyər. Artıq bütün siyasi partiyalarda bu fikir formalaşıb. Yalnız AXCP sədri Əli Kərimli birmənalı olaraq dialoqdan və görüşməkdən imtina edib. Otuz ildir ki, eyni iddialarla yaşayır və nəticəsi də yoxdur. Gecə yatanda da yuxusuna kreslo girir.

Siyasətçinin nəticəsi olmalıdır, yoxsa dibi boş qazan kimi çak-çak etməyin nə mənası var? Siyasətdə imkanlar tükənməz, o isə özünü qapalı qəfəsə salaraq kilidləyib, çıxmaq da istəmir. Ümumiyyətlə, bu tip siyasətçilərin dövrü bitib, indi bu hakimiyyətlə başqa metodlarla mübarizə aparan yeni nəfəslərə ehtiyac var. Mən əminəm ki, hakimiyyətlə dialoq mühitində xalqın sosial rifahının yaxşılaşması üçün, fərqli və daha münasib siyasi şəraitin yaradılması üçün nəticələrə nail ola biləcəyik. İnanın ki, çoxlu tənqidlər demək, ancaq qaragünlü kimi şikayət etməkdən xoşum gəlmir və istərdim ki, tezliklə bu sahədə müsbət dəyişikliklərə nail olaq və ölkəmiz üçün daha qlobal məsələlər üzərində köklənək.

***Z.Məmmədli***

# Cahangir Əsgərova böyük şok...

## Fəaliyyəti iflic edilən AZAL özəlləşdirilə bilər



***Məlum olduğu kimi, ölkə başçısı ötən həftə keçirdiyi müşavirədə bəzi dövlət şirkətlərinin fəaliyyətindən danışıb. Dövlət başçısı həmin şirkətlərdə aşkarlanan nöqsanları tənqid edib.***

Məsələn, "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) fəaliyyətindən bəhs edən dövlət rəhbəri bildirib: "AZAL-ın bütün təyyarələri dövlət tərəfindən alınıbdır. Bütün aeroportlar dövlət tərəfindən tikilibdir. Bəs, bunun dövlətə verdiyi mənfəət, gəlir nədir? Bu təyyarələr alınır, onlar istismar edilir. Bəs, bunun gəliri haradadır? Bu, nə vaxt ödəniləcək, götürdüyü kreditləri gərək dövlət zəmanəti hesabına sonra biz ödəyək?"

Ölkə başçısının bu çıxışından sonra bəzi dövlət şirkətlərinin özəlləşdirilə biləcəyi gündəmə gəlib. Bu barədə yerli KİV-ə danışan Milli Məclisin deputatı, iqtisadçı Vahid Əhmədov onların tam özəlləşdirilməsinin mümkün olmadığını qeyd edib. Eyni zamanda, deputat özəlləşdirmənin müəyyən xidmət növlərində aparılmasının mümkünlüyünü bildirib: "Ancaq adıçəkilən şirkətlərin müəyyən xidmət növləri var ki, onlar mütləq özəlləşdirilməlidir. Bu barədə çoxdan söhbət gedir. Həm Milli Məclisin iclaslarında, həm də mətbuatda bu məsələlərə neçə dəfə toxunmuşuq. Belə iri şirkətlərin xidmət və istehsal sahələri o qədər də strateji əhəmiyyət kəsb etmir. Hesab edirəm ki onlar mütləq özəlləşdirməyə çıxarılmalıdır".

Parlamentari yeni yaradılan Azərbaycan İnvestisiya Holdinqindən də söhbət açıb: "Cənab prezidentin yaratdığı Azərbaycan İnvestisiya Holdinqinin əsas vəzifələrindən biri bu sahələrdə ciddi struktur islahatlarının aparılmasından ibarət olacaq. Struktur islahatlarının getməsi nizamnamədə də öz əksini tapıb. Bu şirkətlərin əksəriyyəti strateji əhəmiyyətli sahələrdir. Amma o sahələrdə elə hissələr var ki, heç bir strateji əhəmiyyəti yoxdur. Düşünürəm ki, onları özəl şirkətlərə vermək olar. Özəl şirkətlər də o sahələri işlədəcəklər və lazım olanda gedib kredit götürəcəklər. Bu zaman dövlətin zəmanətinə ehtiyac olmayacaq. Bir sözlə, yükü dövlətin üzərindən götürəcəklər".

Ümumiyyətlə isə iqtisadçı ekspertlər fəaliyyəti tənqid hədəfinə çevrilən dövlət şirkətlərindən bir çoxlarının, məsələn, AZAL-ın özəlləşdirilməsi gərəkdiyini düşünürlər.

Qeyd edək ki, hazırda AZAL-ın səhmlərinin 100% dövlətə məxsusdur. Bir müddət əvvəl Moldova öz milli aviadaşıyıcısını özəlləşməyə çıxarıb. Gürcüstanda isə bu bir neçə il qabaq baş verib və hazırda bu ölkənin milli aviaşirkətinin səhmlərinin 49%-i özəl sektora, 51%-i dövlətə məxsusdur.

Xatırladaq ki, hələ 2018-ci ildə "Azərbaycan Hava Yolları" QSC-nin özəlləşdirilməsi təklifi gündəmə gəlmişdi. Belə ki, Avropa İttifaqı (Aİ) "Aviasiya sazişi" ilə bağlı təkliflərini Azərbaycana təqdim etmişdi. Təkliflər arasında AZAL-ın özəlləşdirilməsi ilə bağlı müddəalar da var.

"Bilirik ki, AZAL dövlət büdcəsinə daha çox vəsait gətirə bilər. Təklif etmişik ki, onu özəlləşməyə çıxarsınlar. Digər ölkələrin təcrübəsindən də yararlana bilərlər və biz həmin ölkələrin təcrübələrini də hökumətə təqdim etmişik. Təkliflərdə göstərmişik ki, AZAl bazar iqtisadiyyatına keçsə, burda neqativ heç nə yoxdur" - həmin vaxt Aİ-dəki mənbə bildirmişdi.

O vaxt V.Əhmədov demişdi ki, AZAL-ın özəlləşdirilməsi təklifini müsbət qiymətləndirir. Deputat əlavə etmişdi ki, "Azərbaycan Hava Yolları" QSC özəlləşdirilsə, bu aviaşirkətin dövlət büdcəsinin vəsaitinə ehtiyacı olmayacaq: "Beləliklə, AZAL özü-özünü maliyyələşdirmə prinsipinə keçə və xaricdən daha çox investisiya cəlb edə bilər. Bu üzdən aviaşirkətin özəlləşdirilməsi prosesinə baxıla bilər. Çünki bu məsələ uzun müddətdir ki, gündəmdədir".

Millət vəkili təkcə AZAL-ın deyil, dövlət mülkiyyətində olan bir sıra şirkətlərin də özəlləşdirilməsinin gündəmdə olduğunu demişdi: "Ancaq elə sahələr var ki, onlar strateji sahələrdir və dövlət üçün əhəmiyyətlidir. Dövlət bu sahələri daha çox öz himayəsində saxlayır ki, orada ciddi problemlər yaranmasın. Lakin beynəlxalq aləmə nəzər salsaq, dünyada aviaşirkətlərin çoxu özəldir. Burada qeyri-adi bir şey yoxdur. Bu baxımdan da AZAL-ın özəlləşdirilməsi prosesi gedə bilər. Ancaq bunu elə etmək lazımdır ki, sonradan ciddi problemlər yaranmasın".

Qeyd edək ki, tanınmış iqtisadçı Natiq Cəfərli də AZAL-ın özəlləşdirilməsinin vacibliyini dilə gətirmişdi. O, Cahangir Əsgərovun rəhbərlik etdiyi QSC-nin rentabelli olmamasından tutmuş uçuş qiymətlərinin yüksək olmasınadək çoxsaylı problemlərdən danışarkən demişdi ki, bütün sadalanan problemlərin kökündə inhisarçılıq durur, onların yeganə həll yolu isə hava nəqliyyatında rəqabətli mühitin yaradılması, AZAL-ın rəqiblərinin bazara birbaşa çıxışının təmin edilməsidir: "Nə qədər ki, rəqabət mühiti olmayacaq, "AZAL" inhisarçı mövqeyindən istifadə edərək bazarda istədiyi kimi fəaliyyət göstərəcək. Əks təqdirdə, baha qiymətlərlə belə tələbat varsa, niyə qiymətləri aşağı salsın? Əgər bazarda başqa rəqibləri olsa, o zaman biletlərin satılmadığını görüb qiymətləri aşağı salacaq. Bəlkə də AZAL özəlləşdirilməlidir. Amma indiki halda özəlləşdirmə də çıxış yolu deyil. Hava sahəsinin idarə edilməsi AZAL-ın əlindən alınmalıdır. İdarəçilikdə çeviklik yaradılandan sonra sözügedən şirkətin özəlləşdirilməsinə getmək olar...".

Ölkə başçısının sərt tənqidlərindən sonra "Azərbaycan Hava Yolları" QSC-nin özəlləşdirilə biləcəyi ehtimalı yenidən güclənib. Cahangir Əsgərovun rəhbəri olduğu qurum borc bataqlığındadır, öz sahəsində monopolist şirkət olmasına və hər il dövlət xəzinəsindən külli miqdarda dəstək almasına baxmayaraq, hər il zərərlə işləyir, qısası, büdcə üzərində ağır yükə çevrilib. Belədə onun özəlləşdirilməsi ən optimal yollardan biri kimi görünür...

***Toğrul Əliyev***

# Lavrov Tovuz döyüşlərinə görə Ermənistanı ittiham etdi



***Rusiyanın "Trud" qəzetinə müsahibə verən Xarici İşlər naziri Sergey Lavrov iyul ayında Azərbaycan-Ermənistan sərhədində baş verən döyüşlərlə bağlı danışıb.***

"Unikal" xəbər verir ki, jurnalistin döyüşlərlə bağlı sualını cavablandıran XİN rəhbəri yaranmış vəziyyətə görə Ermənistanı günahlandırıb.

Belə ki, nazir jurnalistin "Azərbaycan - Ermənistan sərhədində növbəti şiddətlənmənin arxasında nə dayanır və onun genişmiqyaslı hərbi münaqişəyə çevrilmə ehtimalı nə qədərdir?" sualına cavab olaraq deyib: "Bu döyüşlərin arxasında bir sıra kompleks səbəblər dayanır. Əsası, şübhəsiz ki, həll olunmamış Qarabağ problemidir. Üstəlik, sərhədin hər iki tərəfindəki ictimai məkanın qeyri-adi dərəcədə istiləşməsi. Coğrafi amil də bir növ təhrikedici rol oynadı: Ermənistan tərəfinin Azərbaycanın ixrac boru kəmərlərindən 15 kilometr məsafədə yerləşən köhnə sərhədyanı Nəzarət Keçid Məntəqəsini reanimasiya etmək qərarı bir tərəfdə yüksək narahatlıq yaratdı, digər tərəfin (Ermənistan - red.) qeyri-adekvat reaksiyası nəticədə ən gözlənilməz nəticələrə yol açdı".

Lavrov qeyd edib ki, vəziyyəti sabitləşdirmək üçün iyulun 13-də Rusiya Xarici İşlər Nazirliyi tərəfləri dərhal atəşkəsə çağırıb, həmçinin Azərbaycan və Ermənistandakı həmkarları ilə telefon danışığı aparıb və Rusiyada hər iki ölkənin diaspor təşkilatlarının nümayəndələri ilə görüşüb.

O bildirib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqlar prosesinin vaxtından əvvəl bərpa olunacağını gözləyir.

"Biz bu barədə ATƏT-in Minsk Qrupundakı tərəfdaşlarımızla birlikdə işləyirik", - deyə Lavrov qeyd edib.

# Liseylərə elektron qeydiyyat başa çatdı

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki liseylərin V siniflərinə qəbul üçün elektron qeydiyyat başa çatıb.***

İdarədən "Unikal"a bildirilib ki, Texniki-Humanitar Lisey, 2 nömrəli Texniki-Humanitar Lisey, 147 nömrəli Texniki-Humanitar Lisey və 291 nömrəli Ekologiya Liseyinin V siniflərinə www.sy.edu.az elektron sistemi vasitəsilə ümumilikdə 737 müraciət daxil olub.

Onlardan 339-u Texniki-Humanitar Liseyi, 85-i 2 nömrəli Texniki-Humanitar Liseyi, 163-ü 147 nömrəli Texniki-Humanitar Liseyi və 150-si 291 nömrəli Ekologiya Liseyini seçib.

Qeyd edək ki, qeydiyyatdan keçirilən şagirdlər müvafiq liseylərə qəbul olunmaq üçün müsabiqədə iştirak edəcəklər. BŞTİ tərəfindən mərkəzləşdirilmiş qaydada təşkil olunacaq müsabiqədə şagirdlər ana dili, riyaziyyat və məntiqə aid test tapşırıqlarını yerinə yetirəcəklər.

Müsabiqənin 25 avqust tarixində təşkil olunması nəzərdə tutulur.

# Ermənistanda daha 6 nəfər koronavirusdan öldü

***Ermənistanda son sutka ərzində 158 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxub.***

Modern.az xəbər verir ki, bununla da Ermənistanda COVID-19-a yoluxanların ümumi sayı 42 477 nəfərə çatıb.

Ermənistanda son sutkada daha 6 nəfər koronavirusdan ölüb və xəstəlikdən ölənlərin sayı 842 nəfərə çatıb.

# TƏBİB seroloji testlər üçün müraciətləri qəbul etmir



***Bir çox respirator viruslar orqanizmə daxil olduqdan sonra qanda onlara qarşı anticisimlər (immunitet) formalaşır.***

"Unikal" xəbər verir ki, bunu Trend-ə açıqlamasında Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) infeksion xəstəliklər üzrə işçi qrupunun üzvü Nəzrin Mustafayeva deyib.

Onun sözlərinə görə, COVİD 19-a yoluxan şəxslərdə də bu immunitet seroloji testlərlə və qandan alınmış nümunələrlə aşkar edilir: "Bu testlər əhalinin müəyyən bir qismində aparılandan sonra artıq insanların neçə faizinin bu virusa yoluxub sağaldığı ilə bağlı statistika formalaşır. Son araşdırmalar onu göstərir ki, 81 faizə yaxın insan bu xəstəliyi yüngül simptomlu və ya simptomsuz keçirir. Həmin şəxslər hətta koronavirus xəstəliyini keçirdiklərinin fərqində olmurlar. Bir neçə gün onlarda kəskin respirator infeksiya müşahidə edilir və sonra sağalırlar. Həmin şəxsin koronavirusa yoluxuğunu seroloji testlər vasitəsilə qanda aşkar edə bilirik. Vətəndaşlar bununla bağlı müraciətlər edirlər və koronavirusa yoluxub-yoluxmadığını dəqiqləşdirmək istəyirlər. İndiyə qədər bu müayinələr özəl klinikalarda ödənişli həyata keçirilirdi. İndi isə biz bunu bir layihə kimi həyata keçiririk. Bu layihə Almaniya, Çin, Türkiyə, İspaniya kimi böyük ölkələrdə də həyata keçirilir. Azərbaycanda da bu layihəyə start verilib".

N.Mustafayeva bildirib ki, hazırda seroloji test əhali arasında təsadüfi seçmə yolu ilə aparılır: "Həmin şəxslərə bu müayinədən keçmək təklif olunur. Düzdür, bu prosesdə testdən könüllü keçmək istəyənlər də var və bununla bağlı müraciətlər edirlər. Amma bu proses layihənin təsadüfi seçmə prinsipini pozur. Ona görə də, hələ ki, könüllü müraciətləri qəbul etmirik. Seroloji testi venadan alınmış 3-5 milli qram qanın laborator müayinəsi zamanı müəyyən edilir. Bu testləri icra etmək üçün istifadə olunan reaktivlər Almaniyanın "Avroimmun" şirkətinin istehsalıdır. Bu reaktivlər qanda həmin anticisimləri təyin etməyə həssasdır. Bu müayinədən keçən şəxslərə həmçinin qanın ümumi analizi də ödənişsiz təyin edilir".

İşçi qrupunun üzvü bildirib ki, bu testlər vasitəsilə Azərbaycanda nə qədər insanın koronavirusa yoluxduğu müəyyən ediləcək: "Əgər test zamanı kimdəsə pozitiv nəticə aşkarlanarsa, həmin şəxs arxayın olacaq ki, o artıq COVİD-19-u keçirib və sağalıb. Bu, geniş miqyasda həyata keçirilsə, əhəmiyyətli nəticələr əldə edə bilərik".

# "Etibarnamə mülkiyyət hüququ vermir" - Ədliyyə Nazirliyi

***Hər hansı əmlaka etibarnamə verilirsə, bu, həmin şəxsə əmlakla bağlı mülkiyyət hüququ vermir.***

"Unikal"ın məlumatına görə, bunu Azərbaycan Notariat Palatası İdarə Heyətinin sədri, 2 saylı Bakı "ASAN xidmət" mərkəzi notariat ofisinin notariusu Hüseyn Məmmədov deyib.

Onun sözlərinə görə, etibarnamə əmlaka yalnız təmsilçilik hüququ verir: "Bu hüquq mülkiyyətçinin dəyişməsinə, əmlak üzərində bütünlükdə sərəncamvermə hüququ yaratmır. Əmlak üzərində tam mülkiyyət hüququna sahib olmaq üçün mütləq şəkildə alqı-satqı, bağışlama və s. müqavilələr bağlanmalıdır".

# 227 obyektdə sanitariya-gigiyena tələbləri pozulub

***Sahibkarlıq subyektlərində zəruri qayda və tələblərə əməl olunmasına nəzarət monitorinqləri davam etdirilir.***

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən Azvision.az -a bildirilib ki, nazirliyin avqustun 20-də keçirdiyi nəzarət tədbirləri zamanı Nəsimi rayonunda "Ağ Çiçəyim" gül mağazasında, "Oliqarx Butik" mağazasında, "Şəki Xan Kafe"-də, "İnab Kafesi"ndə, "Kövsər Dönər"də "Aptek 72"də, Xaqan Muradova məxsus "Gül Mağazası"nda, Xətai rayonunda "Real Elektroniks Mağazası"nda, "Oba Market"də, "Kafe Qaymaq"da, "Yaşıl Ada Kafe"də, Qaradağ rayonunda "24 Saat Market"də, "Kafe Terminal"da, "İnci Kafe"də, "Xəzri Restoranı"nda, Səbail rayonunda "Deko Mebel" mağazasında, "Kefli Local Wine&Snacks"də, "Osmanlı Kafe"də, "Restoran "Cookshop"da, "Asian Street Food"da, "Qəbələ Restoranı"nda, "Palma Kafesi"ndə, Nizami rayonunda "Taxta Çayxana"da, "Məkan Kafesi"ndə, "Qızılqaya Restoran"da, Binəqədi rayonunda "Murad Market"də, "Orxan Market"də, "Behrud Tikinti Malları Mağazası"nda, "Market MMS"də, "Novxanı Həyat İstirahət Mərkəzi"ndə, "Line Kafe"də, "Kafe Xocəsən"də, "Ovqat Restoran"da, Nərimanov rayonunda "Suşi Azərbaycan"da, Suraxanı rayonunda "Aydın Market"də,



"Ordubad Kafesi"ndə, "Dost Kafe"də, "Tumurcuq Kafe"də, "Turşsu Restoranı"nda, "El-Bunger Kafesi"ndə, "Çənlibel" ictimai iaşə xidməti obyektində, Xəzər rayonunda "Uşaq Aləmi Kafe"də, "Nəqşi-Cahan Kafesi"ndə, "Khalcha Restaurant"da, Yasamal rayonunda "Ulduzlu Market"də, "Fidan Gözəllik Salonu"nda, "Buta Butik Mağaza"da, "Berlin Alman Malları" ticarət obyektində, Nərimanov rayonunda "Best Markalı Matras və Yataq Dəstlərinin Satışı" pərakəndə ticarət obyektində, "Sobsan-Boya" mağazasında, "Mayomed Klinikası"nda, ümumilikdə monitorinq aparılmış 2336 obyektin 227-də epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena tələblərinin pozulduğu müəyyən edilib.

Nöqsanlara yol vermiş subyektlər barədə İnzibati Xətalar Məcəlləsinə uyğun tədbirlər görülüb.

# Kamran Əliyev Ankara Baş prokuroruna müraciət etdi

Son günlər bir sıra kütləvi informasiya vasitələri və sosial media səhifələrində Türkiyənin Ankara şəhərində yaşayan Nailə Həsənovanın 3 azyaşlı övladları ilə birlikdə 8 il qeyri-rəsmi nikahda yaşadığı Türkiyə vətəndaşı Ercan Kapan tərəfindən işgəncə və zorakılığa məruz qalması, onun və azyaşlı övladlarının həyatının təhlükədə olması, bundan başqa uşaqların bioloji anası olduğu halda E.Kapanın rəsmi nikahda olduğu arvadını saxtakarlıq yolu ilə üç uşağının anası olaraq rəsmiləşdirdiyindən övladlarının qəyyumluğunu əldə edə bilməməsi, bununla əlaqədar olaraq onların vəsiqələrini dəyişdirə bilməməsi, bu faktorun təhsil hüquqlarını həyata keçirməyinə və eləcə də tibbi xidmətdən yararlanmalarına mane olması barədə məlumatlar yayılıb.

Baş Prokurorluqdan Azvision.az -a verilən məlumata görə, bununla əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Ankara Cümhuriyyət Baş prokuroru Yüksel Kocamana rəsmi qaydada müraciət edərək qanunun aliliyi prinsipini rəhbər tutmaqla qeyd edilən məsələnin nəzarətə götürülüb araşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsini və Nailə Həsənovanın övladları ilə birlikdə Azərbaycan Respublikasına gəlməsində köməklik göstərilməsini xahiş edib.



# Əlilliyi olan şəxslərin hüquqlarının qorunması ictimai nəzarətdədir

***Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi ilə bağlı Monitorinq Komissiyasının ictimaiyyətin nümayəndələri ilə görüşləri baş tutub.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) Azvision.az -a verilən məlumata görə, 40-a yaxın ictimai təşkilat nümayəndələri və əlilliyi olan fəallarla görüşün biri 2020-ci il 18 avqust, digəri isə 21 avqust tarixində baş tutub. Görüşlərdə Komissiyanın rəhbəri və DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əlillik siyasəti şöbəsinin müdiri Sabir Qocayev, Komissiyanın digər üzvləri, o cümlədən ölkədə əlillik sahəsində fəaliyyət göstərən aparıcı qeyri-hökumət təşkilatlarının nümayəndələri və ictimai fəallar iştirak ediblər.

Monitorinq Komissiyasının sədri F.Məmmədovun moderatorluğu ilə keçirilən görüşlərdə əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sahəsində dövlət tərəfindən görülmüş işlər, o cümlədən müvafiq sahədə dövlət monitorinqinin təşkilinin məqsəd və vəzifələri, 2020-ci il üzrə tədbirlər planı və onun icra vəziyyəti barədə məlumat verilib. Monitorinqin aparılması üçün təklif olunan metodologiya və pandemiya dövründə monitorinq üsulları rəy və təkliflərin öyrənilməsi üçün ictimai müzakirəyə çıxarılıb.

Tədbiri giriş sözü ilə açan F.Məmmədov sağlamlıq imkanları məhdud olan uşaqların və əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsinin Azərbaycan dövlətinin sosial siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. Bu istiqamətdə institusional, qanunvericilik və insfrastruktur sahəsində kifayət qədər ardıcıl tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

"Bu cür tədbirlərdən biri də Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsidir. Bununla əlaqədar 2020-ci il üçün tədbirlər planı hazırlanıb və ƏƏSMN tərəfindən təsdiq edilib. Tədbirlər planında ictimai iştirakçılığa xüsusi diqqət ayrılıb. Bu görüşün də məqsədi Monitorinq Komissiyası tərəfindən görülən işlər barədə ictimaiyyətə məlumat verilməsi, təkliflərin dinlənilməsi və verilən rəylərin növbəti mərhələlərdə nəzərə alınmasıdır", - deyə o vurğulayıb.

ƏƏSMN-in Əlillik siyasəti şöbəsinin müdiri Sabir Qocayev Monitorinq Komissiyasının hesabatlılığına toxunaraq Komissiyanın rəy və təkliflərinin də hökumətə təqdim olunacağını, bununla bağlı müvafiq qərarlar qəbul ediləcəyini xatırladıb. Onun sözlərinə görə, Monitorinq Komissiyasının fəaliyyətinin ilkin mərhələsində bir sıra ekspertlərlə görüşlər keçirilib.

"Hesab edirəm ki, bu tədbirlər əlilliyi olan şəxslərin hüquqlarının reallaşdırılması sahəsində görülən işlərin ən əhəmiyyətlisidir. Biz nazirlik olaraq ölkə qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində də işlər aparırıq. Bu sahədə işlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasında sizin də rolunuz böyükdür", - deyə o qeyd edib.

Görüş zamanı ictimai fəallar və QHT nümayəndələri əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi üzrə öz rəy və təkliflərini səsləndiriblər.

Sonda QHT nümayəndələri və ictimai fəallarla bu cür görüşlərin davam etdiriləcəyi, səsləndirilən rəy və təkliflərin Komissiya tərəfindən nəzərə alınacağı qeyd edilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 sentyabr tarixli 400 nömrəli Qərarı ilə "Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası" təsdiq edilib. Qərara əsasən, monitorinqin həyata keçirilməsi ƏƏSMN-ə tapşırılıb. Qərarın icrası məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müvafiq əmri ilə dövlət monitorinqinin həyata keçirilməsi üzrə 2020-ci il üçün tədbirlər planı da təsdiq edilib.

Müvafiq olaraq ƏƏSMN-nin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin və DOST Agentliyinin əməkdaşlarından ibarət Monitorinq Komissiyası yaradılıb. Komissiya tərəfindən aparılacaq monitorinqin əsas istiqamətləri aşağıdakılardır:

-əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi istiqamətində onlara müyəssər şəraitin yaradılması səviyyəsinə baxış keçirilməsi (iş, təhsil, səhiyyə və digər sosial mühitin, ictimai, nəqliyyat və kommersiya infrastrukturunun əlilliyi olan şəxslərin xüsusiyyətlərinə uyğunluğu);

-inklüzivlik imkanlarının yaradılması sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı vəziyyətin araşdırılması (əlilliyinin növündən, formasından və dərəcəsindən asılı olmayaraq, yaşadığı yerdə layiqli həyat səviyyəsinin təminatı üçün əlilliyi olan şəxsə müyəssərliyin təmin edilməsi);

-ağlabatan uyğunlaşmanın təmin edilməsi ilə bağlı mövcud vəziyyət və təhlilin aparılması (əlilliyi olan şəxslər tərəfindən əsas insan hüquqlarının və azadlıqlarının digərləri ilə bərabər səviyyədə həyata keçirilməsinin təmin olunması məqsədilə zəruri və mümkün uyğunlaşma və düzəlişlər edilməsi).

- əlilliyə görə ayrı-seçkilik faktlarının aşkar edilməsi və üzə çıxarılması ( bütün sahələr üzrə ayrı-seçkiliyin aşkarlanması və qiymətləndirilməsi) -.

Monitorinqin nəticələri əsasında Komissiya tərəfindən hesabat tərtib edilərək müvafiq qaydada təqdim ediləcək.

# Məmur korrupsiyasının arxa plandakı ilginc üzü...

## Yüksək çinlilərin həbs dalğasının kölgəsində qalan qandallanmalara diqqət! – onlar da zindana göndərilir

***Son vaxtlar cəmiyyətin diqqəti icra başçılarından tutmuş ayrı-ayrı nazirliklərdəki yüksək post sahiblərinin DTX ilə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən həbsinə yönəlib. Bu da təsadüfi deyil: qandallanan bu şəxslər həm iri məmur kateqoriyasına daxildirlər, həm də istər tanınma dairələrinə, istərsə də sərvətlərinə görə fərqlənirlər.***

Halbuki sözügedən həbslərlə bərabər, aşağı ranqlı məmurların da korrupsiya faktlarına görə yaxalanması halları geniş yayılıb. Bu sırada xüsusilə bir sıra kənd icra nümayəndələrinin qandallanması diqqət çəkir.

"Unikal" qəzeti oxucuların marağına səbəb olacağını nəzərə alıb belə həbslərlə bağlı kiçik araşdırma aparıb. Araşdırma nəticəsində məlum olub ki, təkcə son beş ayda:

- Apreldə Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi əməliyyatı ilə İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının İsmayıllı şəhəri üzrə icra nümayəndəsi Məhərrəm Əhmədov həbs edilib. Onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Məhərrəm Əhmədovun İsmayıllı rayonunun Mican kəndində yerləşən yaşadığı evə baxış keçirilərək müxtəlif fiziki şəxslərə məxsus plastik bank kartları aşkar edilmiş və müəyyən edilib ki, sonuncu öz yaxın qohumlarının adlarına formal olaraq rəsmiləşdirməklə müxtəlif sayda plastik bank kartlarının alınmasına nail olub, bu yolla ümumilikdə 2016-2020-ci illər ərzində 12.400 manat məbləğində vəsaiti qanunsuz olaraq mənimsəyib. Bundan başqa, o, aztəminatlı ailələr üçün dövlət tərəfindən ayrılmış ərzaq sovqatlarını mənimsəyib.

- Mayda Şirvan, Naftalan şəhər, İmişli və Bərdə rayon İcra Hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin bəzi vəzifəli şəxslərinin bu qəbildən olan qanunazidd hallara yol vermələri barədə şəhər və rayon icra hakimiyyətlərindən rayon prokurorluqlarına daxil olmuş müraciətlərə baxılıb.

Araşdırmalarla Şirvan şəhər İcra Hakimiyyəti Başçısının Hacıqəhrəmanlı qəsəbə inzibati ərazi vahidi üzrə nümayəndəsi Pünhan Mənsimov və 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Fəqani Həsənov tərəfindən vəzifə saxtakarlığı edilməklə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar verilməsinə əsaslı şübhələr müəyyən olunub.

Naftalan şəhər İcra Hakimiyyəti Başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Asəf Cabbarov tərəfindən də eyni məzmunlu qanun pozuntusuna yol verilib. Belə ki, Asəf Cabbarovun da vəzifə saxtakarlığı etməklə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar verməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Eləcə də, İmişli Rayon İcra Hakimiyyəti başçısının Bəhrəmtəpə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Rafael Həsənovun da vəzifə saxtakarlığı edərək xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar verməsinə şübhələr üçün əsaslar aşkarlanıb.

Bundan başqa, Bərdə rayon İcra Hakimiyyəti Başçısının Xəsili kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Azad Salmanovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək rayon daxilində səyyar formada kənd təsərrüfatı məhsullarının satışının həyata keçirilməsinə icazə üçün müraciət etmiş ayrı-ayrı şəxslərə arayışlar təqdim edərkən qanunsuz hərəkətlərə yol verməsinə şübhələr müəyyən olunub.

Qeyd olunan şəxslər müvafiq rayon İcra hakimiyyəti başçılarının əmrləri ilə tutduqları vəzifədən azad ediliblər. Toplanmış materiallar üzrə Şirvan şəhər, Goranboy, İmişli və Bərdə rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işləri başlanəb.

- Yevlax Rayon İcra Hakimiyyəti başçısının Qaraməmmədli kənd nümayəndəsi vəzifəsində işləmiş Mikayıl Əsədov həbs edilib. Səbəb rayon ərazisində yaşayan aztəminatlı ailələrə göndərilmiş ərzaq yardımlarını natamam paylanmasıdır. Ona qarşı Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə mühüm zərər vurduqda) maddəsi ilə cinayət işi başlanıb.

Məlumatı Baş Prokurorluq yayıb. Bildirir ki, aparılmış istintaqla Mikayıl Əsədovun çalışdığı zaman xidməti vəzifəsindən sui-istifadə etdiyi məlum olub: "Aztəminatlı ailələrə göndərilmiş ərzaq yardımlarını natamam şəkildə paylayıb, mənimsəyib, fiziki və hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, habelə dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm ziyan vurub".

Baş Prokurorluq bildirib ki, Mikayıl Əsədovun işi baxılması üçün məhkəməyə göndərilib.

Mikayıl Əsədov avqustun 6-da saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 308.1-ci maddəsi ilə ittiham elan olunub. İndi isə cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq aidiyyəti üzrə baxılması üçün Yevlax Rayon Məhkəməsinə göndərilib.



- Masallı Rayon İcra Hakimiyyəti başçısının Ərkivan qəsəbəsi üzrə nümayəndəsi İsrail Tağıyev həbs edilib. Onun işi məhkəməyə göndərilib. Bu barədə məlumatı Baş Prokurorluq yayıb. Bildirilir ki, İsrail Tağıyev xüsusi karantin rejimi qaydalarına zidd olaraq insanların sərbəst hərəkət etmələri üçün onlara müxtəlif arayışlar verib. Araşdırma zamanı Masallı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanıb.

İstintaq zamanı, İsrail Tağıyevin xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxdığı məlum olub.

Prokurorluq bildirib ki, İsrail Tağıyev təqsirləndirilən şəxs qismində cəlb olunaraq ona qeyd edilən maddə ilə ittiham elan edilib və barəsində başqa yerə getməmək barədə iltizam qətimkan tədbiri seçilib.

Avqustun 14-də cinayət işi ibtidai istintaqı tamamlayaraq aiddiyyəti üzrə baxılması üçün Masallı Rayon Məhkəməsinə göndərilib.

Elə yuxarıdakı faktlardan da görünür ki, Azərbaycanda məmur korrupsiyasına qarşı mübarizə yalnız yüksək vəzifə sahiblərini əhatə etmir. Aşağı ranqlı məmurlar da bu ifşa və həbs dalğasından paylarını alırlar. Sadəcə, bu ifşalar, həbslər daha yüksək vəzifəlilərin qollarına vurulan qandalların kölgəsində qalır.

Lakin önəmlisi odur ki, rüşvət və korrupsiyaya bulaşan vəzifə sahibləri tutduqları postdan asılı olmayaraq bağışlanmır. Cəmiyyətin istəyi prosesin davamlı və dayanıqlı olmasıdır. Hansı nüfuza, sərvətə malik olur olsun, hər bir vəzifəli şəxs qanunsuz əməllərinə görə cəzalandırılmalıdır - bu ictimai rəyin ən böyük istəyi, ən əsası isə qanunvericiliyin başlıca tələbidir...

***Elvin Rüstəmov***



# Los Ancelesdə azərbaycanlılara hücumla bağlı beynəlxalq hesabat hazırlandı

***ABŞ-ın Los-Anceles şəhərində ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən nifrət cinayətin araşdırılması məqsədi ilə Bakı Dövlət Universitetinin (BDU) Hüquq fakültəsinin, "MG Consulting" şirkətinin və Şəffaflıq Azərbaycan təşkilatının təşəbbüsü ilə yaradılan beynəlxalq işçi qrupunun hesabatı hazırlanıb.***

Hesabatda 11 şahidin ifadələri yer alır. Bildirilib ki, hesabatın hazırlanmasında şahid ifadələri, yüzlərlə foto və video görüntülər təhlil edilib: "Aksiyada 3000-5000 arası erməni iştirak etdiyi halda azərbaycanlıların sayı 60 nəfərdən çox olmayıb. Mitinq sakit başlasa da, sonradan təhlükəli hal alıb və azərbaycanlılar mitinq olan meydanı tərk etmək istəyərkən, ermənilər onları binaların arasında, dar keçidlərdə yaxalayaraq, təzyiq göstəriblər. Hücum zamanı müxtəlif alətlərdən istifadə edilib".

Hesabatda qeyd olunub ki, hadisə zamanı ümumilikdə 15-20 azərbaycanlı döyülüb, onlardan 7 nəfərinin xəsarəti daha ağır olub: "Hücum zamanı bir neçə azərbaycanlının əmlakına zərər dəyib. Ermənilər Azərbaycan bayrağına qarşı təhqiramiz münasibət göstəriblər, azərbaycanlılara qarşı təhqiramiz ifadələr işlədiblər. Eyni zamanda, mitinqdə ASALA terror təşkilatının emblemi olan köynək geyinmiş adamlar da olub".

Hesabatda bir neçə məhkəmə təcrübəsi nümunə gətirilib. Hesabatın məqsədi ABŞ məhkəməsinin mövcud cinayətə hüquqi qiymət verməsini təmin etməkdən ibarətdir.

Gələcəkdə də bu cür nifrət cinayətlərinin qarşısının alınması məqsədi ilə hesabat təkcə ABŞ dövlətinə deyil, dünyanın bütün dövlətlərinə və onların Xarici İşlər nazirliklərinə göndəriləcək.

# Karantini pozan çayxanaların fəaliyyəti dayandırıldı

***Ağdaş Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində rayon ərazisində sanitar-karantin rejim qaydalarının pozulduğu ictimai iaşə müəssisələri aşkar edilib.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şəki regional qrupundan Unikal.org-a verilən məlumata görə, Qida Təhlükəsizliyi Agentliyi əməkdaşlarının da iştirakı ilə keçirilən reyd zamanı karantin rejimi qaydalarına əməl etməyən, eləcə də sanitar-epidemioloji normaların pozulması ilə müşayiət olunan kafe, restoran və çayxanalar aşkarlanıb. Polis və AQTA əməkdaşları sahibkarlar və icarədarlarla profilaktik söhbətlər aparıb, tələblərə riayət etmələrinin həm özləri, həm də digərlərinin sağlamlığı üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Həmçinin, gözəllik salonlarında, bərbərxanalarda, mağazalarda və digər qapalı məkanlarda da reyd davam etdirilib. Polis əməkdaşları bəzi icarədarların, satıcı və müştərilərin tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etmədiklərini aşkarlayıblar.

Ümumilikdə, qaydaları pozduqları üçün 2 çayxananın fəaliyyəti dayandırılıb, 11 şəxs barəsində inzibati tənbeh tədbirləri görülüb.

Bu istiqamətdə tədbirlər davam etdirilir.



## Baş Prokurorluq qadınların törətdiyi cinayətlərin statistikasını açıqladı

***2019-2020-ci illər ərzində qadınlar tərəfindən və qadınlara qarşı törədilən cinayətlərin statistikası məlum olub.***

Baş Prokurorluğun "Instagram" səhifəsində aparılan sual-cavab sessiyasında bildirilib ki, qadınlar tərəfindən və onlara qarşı törədilən cinayətlərin statistikası Daxili işlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi tərəfindən aparılır.

"2020-ci ilin birinci yarımilində qadınlar tərəfindən 463, 2019-cu ildə isə 1039 cinayət törədilib. 2020-ci ilin birinci yarımilində qadınlara qarşı 1291, 2019-cu ildə isə 3091 cinayət törədilməsi baş verib", - deyə Baş Prokurorluqdan bildirilib.

## Azərbaycanda səyyar notariat xidmətinə başlanıldı

***Azərbaycanda vətəndaşlara səyyar notariat xidmət göstərilməsi mümkündür.***

"Unikal"ın məlumatına görə, bunu Ədliyyə Nazirliyi Notariat və Qeydiyyat İdarəsinin baş məsləhətçisi Zaur Hüseynov deyib.

Onun sözlərinə görə, artıq notariat ofisləri səyyar xidmət üçün lazım olan zəruri avadanlıqlardan ibarət "notariat çantaları" ilə təmin edilib: "Əgər vətəndaşın səhhətində problem yaranarsa, notariat ofisinə getməsi mümkün deyilsə, onda "notariat çantası" vətəndaşın evinə gətirilə və həmin ünvanda ona səyyar xidmət göstərilə bilər. Bu çantaların elektron informasiya sisteminə birbaşa çıxışı imkanı var. Əvvəlcədən bildiriş verən şəxslərə notariat evində səyyar xidmət göstərir"

## Tağı İbrahimovun şirkətinin özbaşınalıqları

***Bakı şəhər, Nərimanov rayon sakinləri "Nehrəm" MTK-nın özbaşınalıqlarından şikayətçidirlər.***

Unikal.org xəbər verir ki, bu barədə sakinlər "Reaksiya Tv"-yə bildiriblər ki, sözügedən MTK-nın Nərimanov rayonu, Həsən Əliyev 33, Məhəllə 945-də inşa etdirdiyi yeni və köhnə çoxmərtəbəli yaşayış binaları arasında ara məsafəsi qorunmur, həmçinin yeni binanın tikintisində təhlükəsizlik qaydalarına əməl olunmur. Sakinlərə satılan binadakı mənzillərin çıxarışı sahiblərinə verilmir. Əhalinin "Nehrəm" MTK-ya verdiyi kommunal ödənişlər isə aidiyyatı dövlət qurumlarına ödənilmir.

Qeyd edək ki, "Nehrəm" MTK-nın təsisçisi "ATV" televiziyasının sabiq prezidenti Tağı İbrahimovdur.

***Elvin Rüstəmov***

# Ceyhun Cəfərov icra başçılarının yuxusunu qaçırdı...

## "Unikal"ın yazdıqları növbəti dəfə təsdiqini tapdı – daha bir "kiçik padşah" qandallandı; rayon rəhbərlərinin korrupsiya ifşası davam edəcək



***Qəzetimizin sadiq oxucuları xatırlayacaqlar: "Unikal"ın ötən sayında icra başçılarını gözləyən yeni həbs dalğası barədə yazmışdıq. Yazıda ötən ilin sonlarından başlayaraq, Azərbaycanda bir sıra rayon rəhbərlərinin keçirilən xüsusi əməliyyatlar nəticəsində saxlanıldığını və barələrində həbs qəti-imkan tədbiri seçildiyini yada salmışdıq.***

Bu əməliyyatlardan və həbslərdən sonra DTX-nin nazirliklərə yönəldiyuini, öncə Mədəniyyət Nazirliyində, ardınca Dövlət Sərhəd Xidməti və Xarici İşlər Nazirliyində anti-korrupsiya tədbirləri nəticəsində yüksək vəzifəli şəxslərin elə cinayət başındaca yaxalandığını vurğulamış və əlavə etmişdik: bir çoxlarının fikrincə, artıq icra başçılarının həbsinə son verilib, diqqət daha yüksək instansiyalarda - nazirliklərdə, dövlət komitələrində qanunsuz əməllərin ifşasına yönəlib. Bəs doğrudanmı, artıq rayon rəhbərlərini hər hansı həbs riski gözləmir?

Yazıda bunu da vurğulamışdıq: söhbətləşdiyimiz qaynaqların dediyinə görə, bu, yanlış qənaətdir - korrupsiya prinsipləri üzərində qurmağı bacarmalıdır..." - bu da "Unikal"ın ötən həftəki yazısındandır.

Və yazdıqlarımız növbəti dəfə təsdiqini tapdı: yola salmaq üzrə olduğumuz həftə Baş Prokurorluq Kürdəmir Rayon İcra Hakimiyyətində (RİH) keçirilən əməliyyatla bağlı rəsmi açıqlama yaydı. Məlumatda bildirilirdi ki, aparılmış istintaqla Kürdəmir rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərovun icra hakimiyyəti başçısının birinci müavini Tacəddin Novruzov, İcra hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Natiq Kərimov və icra hakimiyyətinin digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olmaqla və onlar vasitəsilə rayon ərazisində fəaliyyət göstərən səhiyyə, təhsil və digər dövlət müəssisələrindən, habelə bir sıra özəl müəssisələrdən müxtəlif məbləğdə pul vəsaitlərini, eləcə də, dövlətin mənafeyinə ağır nəticələrə səbəb olan mühüm zərər vuran digər qanunsuz hərəkətlər etməsinə əsaslı şübhələr müəyyən edilib.

Belə ki, istintaqla həmin şəxslərin əməllərinə davam edən hər bir məmur kimliyindən, tutduğu postdan asılı olmayaraq hər an oxşar əməliyyatlarla qarşılaşa bilər. Bu sırada icra başçılarının xüsusi yeri var, çünki vətəndaşlar ən çox onların fəaliyyətlərindən narazıdırlar. Ona görə də mərkəzi hakimiyyət bu strukturların mənimsəmədən, yeyintidən təmizlənməsində, ictimai rəydəki mənfi obrazının dəyişməsində maraqlıdır. Elə bu səbəbdən də qanunsuzluqları davam etdirən icra başçılarının aqibəti indiyədək həbs edilənlərdən fərqli olmayacaq.

"Korrupsioner əməllərini davam etdirənlər, qanunları görməzdən gələnlər, dövlətin və vətəndaşın maraqlarından çox şəxsi mənfəətlərini düşünən istənilən vəzifəli şəx, o cümlədən də icra başçıları hər an qarşılarında DTX əməkdaşlarını görə bilərlər. Odur ki, hər bir məmur tutduğu postdan asılı olmayaraq indiyə qədərki həbslərdən nəticə çıxarmalı, fəaliyyətini qanunların aliliyi, şəffaflıq, hesabatlılıq birbaşa və icra hakimiyyətinin digər vəzifəli şəxsləri vasitəsilə ayrı-ayrı vaxtlarda rayon ərazisində fəaliyyət göstərən səhiyyə müəssisələrindən ümumilikdə 137 min manat, Kommunal Müəssisələr Kombinatından 58 min manat, rayon ərazisində fəaliyyət göstərən təhsil müəssisələrindən 120 min manat, "Azbiyan" Məhdud Məsuliyyətli Cəmiyyətindən 71 min manat məbləğində vəsaiti rüşvət qismində istəyərək almalarına əsaslı şübhələr müəyyənləşdirilib.

Qeyd edilənlərə əsasən, 19 avqust 2020-ci ildə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən Kürdəmir Rayon İcra Hakimiyyətinin İnzibati binasında, habelə rayonun Suvarma sistemləri və Yaşıllaşdırma idarələrində, Kommunal Müəssisələri Kombinatında və Kürdəmir şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyində əməliyyat-istintaq tədbirləri keçirilmiş, görülmüş tədbirlər nəticəsində həmin şəxslər tutularaq, Ceyhun Cəfərov, Tacəddin Novruzov və Natiq Kərimov Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 311.3.1 (rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və 311.3.3-cü (rüşvət alma külli miqdarda törədildikdə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində Binəqədi rayon məhkəməsinin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda Kürdəmir rayon icra hakimiyyətinin tabeliyindəki qurumlarda və rayon ərazisində fəaliyyət göstərən digər qurumların fəaliyyətində yol verilmiş qanun pozuntularının araşdırılması istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir. İş üzrə təqsirləndirilən şəxslərin dairəsinin dəqiq müəyyən olunaraq cinayət məsuliyyətinə cəlb edilmələri və istintaqın nəticəsi barədə ictimaiyyətə əlavə məlumat verilməsi təmin olunacaq.

Onu da deyək ki, ölkə başçısının sərəncamı ilə Ceyhun Cəfərov tutduğu postdan artıq uzaqlaşdırılıb.

Xatırladaq ki, 55 yaşlı C.Cəfərov 2011-2014-cü illərdə isə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb. 2014-cü ildən isə Kürdəmirə rəhbərlik edirdi. O, gənc yaşdan karyerasında yüksəlişə başlamışdı: 2006-cı ildə, cəmi 41 yaşında ikən Yasamal Rayon İcra Hakimiyyəti başçısının birinci müavini postuna irəli çəkilmişdi. Yaşlı məmurlardan boğaza yığılan cəmiyyət belə cavan kadrların yüksək vəzifələrə təyinat almasını təqdirlə qarşılayırdı.

Lakin Cəfərov çox keçmədən mətbuat səhifələrində rüşvət və korrupsiya itihamlarının hədəfinə çevrildi. Haqqında vətəndaşların şikayət xarakterli məktubları, müraciətləri sürətlə artmağa başladı. Son illərdə isə onun ən zəngin icra başçılarından birinə çevrildiyini təxmin etmək çətin deyildi. Bunu onun ailə sərvəti barədə KİV-də, sosial şəbəkələrdə yer alan iddialar da təsdiqləyirdi. Bu var-dövlətin qaynağının büdcə talançılığı, rüşvət və korrupsiya olduğunu təxmin etmək isə çətin deyildi.

Elə ona görə də Kürdəmirin sabiq icra başçısı və yaxın adamlarının Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən qandallanması təəccüb doğurmamalıdır.

Eyni zamanda, Ceyhun Cəfərovun həbsinin bir sıra digər icra başçılarının yuxusuna yenidən "haram qatacağı" da şübhəsizdir. Vəzifəsindən sui-istifadə edən, büdcəni talayan, dövlətə və millətə xidmət əvəzinə özlərinin, ailə üzvlərinin, qohum-əqrəbalarının mənfəətini düşünən rayon rəhbərləri, şübhəsiz, təzədən "iynə üstündə" oturublar: onlar anti-korrupsiya ifşalarının, əməliyyatlarının səngimədiyini bir daha gördülər və özlərinə çəki-düzən verməyəcəkləri təqdirdə növbənin onlara çatacağının fərqindədirlər...

***Sənan Mirzə***

# Həbsdəki icra başçılarının sayı 6-ya çatdı...

***Son illərdə Azərbaycanın hökumət strukturunda ciddi və əsaslı kadr islahatları aparılır. Bunlar həm də nazirlik, nazirlər və icra başçıları səviyyəsində zaman-zaman həyata keçirilib. 2005-ci ildə Fərhad Əliyev və Əli İnsanovun həbsindən sonra bir müddət bu sahədə sabitlik olsa da, 2015-ci ildə "MTN işi" ilə başlanan proses hələ də davam edir. Son aylarda ölkədə 10-a yaxın rayonun icra başçısı həbs olunub.***

İcra hakimiyyətlərində ilk əməliyyat Dövlət Təhlükəsizlik Xidməti tərəfindən 2019-cu il dekabrın 19-da Ağstafada baş tutdu. Başçı Nizaməddin Quliyev və birinci müavini Ramiz Tatarov həbs edildi.

Öncədən onu qeyd edək ki, icra başçılarının hər biri ortaq maddələrlə - rüşvət alma, mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə etmədə ittiham olunublar.




Nizaməddin Quliyev həbs edilərkən oğlanları ilə gündəmə gəldi. Onun bir oğlu - Ramin Quliyev Nərimanov rayon məhkəməsinin hakimidir. Kiçik oğlu Ramal Quliyev isə Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin müstəntiqi idi. Atasının həbsindən sonra keçmiş baş prokuror Zakir Qaralov onu vəzifəsindən çıxardı. Ramal Quliyev Xalq artisti Aygün Kazımovanın qızı İlqarənin bir neçə il əvvəl yayılan qalmaqallı videosunda da yer almışdı. Onun bankların birində filial müdiri işləyərkən milyonluq yeyintiyə yol verdiyi haqda məlumat yayılmışdı.

Nizaməddin Quliyevlə birgə Yevlaxın icra başçısı olmuş Qoca Səmədov da həbs olunmuşdu. Lakin onun həmin zaman vəzifədə olmaması və mənimsədiyi məbləğin az olması Qoca Səmədovun ictimai müzakirələrə səbəb olmaması ilə nəticələndi.

Əməliyyatın davamı kimi 2020-ci ilin fevral ayında DTX Neftçalaya üz tutdu. İcra başçısı İsmayıl Vəliyevlə birgə birinci müavini Vurğun Əkbərov və bir neçə şöbə müdiri də həbs edildi. Bu rayonda əməliyyat daha geniş sferanı əhatə etdi və rayon Mərkəzi Xəstəxanasının baş həkimi Telman Zahidov, rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimov da rüşvət alma və verməyə görə dəmirbarmaqlıqlar arxasına yollandılar.

Gəncliyində bank sektorunda işləyən İsmayıl Vəliyev daha sonra Gömrük Komitəsində vəzifə tutub. İsmayıl Vəliyev Azərbaycanın sabiq baş prokuroru İsmət Qayıbovun bacısı oğludur. Onun oğlu Məhərrəm Vəliyev Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyində rəis müavini vəzifəsində çalışır. Lakin o, həbsindən sonra aldığı rüşvətlər və işlətdiyi eşşək ferması ilə daha çox yadda qaldı.

Aprelin 29-da isə rüşvətxor məmurların kabusuna çevrilən əməliyyatçılar Biləsuvar rayonuna baş çəkdilər. İcra başçısı Mahir Quliyev kabinetindəcə həbs olundu. O da digər icra başçıları kimi özündən aşağı vəzifədə olanlardan rüşvət almaqda, aztəminatlı vətəndaşları ictimai işlərə yazdırıb pullarını özü mənimsəməkdə ittiham olundu. DTX-da ifadə verərkən "bugünkü durumuma görə çox utanıram, vicdan əzabı çəkirəm" demişdi. Mahir Quliyevin 42 yaşına kimi heç bir ali təhsili olmayıb.

Onun bioqrafiyasında 2000-ci ildə "Naxçıvan" universitetini bitirdiyi qeyd edilsə də, TQDK bu məlumatı təkzib edib. Onun əmək fəaliyyətinə kolxozda fəhlə kimi başlaması, sonra vəzifəsinin artaraq usta olması diqqət çəkmişdi. Daha sonra Bakıda işləyən Mahir Quliyev bulvarda "Sahil" restoranında ofisiant, bir neçə il sonra isə administrator kimi işləyib. İddiaya görə, həmin restorana tez-tez gedən sabiq PA rəhbəri Ramiz Mehdiyevlə burada başlayan tanışlığı onun sonrakı vəzifə pillələrində irəliləməsində dəstəyi olub. Mahir Quliyevin məşhur iş adamı Hacı İbrahim Nehrəmli ilə quda olduğu bildirilir. Mahir Quliyevin qızı Hacı İbrahimin oğlu ilə evlidir. Cütlüyün toyu 2011-ci ildə baş tutub.

Bu əməliyyatdan bir həftə sonra, mayın 5-də DTX əməliyyatçıları İmişliyə yollandı. Həbsindən bir neçə ay öncə 124 manata kirayə yaşadığını elan edən Hacıyevin evindən və kabinetindən milyonlarla manat məbləğində pullar çıxdı.

Onun evində və kabinetində quraşdırılan kameralar vasitəsilə aldığı rüşvətlər və sövdələşmələri anbaan qeydə alınmışdı. Əməliyyat çəkilişi zamanı onun evinin qarajında 10 PR 777 nömrəli "Bentley" və 90 KH 900 nömrəli "Range Rover" markalı lüks avtomobillər də qeydə alınıb. Həbs edilib məhkəmədən çıxarkən isə qohumlarına "Hər şey yaxşı olacaq, bu günlər də keçəcək. Möhkəm olun" demişdi. Onun oğlu Məhəmməd Hacıyev də atasının həbsindən sonra Korrupsiyaya qarşı

Mübarizə Baş İdarəsindəki müstəntiq vəzifəsindən çıxarılmışdı. Maraqlı bir məqam budur ki, V.Hacıyev 2004-cü ildə Göygöldə başçı olarkən qardaşı Eldar Hacıyev həmin rayonda bank filial müdiri olub. E.Hacıyev mətbuata açıqlamasında bildirib ki, qardaşı Vilyam ona rayonda bir çox abadlıq işləri gördürsə də, sonradan 32 min manatı ona "atıb".

Üç aylıq fasilədən sonra bu dəfə Baş Prokurorluq bir icra başçısını "ovladı". Avqustun 19-da Kürdəmirin icra başçısı Ceyhun Cəfərov, müavini Tacəddin Novruzov və şöbə müdiri Natiq Kərimov həbs edildi.

Sabiq başçı C.Cəfərov may ayında iş otağında keçirdiyi videokonfrans zamanı "5 ay ərzində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən icra başçıları həbs olunub. Mən istəməzdim bizim rayonumuzda da belə hallar baş versin" demişdi. Onun istəyi qismən də olsa həyata keçdi. Çünki C.Cəfərovu digərlərindən fərqli olaraq DTX yox, prokurorluq həbs etdi. Ceyhun Cəfərov əmək fəaliyyətində İstilik-İstismar sahəsində çilingər kimi başlayıb, daha sonra isə Bakının müxtəlif rayonlarında "JEK"lərdə şöbə müdiri və müdir vəzifələrində çalışıb. Ceyhun Cəfərov Rabitə Nazirliyinin həbs edilən Aparat rəhbəri Vidadi Zeynalovla qayın-yeznədir.

Yazıda adları çəkilən hər bir icra başçısı və onların tabeliyində olan vəzifəli şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Həbs edilən icra başçıları Prezidentin sərəncamı ilə vəzifəsindən azad olunub(qafqazinfo).

***Murad Əhməd***

# "Bəzi rayonlarda aqrobağların vəziyyəti qənaətbəxş olmadı" - Firdovsi Əliyev



***"Meşə fondunun açıq sahələrinin potensialından səmərəli istifadə olunması və meşə örtüyünün artırılması məqsədilə açıq meşə ərazilərində salınmış aqrobağların vəziyyəti, onlara göstərilən qulluq səviyyəsi və görülən işlərin gedişatı ilə tanış olmaq üçün bu günlərdə bir neçə rayonda olduq və aqrobağlara baxış keçirdik".***

Bunu Unikal.org-a Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev bildirib. Nazir müavini qeyd edib ki, açıq meşə sahələrində salınmış aqrobağların monitorinqi Tovuz, Şəmkir, Samux, Gədəbəy, Yevlax, Bərdə, Ağdaş, Ağcabədi, Beyləqan, İmişli, İsmayıllı rayonlarının ərazisində keçirilib.

"Açıq meşə sahələrində salınmış aqrobağlarda keçirilən monitorinqlər zamanı bir çox ərazilərdə əkin qaydalarına kompleks şəkildə riayət olunduğunu, damcılı suvarma sisteminin çəkildiyini, ərazilərin su anbarları ilə təmin olunduğunu, qabaqcıl üsullardan istifadə olunmaqla işlərin yüksək səviyyədə təşkil edildiyini və nümunəvi aqrobağların salındığını müşahidə etdik.

Düzdür, bəzi rayonlarda aqrobağların vəziyyətinin qənaətbəxş olmadığının, əkilən ağaclara düzgün qulluq göstərilmədiyindən bitiş faizinin aşağı olduğunun, hətta müəyyən sahələrdən təyinatı üzrə istifadə edilmədiyinin şahidi olsaq da, deyərdim ki, ümumi nəticə ürəkaçandır", - nazir müavini qeyd edib.

F.Əliyev bitiş faizi qənaətbəxş olmayan ərazilərdə aqrotexniki xidmət işlərinin keyfiyyətinin artırılması ilə bağlı cavabdeh şəxslərə tövsiyələr olunduğunu, ərazilərin təyinatı üzrə istifadəsi ilə bağlı isə tələblər qoyulduğunu bildirib.

O, qeyd edib ki, qeydə alınan nöqsanların aradan qaldırılması üçün nəzarət tədbirləri davam etdiriləcək.

***Zaurə***

# Novruz Aslanov şəhidimizin məzarını ziyarət etdi

***İyulun 12-də Ermənistanın təxribatı nəticəsində Tovuzla sərhəddə gedən döyüşlərdə şəhid olan Azərbaycan əsgəri Xəyyam Daşdəmirovun bu gün qırx mərasimidir. Şəhidimiz İsmayıllı rayonunun Balik kəndində dəfn olunub.***

Unikal.org xəbər verir ki, millət vəkili Novruz Aslanov bu gün, avqustun 21-də şəhid Xəyyam Daşdəmirovun məzarını ziyarət etmək məqsədilə İsmayıllı rayonunun Balik kəndinə gedib. Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov, millət vəkili Tahir Kərimli və şəhidin ailə üzvləri tərəfindən onun məzarı üzərinə gül çələngləri qoyulub, ruhuna dualar oxunub.

Daşdəmirovun ailə üzvləri ilə söhbət zamanı Novruz Aslanov vətən uğrunda həlak olan şəhidlərimizə dövlət tərəfindən dərin ehtiramın göstərildiyini bildirib, şəhid ailələrinin sosial təminat məsələlərinə diqqətlə yanaşıldığını vurğulayıb.

"Respublikanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsi dövlət başçısının nəzarətindədir və belə ailələr dövlətin qayğısı ilə əhatə olunublar", - deyən millət vəkili şəhidin ailəsinə dərin hüznlə başsağlığı verib.

***Hüseyn***



# Hüseyn Cavidin "Şeyx Sənan"ı Özbəkistanda tamaşaya qoyulacaq

***Hüseyn Cavidin "Şeyx Sənan" əsəri Özbəkistanın Buxara Vilayət Musiqili Dram və Komediya Teatrında özbək dilində tamaşaya qoyulacaq.***

Bu barədə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovla Buxara vilayətinin rəhbərləri arasında razılıq əldə olunub.

Artıq Özbəkistanın Mədəniyyət Nazirliyi əsərin tamaşaya qoyulmasını təsdiq edib və tamaşa dövlət sifarişi ilə maliyyələşdiriləcək.

Qeyd edək ki, 100 ildən çoxdur Azərbaycan yazıçılarının əsərləri, xüsusilə "Arşın mal alan" Orta Asiyanın müxtəlif teatrlarında tamaşaya qoyulur və həmişə də anşlaqla qarşılanır. Hələ ötən əsrin əvvəllərində azərbaycanlı maarifçilər - Seyid Rza Əlizadə, Sidqi Ruhulla, rejissor Mirzə Həbib Axundzadə və digər mədəniyyət, teatr xadimləri Orta Asiyada azərbaycanlılardan ibarət teatr truppası yaradaraq yazarlarımızın əsərlərini Daşkənd, Fərqanə, Buxara, Kokand, Xarəzm və Səmərqənd şəhərlərində teatrsevərlərə təqdim ediblər.

# Oqtay Kaziminin adı əbədiləşdiriləcək

***"Astara sşhər Musiqi Məktəbinə Azərbaycanın Xalq artisti, görkəmli bəstəkar Oqtay Kaziminin adının verilməsi ilə bağlı rayon ziyalıları Mədəniyyət komitəsinin sədri olaraq mənə müraciət ünvanlamışdılar. Məsələ artıq öz həllini tapıb".***

Bu barədə "Unikal"a Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva məlumat verib. O bildirib ki, eyni zamanda Astara rayonunu təmsil edən deputat Rəşad Mahmudovla bu məsələ ətrafında söhbət zamanı ziyalıların müraciətinin müsbət həllini tapmasının rayon sakinləri arasında məmnunluqla qarşılanacağını bildirmişdi.

"Bu məsələyə baxılması xahişi ilə hörmətli baş nazir Əli Əsədova Mədəniyyət komitəsi adından etdiyimiz müraciət öz müsbət həllini tapdı. Oqtay Kazimi Astarada doğulub və dog?ma sşhərdə adının əbədiləşdirilməsi, habelə bu xəbərin onun anım günü ərəfəsində eşitməyimiz bizdə xüsusi məmnunluq doğurur. Görkəmli bəstəkarımıza ulu Tanrıdan rəhmət diləyərkən, onun adını daşıyacaq məktəbdə musiqi təhsili alacaq şagirdlərə isə böyük gələcək arzulayırıq.

Hörmətli baş nazirimiz Əli Əsədova Mədəniyyət komitəsi və Astara rayon ziyalılarının müraciətinə bu cür həssas münasibətindən dolayı təşəkkür edir, məsuliyyətli və sşrəfli işində uğurlar arzulayırıq".

# "İxtiyarım olsaydı, bəzi musiqiçilərin mükafatlarını əllərindən alardım" - Siyavuş Kərimi

***Yazdığı əsərləri ilə ürəklərə yol tapan bəstəkarlardan biri də Siyavuş Kərimidir. "Unikal" qəzeti Azərbaycan Milli Konservatoriyasının rektoru, Azərbaycan Respublikasının xalq artisti, professor, bəstəkar Siyavuş Kərimi ilə müsahibəsini təqdim edir.***

***-Siyavuş müəllim, karantin dönəmi necə keçir?***

-Hamıda necə bizdə də elə - palaza bürün, ellə sürün. Amma şair, bəstəkar və rəssam - ümumiyyətlə, yaradıcı adam üçün bir qədər əlverişli şəraitdir.

***-Kənardan çətin adama bənzəyirsiniz? Yanılırıq, yoxsa?***

-Mənə elə gəlir ki, yanılma var. Mən çox sadəyəm və ürəyimin qapıları hər kəsə açıqdır, hər kəslə dil tapa bilirəm. Mənim işlədiyim müəssisədə, adətən musiqiçilər işləyir və hər biri də öz istedadını yüksək sayır. Hər biri özünü Karuzo hesab edir (red -Enriko Karuzo XIX əsrdə İtaliyada doğulmuş əfsanəvi opera müğənnisidir) və onları kimsə başa düşmür. Hərəsinin də özünə görə xasiyyəti var. Bu qədər ifaçının hamısına rəhbərlik edib, onlarla dil tapmaq, münasibət qurmaq heç də asan məsələ deyil.



***-Müsahibələrinizin birində atanızın əlinizdən tutub sizi musiqi məktəbinə apardığını demisiniz. Bu gün bu sizə şöhrət gətirib. Bəs öz seçiminiz olsaydı, Siyavuş Kərimi hansı ixtisasın ardınca gedərdi?***

-Atam məni riyaziyyat məktəbinə aparsaydı, yəqin riyaziyyatçı olacaqdım, yaxud da fizika sahəsinə aparsaydı, fizik olacaqdım, hətta kimyaçı da ola bilərdim. Mənim o vaxt seçim imkanım yox idi, olsaydı belə seçim edə bilməzdim. Musiqi və mədəniyyətə olan sevgisinə görə atam məni də musiqiyə yönəltdi. Musiqi məktəbində məni yoxladılar və dedilər ki, "hə, bundan bir şey çıxar". Sonra məlum oldu ki, tar çalacağam. Təkrar həyata gəlsəm, yenə musiqiçi olardım, amma bu dəfə daha məsuliyyətli. Daha ağıllı hərəkət edib, daha çox zəhmətə qatlaşardım. Uşaq ikən etdiyim məsuliyyətsizlikləri təkrarlamayıb, daha çox işləyərdim ki, bir dəqiqə də boş vaxtım qalmazdı. Təkcə o uşaqlıq tənbəlliklərinə heyifsilənirəm.

***-Təb gəlməsə, yaradıcılıq olmaz. Sizi ilhama gətirən nədir?***

-Məndə həm təbiət, həm insanlar. Əslində çox şey saymaq olar, amma bir də yağışı da çox sevirəm.

***-Müşahidə etməyi sevən biri kimi görsənirsiniz. Müasir Azərbaycan musiqisi barədə gəldiyiniz qənaət nədir? Bir bəstəkar kimi qənaətbəxş hesab edirsiniz?***

-Bizim çox gözəl musiqimiz var, sadəcə musiqiyə münasibət müxtəlifdir. Musiqinin tərbiyəvi və müalicəvi gücü var və bundan doğru istifadə etməyi bacarmaq lazımdır. Musiqi bizim cəmiyyəti daha da gözəl edə bilər, təəssüf ki, biz musiqinin tərbiyəvi gücündən istifadə etmirik. Musiqi ilə cəmiyyəti ardımızca apara bilərik, lakin cəmiyyətin istədiyi musiqinin ardınca getmək düzgün deyil və bu peşəkarlıqdan uzaq bir haldır. Mədəniyyətimizi, musiqimizi topla-tüfənglə qoruya bilmərik ki... Belə olan halda maksimum düzgün təbliğat kifayət edir.

***-Yerli və ya dünya bəstəkarları fərq etməz, kimin bəstəsini terapiya hesab edə bilərsiniz?***

-Bütün musiqilər gözəldir. Hesab edirəm ki, sadəcə keyfiyyətsiz ifaçılar ola bilər. Heç bir xalqın da musiqisini keyfiyyətsiz hesab etmirəm. Amma reallıq budur ki, əgər dünyada 5 gözəl musiqi varsa, ondan biri mütləq Azərbaycanın bəstəsidir.

***-Hansı musiqi alətinin səsi ruhunuza daha yaxındır?***

-Mən bir çox musiqi alətində ifa etməyi bacarıram. Tar, ud, piano, saksafon, eləcə də nəfəs alətlərində çalıram.

***-Bu musiqi alətlərini ifa etmək bacarığı bəstəkar üçün vacibdir, ya sizin xüsusi marağınız olduğu üçün öyrənmisiniz?***

-Bəstəkar musiqiçi olmaya da bilər, yəni bəstəkar hiss edərək yaza bilir. Amma musiqiçi olması daha yaxşı olar. Tarixdə heç bir musiqi aləti olmadığı üçün əsərlərini stolun üstündə yazan bəstəkarlar olub.

***-Bəstəkarlıqdan əlavə hansısa xüsusi bacarığınız varmı?***

-İndi bir az qocalmışam, əvvəl idmana çox vaxtımı həsr edirdim. Mənim çox gözəl idman həyatım olub. Futbol, basketbol, hətta şahmat da oynamışam. 1970-ci illərdə Bakıda rus daması üzrə fəaliyyət göstərən bir cəmiyyətin çempionu olmuşdum.

***-Futbolda kimin oyun taktikalarını daha çox bəyənirsiz?***

-Mənim həmişə kumirin Pele olub.

***- Həyatınızda etmək istəyib, lakin "bu, mənə yaraşmaz" dediyiniz nəsə olub?***

-Əvvəla, mən bir müəssisənin rəhbəriyəm və 600-700 nəfərdən çox tələbəm var. Mən hər bir tələbəm üçün nümunə olmalıyam. Mən özümü başqa cür apara bilmərəm, çünki onların hər zaman qarşısındayam və tələbələrim hər bir sözüm, davranışımı nümunə götürürlər. Bu gün efirə çıxanların danışığına baxanda, adam utanır, milyonlarla tamaşaçı tərəfindən izlənilən adam cəmiyyətə nümunə olmalıdır.

***-İllər əvvəl Şuşaya səfər edən sənətkarlardan biri olmusunuz. O görüş təəssüratlarına təkrar göz atmaq istərdik. Nə hisslər keçirirdiniz?***

-O hisslərə qayıtmaq istəmirəm, məğlub hissi keçirirdim. Mən ora getmək istəyirəm, amma müvəqqəti deyil... Daimi və qalib kimi getmək istəyirəm. Mən Şuşada yaşamaq istəyirəm.

***-Siz eyni zamanda Kinematoqrafçılar İttifaqının da katibisiniz. Sizcə, filmlərlə musiqilər bir-birini tamamlayırmı?***

-Elə filmlər var ki, tamamlayır, bəzi filmlərdə isə dəxlisi olmayan musiqi olur. Mən şəxsən öz yaradıcılığıma çox tənqidi yanaşan biriyəm. Bəzən elə bəstələrim olur ki, dinləyirəm, sonra deyirəm ki, bunu daha yaxşı yaza bilərdim.

***-Bu günkü musiqilər və ifalar niyə retro ifaları qədər sevilmir və yadda qalmır. Sizcə, çatışmayan nədir?***

-Yazılan musiqi bəstəkarın səviyyəsi qədərdir. Əgər bəstəkar yüksək səviyyəlidirsə, musiqisi də qalıcı olacaq. Tofiq Quliyev, Rauf Hacıyev, Cahangir Cahangirov kimi bəstəkarlarımızın əsərləri kimi... Lakin hazırda yüksək fəxri adları və dövlət mükafatları olan bəzi bəstəkarlarımız və ifaçılarımız var ki, ixtiyarım olsaydı, əllərindən alardım, çünki onlar həmin mükafata layiq deyillər. Necə olur axı Tofiq Quliyev də Xalq artistidir, onlar da? Onların arasında səviyyə fərq bilinməlidir. Bu fərqin olmaması yüksək səviyyəli musiqiçi və ifaçıların şərəfli adına kölgə salır.

***Dürrə Həsənova***

# Vətən sizinlə qürur duyur! - Tovuz şəhidlərinin qəhrəmanlıq yolu

***Ötən ay Azərbaycan-Ermənistan sərhədində baş verən hərbi toqquşma ilə yadda qaldı. Belə ki, iyulun 12-dən başlayaraq Ermənistan ordusu artilleriya, iriçaplı silahlar və minaatanlardan istifadə etməklə Tovuz rayonu istiqamətindəki mövqelərimizə hücum cəhdi etdi. Azərbaycan Ordusu tərəfindən düşmənin xain hücumunun qarşısı qətiyyətlə alındı, işğalçılara ağır zərbə endirildi, ermənilərin çoxlu sayda hərbi texnikası və canlı qüvvəsi məhv edildi. Ermənistan ordusunun artilleriya atəşi nəticəsində Tovuzun bir neçə kəndində əhalinin təsərrüfatına, mülklərinə, yaşayış məntəqələrinin infrastrukturuna ciddi ziyan dəydi. Düşmənin yaşayış məntəqələrimizi artilleriya atəşinə tutması nəticəsində bir nəfər mülki vətəndaşımız həlak oldu. İyulun 16-dək davam edən döyüşlərdə böyük şücaət göstərən 12 hərbçimiz şəhidlik zirvəsinə yüksəldi.***

Tovuz döyüşlərində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov və polkovnik İlqar Mirzəyevin şəhid olması onu bir daha göstərdi ki, bizim yüksək rütbəli zabitlərimiz əsgərin arxasında gizlənmir, döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirirlər. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu Aprel zəfərindən sonra Tovuz döyüşlərində də tarixi qələbəyə imza atdı.

Azvision.az bu qələbədə ən böyük pay sahibi olan şəhidlərimizlə bağlı məlumatları oxuculara təqdim edir: Əslən Qəbələ rayonunun Vəndam kəndindən olan şəhid general




Polad Həşimov 2 yanvar 1975-ci ildə Sumqayıt şəhərində anadan olub. Orta təhsilini Sumqayıt şəhərində əvvəlcə 28 nömrəli, sonra isə 34 nömrəli məktəbdə alıb. Daha sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirib. Zabit kimi bir neçə döyüş bölgəsində xidmət edib.

2009-cu il iyunun 25-də "Vətən uğrunda" medalı, 2014-cü il iyunun 24-də 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2016-cı il aprelin 19-da 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Həşimov 2016-cı ilin 2-4 aprel tarixində Talış qəsəbəsi uğrunda gedən döyüşlərdə 1-ci Ordu Korpusunun Qərargah rəisi olub və atışma zamanı yaralanmasına baxmayaraq, sonadək düşmənə qarşı vuruşub.

Hazırda həmin istiqamətdəki postlardan biri "Polad postu" adlanır.

Ötən il Polad Həşimova general-mayor ali hərbi rütbəsi verilib. Həşimov daha sonra Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Qərargah rəisi təyin olunub.

İyulun 14-də Tovuz istiqamətində gedən döyüşlərdə şəhid olan generalın nəşi əvvəlcə doğulduğu Qəbələ rayonunun Vəndam qəsəbəsinə, sonra yaşadığı Sumqayıt şəhərinə gətirilib. İyulun 15-də II Fəxri Xiyabanda polkovnik İlqar Mirzəyev ilə yanaşı dəfn olunub.

Prezident İlham Əliyevin tapşırığı ilə Qəbələ rayonunun mərkəzi küçələrindən birinə onun adı verilib.

Şəhid generalımız 2 oğul və 1 qız atası idi.

Polkovnik İlqar Mirzəyev 1973-cü il mayın 8-də Gürcüstanın Qardabani şəhərində anadan olub. 1980-ci ildə elə həmin şəhərin orta məktəbinə daxil olub, 1990-cı ildə məktəbi bitirib. 1991-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olub. 1995-ci ildə təhsilini başa vurduqdan sonra leytenant rütbəsi ilə xidmətə başlayıb. Bir sıra rayon və şəhərlərdə xidmət edib. Xidməti dövründə bir neçə dəfə medal ilə təltif olunub.

Mirəzyev 2019-cu ildə 3-cü Ordu korpusunun Artilleriya rəisi təyin edilib. İyulun 14-də şəhid olan polkovnik bir gün sonra ikinci Fəxri Xiyabanda general-mayor Polad Həşimovla yanaşı dəfn olunub.

İlqar Mirzəyev ailəli idi, 1 oğlu və 1 qızı yadigar qalıb.

Mayor Anar Novruzov 1976-cı ildə Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olub. O, 10 uşaqlı ailənin sonbeşiyi idi. Hərbi məktəbi bitirən Novruzov Türkiyədə təlimlərdə iştirak edib. Mayor Novruzovun ömrünün 26 ili səngərdə keçib. Xidməti dövründə bir neçə dəfə medal ilə təltif edilib.

Tovuz döyüşlərində qəhrəmancasına şəhid olan Anar Novruzov iyulun 14-də doğulduğu Masallı rayonunun Ərkivan qəsəbəsində dəfn olunub.

Ailəli idi, bir oğul və bir qız atasıdır.

Mayor Namiq Əhmədov 1984-cü ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. 36 yaşı artilleriya komandiri iyulun 14-də gedən şiddətli döyüşlərdə şəhid olub. Elə həmin gün doğulduğu Yuxarı Salahlı kəndində torpağa tapşırılıb.

Şəhidimizin 1 oğul, 1 qız övladı yadigar qalıb.

Baş leytenant Rəşad Mahmudov 1992-ci ildə Biləsuvar rayonunun Aşağı Cürəli kəndində dünyaya gəlib. Şəhid olmasından 10 gün əvvəl 28 yaşı tamam olub. Uşaqlıqdan arzusu hərbçi olmaq idi. Orta məktəbi bitirən Rəşad hərbi məktəbə daxil olub və 8 il burada təhsil alıb. Akademiyanı bitirdikdən sonra döyüş bölgəsində hərbi xidmətə başlayıb.

İyulun 13-də şəhid olan zabitimiz elə həmin gün doğulduğu Aşağı Cürəli kəndində dəfn olunub. Mahmudov subay idi.

Gizir İlqar Zeynallı 1995-ci ildə Tovuz rayonunun Cəlilli kəndində anadan olub. Xidməti ancaq ön cəbhədə olan Zeynallı iyulun 14-də şiddətli döyüşlər zamanı şəhid olub. Həmin gün doğulduğu Cəlilli kəndində torpağa tapşırılıb. İlqar subay idi.

Gizir Yaşar Babayev 1987-ci ildə Ağstafa rayonunun Köçəsgər kəndində anadan olub. Xidməti ancaq ön cəbhədə olan Babayev iyulun 14-də şiddətli döyüşlər zamanı şəhid olub.

2012-ci ildə ailə həyatı quran Yaşar 8 il övlad arzusunda idi. Onun şəhid olmasından 2 gün sonra, iyulun 16-da qızı Narin dünyaya gəlib. Gizir Babayev şəhid olduğu gün doğulduğu kənddə torpağa tapşırılıb.

Çavuş Vüqar Sadıqov 1987-ci ildə Ağstafa rayonunun Göyçəli kəndində dünyaya gəlib. Vüqar iyulun 12-də Tovuz istiqamətində gedən döyüşlərdə şəhid olub. Bir gün sonra doğulduğu kənddə dəfn olunub. Ailəli olan Sadıqov 2 qız və 1 oğul atası idi.

Müddətdən artıq həqiqi hərbi xidmət edən hərbi qulluqçusu, baş əsgər Elşad Məmmədov 1996-cı ildə Tovuz rayonunun Ağdam kəndində anadan olub. Məmmədov iyulun 12-də gedən döyüşlər zamanı şəhid olub. İyulun 13-də doğulduğu kənddə dəfn edilib. Ailəli olan Elşadın 6 aylıq oğlu Məhəmməd yadigar qalıb.

Müddətdən artıq həqiqi hərbi xidmət edən hərbi qulluqçusu, əsgər Elçin Mustafazadə 1992-ci ildə Ağstafa rayonunun Həsənsu kəndində doğulub. İyulun 14-də şiddətli döyüşlər zamanı şəhid olan Elçin elə həmin gün doğulduğu kənddə torpağa tapşırılıb. O, nişanlı idi və ailə həyatı qurmağa hazırlaşırdı.

Müddətdən artıq həqiqi hərbi xidmət edən hərbi qulluqçusu, əsgər Nazim İsmayılov 1996-cı ildə Ağstafa rayonunun Kolxəlfəli kəndində anadan olub. Nazim iyulun 16-da şiddətli döyüşlər zamanı şəhid olub və həmin gün doğulduğu Korxəlifəli kəndinin qəbiristanlığında dəfn olunub.

Subay olan İsmayılov yaxın zamanlarda ailə qurmağa hazırlaşırdı.

Əsgər Xəyyam Daşdəmirov 2002-ci ilin fevralın 22-də İsmayıllı rayonunun Balık kəndində anadan olub. O, Bakının Biləcəri qəsəbəsində 123 saylı orta məktəbdə təhsil alıb.

X.Daşdəmirov bu il mayın 8-də hərbi xidmətə yola düşüb. İyulun 12-də qəhrəmancasına şəhid olub. Bir gün sonra doğulduğu kənddə torpağa tapşırılıb. Xəyyam subay idi.

***Anar Kəlbiyev***

# 500 illik məscid məhv olmaq üzrə: "Pulumuz yoxdur..."



***Xaçmaz rayonunun Qaraqurdlu kəndindəki XV-XVI əsrlərə aid Şah Abbas məscid-mədrəsəsi baxımsızlıq ucbatından tamamilə məhv olmaq təhlükəsi ilə üz-üzə qalıb. Kompleksə kənardan baxdıqda, ətrafının çəpərlə əhatəli olduğu və mühafizə altında saxlandığı görüntüsü yaradılsa da, əslində heç də hər şey göründüyü kimi deyil. Çöl hissədən birmərtəbəli kimi görünsə də, daxili hissəsi ikimərtəbəli olan məscid-mədrəsənin tavanı uçaraq içərisinə tökülüb. Bu isə onu göstərir ki, yaz və payız yağışları, həmçinin qışın qarı bu tarixi abidənin içərisinə tökülür. Sözsüz ki, belə təbii proseslər abidənin günü-gündən məhvinə aparır. Bəs görəsən, onun məsuliyyətini kim daşıyır? Aqibəti necə olacaq?***

Lent.az-ın əməkdaşı məsələ ilə bağlı Mədəniyyət Nazirliyi yanında Xaçmaz rayonu Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ilə əlaqə saxlayıb.

Həmin qurumdan verilən cavabda bildirilir ki, abidə Xidmətin mühafizəsindədi: "Bilirik ki, abidə qəzalı vəziyyətdədir. Bu barədə lazımı qurumlara yazılı və şifahi məlumatlar vermişik və büdcədən o abidə üçün yardım ayrılacağı deyilib. Biz də sizin kimi gözləyirik".

Amma bu kompleksi təmir edərək, istifadə edilməsə belə, böyük bir turizm zonası olan Xaçmaza səfər edən turistlərin diqqətinə təqdim etmək olar.

Ümumiyyətlə aqibəti belə olan abidələr barədə Turizm Agentliyinin hər hansı bir təklifi varmı?

Dövlət Turizm Agentliyinin mətbuat xidmətinin rəhbəri Kənan Quluzadə deyir ki, əslində Azərbaycanda bu tipli yüzlərlə abidə var. Əlbəttə ki, onların hamısı turizm potensiallı ola bilər:

"Biz istəyərdik ki, onlar bərpa edilsin, qorunsun ki, turistlər də ora cəlb edilə bilsin. İndi siz dəqiq bir obyektin adını çəkirsiniz. Təbii ki, bu işlə bağlı məşğul olan konkret bir dövlət strukturları var. Biz özümüz də Dövlət Turizm agentliyi olaraq strukturumuza daxil olan 8 mədəni tarixi qoruğu daim diqqətdə saxlayırıq. Bunlar Şəkidəki Yuxarı Baş, Kiş, Lahıc, Basqal, Xınalıq, Yanardağ, Atəşgah və sonuncu yaradılan Beşbarmaq qoruqlarıdır. Bizim bu qoruqlarda əsas iş prinsipimiz ondan ibarətdir ki, ilk növbədə, turist gəldi, ya da gəlmədi fərqi yoxdur, onları qoruyaq. Daha sonrakı işimiz də odur ki, bu məkanların turizm potensialını inkişaf etdiririk. Biz sistemli olaraq, tabeliyimizdə olan qoruqlarda bu işləri aparırıq. Hər bir qoruğumuzda konsepsiya hazırlanır və ona uyğun olaraq da işlər həyata keçirilir".

Hə, görünür Şah Abbas məscid-mədrəsəsinin harayına çatan hələ ki, yoxdur. Çünki onun adı heç Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında da qarşımıza çıxmadı. Amma hansı ki, bu siyahıda Xaçmazın Piritəpə və Çobantəpə kurqanları, Şəhərgah, Təpəyatağı , Molla Burxan , Çileyir yaşayış yerləri, Dəyirmantəpə, Şiştəpə və bu kimi ümumilikdə 24 abidəsinin adı yer alıb.

Qeyd edək ki, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" qanunun tətbiq edilməsi barədə" Azərbaycan Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının 1-ci bəndinin 5-ci abzasına uyğun olaraq və Mədəniyyət Nazirliyinin Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Nazirlər Kabineti qərara alır ki, dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin dünya, ölkə və yerli əhəmiyyət dərəcələrinə görə bölgüsü təsdiq edilsin və abidələrin inventar nömrələri bu qərara uyğunlaşdırılsın.

# Bəzi səfirlərin "Eldar Həsənov qorxusu"

## Onlar haqqında da sərt cəza tədbirləri görülə bilərmi?

***Məlum olduğu kimi, ötən həftə Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda, Bosniya və Herseqovinadakı səfiri Eldar Həsənov Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanılıb.***

DTX-nin bununla bağlı yaydığı məlumatda bildirilib ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən sui-istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran əməllərə yol verməri ilə bağlı başlanılmış cinayət işi üzrə XİN-in İşlər idarəsinin müdiri, Nazirliyin Tender Komissiyasının sədri Fərhad Mollazadə, Konsulluq idarəsinin rəisi Faiq Bağırov və digərləri vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, rüşvət alma faktlarına görə cinayət məsuliyyətinə cəlb edilərək barələrində məhkəmənin qərarları əsasında həbs qətimkan tədbiri seçilib.

Davam edən cinayət işi üzrə həyata keçirilən istintaq-əməliyyat tədbirləri zamanı Xarici İşlər Nazirliyinin fəaliyyət istiqamətləri üzrə ayrılan dövlət büdcə vəsaitlərinin mənimsənilməsi ilə bağlı yeni məlumatlar əldə edilib, toplanılmış materiallar əsasında müvafiq qərarla kompleks maliyyə-təsərrüfat fəaliyyəti üzrə yoxlama təyin edilib. Maliyyə yoxlamaları zamanı ölkəmizin Serbiya Respublikasında, Monteneqroda, Bosniya və Herseqovinadakı səfiri Həsənov Eldar Hümbət oğlu tərəfindən xeyli miqdarda büdcə vəsaitinin təyinatı üzrə istifadə edilməməsi və digər qanun pozuntularının törədilməsinə dair əsaslı şübhələr müəyyən edilib. Aparılan istintaq çərçivəsində E.Həsənov şübhəli şəxs qismində tutulub.

Səbail Rayon Məhkəməsi tərəfindən E.Həsənov barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Ona qarşı Cinayət Məcəlləsinin 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə) və 308-1.1-ci (Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə) maddələri üzrə ittiham irəli sürülüb.

Bəs Xarici İşlər Nazirliyinin bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən sui-istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran əməllərə yol verməri ilə bağlı başlanılmış cinayət işi çərçivəsində bizi başqa səfirlərin və konsulların həbsi ilə bağlı sürprizlər gözləyə bilərmi? Bəzi ekspertlər bunu istisna etmirlər. Onların fikrincə xarici siyasət idarəsində kök salan rüşvət və korrupsiya ölkədən kənara - bir sıra dövlətlərdəki diplomatik təmsilçiliklərimizədək uzanıb və bu kimsəyə sirr deyil.

Elə Hesablama Palatasının müxtəlif vaxtlardakı auditlərinin nəticələri də bunu təsdiqləyir. ”Unikal”ın araşdırması zamanı məlum olub ki:

- Azərbaycanın Türkiyədəki səfirliyinin 2019-cu il üzrə fəaliyyətində nöqsanlar aşkarlanıb. Bu barədə Hesablama Palatasının 2019-cu il üzrə hesabatında məlumat yerləşdirilib. Belə ki, Azərbaycanın Ankaradakı səfirliyi büdcə üzrə dörd, əsaslı vəsait qoyuluşu üzrə iki nöqsana yol verib. Səfirlik mühasibat uçotu və hesabatlılıq qaydalarını da pozub. Bununla bağlı səfirlikdə iki hal aşkar edilib.

- 2015-ci ildə Azərbaycanın xarici ölkələrdə və təşkilatlarda diplomatik nümayəndəliklərinin fəaliyyəti ilə bağlı audit tədbirləri həyata keçirilib. Bu barədə “Azərbaycan Respublikası Hesablama Palatasının 2015-ci ildə fəaliyyəti haqqında” adlı hesabat sənədində bildirilib. Nəzarət tədbirləri Azərbaycanın Niderland və Belçika Krallıqlarının səfirliklərinin, Azərbaycanın NATO yanında Nümayəndəliyinin saxlanılma xərclərini əhatə edib. Bu zaman bəzi hallarda vəsaitin Vahid Büdcə Təsnifatı ilə təsdiq edilmiş iqtisadi təsnifat kodu dəyişdirilməklə icra edildiyi müəyyən olunub. Belə ki, auditin əhatə etdiyi 2012-ci ildə nəzarət tədbiri keçirilən diplomatik orqanlar üzrə ümumilikdə kassa xərclərinin 8 faizi, 2013-cü ildə müvafiq olaraq 6,3 faizi, 2014-cü ildə isə diplomatik orqanların həmin ilə ümumi xərclərinin 5,6 faizi səviyyəsində vəsaitin təyinatı dəyişdirilib. Auditin sübutları ilə diplomatik korpuslar tərəfindən qüvvədə olan müvafiq normativ hüquqi aktların və ”Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”nın tələblərinə bəzi hallarda riayət edilmədiyi müəyyən olunub. Diplomatik korpusların aldığı mallara və onlara göstərilən xidmətlərə görə ödənilmiş ƏDV məbləği geri alınsa da, müvafiq qaydada dövlət büdcəsinə bərpası təmin edilməyib və istifadə olunmuş, diplomatik əməkdaşlara ezamiyyə xərcləri üzrə normalara riayət edilməməsi səbəbindən artıq vəsait xərc edilib, həmçinin mövcud qaydalarda və xərclər smetasında nəzərdə tutulmadığı halda dövlət rüsumunun və icbari tibbi sığorta məbləğinin saxlanma xərcləri hesabına ödənilməsi hallarına yol verilib. Diplomatik nümayəndəlikləri saxlanılması üçün nəzərdə tutulan vəsait hesabına bəzi hallarda iqamətgahın və kommunikasiya xidmətlərinə, icbari sığortasına və təmin işlərinə, xərclər smetasında nəzərdə tutulmadığı halda əməkdaşlar üçün xarici dil kurslarının təşkil edilməsinə, əməkdaşlarının tibbi sığortası olduğu halda tibbi xərclərə vəsait ödənildiyi müəyyən olunub.

Saxlanılma xərcləri üzrə açılan maliyyələşmədən qalan vəsaitin dövlət büdcəsinə qaytarılmadan növbəti büdcə ilində istifadə olunması halları müəyyən olunub, audit olunan diplomatik nümayəndəliklər tərəfindən bir sıra xərc maddələri üzrə yaranmış debitor və kreditor borcun bağlanması təmin edilib. Nəzarət tədbirləri ilə konsul əməliyyatlarının aparılması zamanı bəzi nöqsanlara yol verildiyi müəyyən olunub. Konsul əməliyyatları üzrə müvafiq sənədlərin qeydiyyatı üzrə reyestr kitabları qaydalara uyğun aparılmamış, bəzi hallarda toplanmış dövlət rüsumu müvafiq qaydada dövlət büdcəsinə ödənilməyib.

- Vaxtilə Hesablama Palatası Azərbaycanın Çindəki səfirliyindədə korrupsiya şkarlamış, məlum olmuşdu ki, hər ayın sonunda dövlət büdcəsinə ödənilesi rüsumlardan yayınaraq, həmin vəsaitlər növbətdə başqa xərclər adından silinib, ayrı-ayrı xərc maddələri üzrə şişirdilmiş maliyyə məbləği ayrılıb, ƏDV və avtomobil satışından daxil olan vəsait dövlət büdcəsinə ödənilməli olduğu halda, yeni avtomobillərin alınması adı ilə mənimsənilib. Hətta əməkdaşlarının yol hərəkəti qaydalarının pozması nəticəsində yazılan cərimələr belə büdcə vəsaiti hesabına silinib. Belə ki, səfirliyə məxsus 3 avtomobilin satılaraq yol hərəkəti qaydalarının pozulmasına görə cərimələrin ödənilməsinə yönəldiliyi göstərilib. Diplomatik korpusda çalışan əməkdaşların uşaqlarının təhsil haqlarının ödənilməsi üçün dövlət büdcəsindən vəsait ayrılsa da, bu pul valideynlərə verilməyib.



- Yenə illər öncə İsveç Krallığındakı səfiliyimizdə də ciddi korrupsiya faktları aşkarlanmışdı. Məlum olmuşdu ki, səfirliyin saxlanılması üçün təsdiq olunan smetadan artıq xərclərə yol verilib, dövlət rüsumu əlavə telefon danışıqlarına, abunə və internet xidmətlərinə yönəldilib. Səfirliyin mühasibinin haqq-hesab ayı başa çatmamış vəzifədən geri çağrılmasına baxmayaraq, ona yanvar ayında əməkhaqqı tam həcmdə ödənilib. Dövlət vəsaitləri hesabına səfirlikdə çalışanlar öz mənzillərinə mebel avadanlıqları aldıqları aşkar edilib. Avtomobillər üçün yanacaq sərfi şişirdilib, ziyafət tədbirlərinin keçirilməsi ilə bağlı xərclər smetası hazırlanmayıb. Bununla dövlət büdcəsinə təqribən 400 min manata yaxın ziyan dəyib.

Bütün bunları ona görə xatırladırıq ki, Eldar Məmmədyarovun XİN-ə rəhbərliyi dövründə xaricdəki diplomatik təmsilçiliklərimizin bir çoxunda korrupsiya halları yaşandığını gözlər önünə sərək. Üstəlik, bu yazılanlar medianın iddiaları deyil, rəsmi məlumatlar - Hesablama Palatasının ortaya çıxardığı pozuntulardır. Həmin faktlara əsaslanıb deyə bilərik ki, DTX-nin apardığı məlum cinayət işi çərçivəsində Eldar Həsənov kimi hansısa başqa səfir də həbs edilərsə, bu sürpriz olmayacaq. Məmmədyarovun XİN rəhbəri kimi yarıtmaz idarəçiliyi bu strateji qurumu nə yazıq ki, iflic etmiş, hətta bəzi səfirlikləri də girdaba sürükləmişdi. Belə ağır cinayətin hər hansı iştirakçısının cəzasız qalması isə, əlbəttə, mümkün deyil!

***Elmin Rüstəmov***

# Azərbaycan Qarabağla bağlı maraqlarımıza zidd prosesə sürüklənir

## Politoloq: "Dövlət başçısı İlham Əliyev Rusiyanın ölkəmizdə agentura şəbəkəsini zəiflətməklə, Qarabağ məsələsində Türkiyə ilə çox ciddi uğur əldə edə biləcək"

***May ayından bəri Ermənistanla Azərbaycan arasında Qarabağ danışıqları faktiki dayanıb. Bir neçə dəfə onlayın müzakirələrdən sonra Prezident İlham Əliyev haqlı olaraq, belə bir onlayn danışıqların mənasız olduğunu açıqladı. Çünki belə bir danışıqlar, yalnız işğalçı ölkənin maraqlarına xidmət edir.***

"Unikal"a açıqlama verən Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədri, politoloq Məhəmməd Əsədullazadə deyib ki, rəsmi Yerevanın Tovuz təxribatı və Qarabağda məskunlaşdırma siyasəti bütövlükdə münaqişənin həllində hərhansı bir həll variantının üstünən xətt çəkir və danışıqlar üçün yer qoymur. Haqlı olaraq Azərbaycan tərəfidə Türkiyə ilə birgə hərbi hərərkətə keçərək, müharibə varinatına üstünlük verəcəyi mesajını verdi. Bölgədə situasiya gərgindir. Onun fikrincə, istənilən an müharibənin başlanması mümkündür və Türkiyə ilə birgə hərbi təlimlər rəsmi Bakının çevik diplomatik uğurudur: "Rusiya tərəfi çalışır ki, yenidən Minsk qrupunun həmsədrlərinin iştirakı ilə danışıqları bərpa etsin. Bu prosesin başında Lavrov durur və bu, Ermənistanın xahişidir. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov danışıqların tez bərpa olunması barədə çalışdıqlarını qeyd edir. Görünür, Kreml Türkiyənin aktiv şəkildə fəaliyyətindən narazıdır. Danışıqları növbəti mərhələdə bərpa etməklə, yenidən manipulyasiyanı davam etdriməyə çalışacaqlar. Azərbycan bu kimi danışıqlarda yer almamalıdır. Ümumiyyətlə, Rusiya danışıqlarda səmimi deyil. Çünki, son bir ayda Ermənistana tonlarla silah-sursat göndərib və bu, Azərbycana qarşı təzyiq kimi planlaşdırılıb. Belə olan təqdirdə, Lavrovun bu açıqlaması, yalnız Yerevanın maraqlarına xidmət edir.

Azərbaycan Rusiya XİN rəhbərinin moderatorluğu ilə başladılan danışıqlar getməməli, yalnız Ankara ilə hərəkət edərək, öz təkliflərini masaya qoyub, Ermənistanın bütün şərtlərinə qarşı çıxmalıdır. Rusiya yenidən Qarabağla bağlı ssenarini işə salır. Bu ssenari Azərbycanın əleyhinədir. Minsk formatı çərçivəsində aparılacaq danışıqlar əvvəlki kimi status-kvonu qorumaq üçün planlaşdırılıb. Dövlət başçısı İlham Əliyev Rusiyanın ölkəmizdə agentura şəbəkəsini zəiflətməklə, Qarabağ məsələsində Türkiyə ilə çox ciddi uğur əldə edə biləcək. Bu istiqamətdə aparılan siyasətə qarşı müəyyən sabotajlar olsada, prezident ciddi uğurlar əldə edəcəyi istisna deyil".

Bu arada onu da qeyd edək ki, Ermənistan hakimiyyəti Xankəndi və Əsgəran arasında yeni yol çəkir. İnfrastrukturu təkmilləşdirir və Livandan ermənilərin köçürülməsini təşkil edir. Həmçinin Rusiyadan Ermənistana daşınan silahların birhissəsi Tovuzda və bir hissəsi isə, işğal olunmuş ərazilərdə yerləşdirilib. Cəbhə xəttində Ermənistanın möhkəmlənməsinin qarşısı alınmalı və lokal zərbələr endirilməlidir.

Politoloq onu da qeyd edib ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın yaratdığı qondarma rejim terrorçu bir mərkəzdir. Onun sözlərinə görə, terrorçu rejimin başçısı Araik Arutunyanın Gəncə şəhərini vurmaqla bağlı bəyanat verməsi, əsasən birbaşa Yerevanın diktəsi ilə reallaşır.

Onun sözlərinə görə, bu, Azərbaycanla danışıqların bundan sonrakı davamında heç bir sülh anlaşmasının olmayacağının göstəricisidir: "Qarabağdakı terrorçu rejimin bu terrorçu bəyanatı onların işğal olunmuş ərazilərdə region üçün nə qədər təhlükəli bir sistem olduğunun göstəricisidir. Təbii ki, Rusiyanın Ermənistana son günlərdə göndərdiyi tonlarla silah-sursatdan qeyzlənərək belə bir açıqlamalar verməsi, burada Rusiya faktorunun da olması istisna edilməməlidir". Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədri hesab edir ki, rəsmi Bakının Türkiyə ilə birgə hərbi təlimlər fonunda hazırkı mərhələdə Ermənistana hərbi təzyiqləri mümkündür: "Çünki Ermənistan danışıqlara getməyəcək, gedərsə də burada kompromisə getməsi gözlənilmir. Ona görə də Rusiya Ermənistana silah-sursat göndərməklə, bir növ münaqişənin həllində hər hansı sülh prosesinin qarşısını almağa çalışır".

Türkiyə ilə son yaxınlaşmaların Azərbaycanı Rusiyanın hədəfinə çıxara biləcəyinə dair iddialara gəlincə, M.Əsədullazadə deyib ki, Türkiyənin Cənubi Qafqaz siyasəti daim Azərbaycan üçün də təhlükəsizlik baxımından önəmli olub: "Həmçinin Türkiyə bu regionda güclənməklə, Mərkəzi Asiyaya açılmaqla, bir növ Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təmini istiqamətdə mühüm rol alacağı kimi dəyərləndirilib. Məhz Ermənistanın Tovuz təxribatlarından sonra Azərbaycana qarşı bir təzyiqlərin olması regionda enerji-nəqliyyat layihələrini də təhlükəyə atırdı. Türkiyənin Tovuz təxribatlarından dərhal sonra hərəkətə keçərək, prinsipial şəkildə Azərbaycana dəstək verəcəyini vurğulaması regiona gələcəyinin anonsu idi: "Rusiya Cənubi Qafqazı öz "arxa bağçası" hesab etdiyi üçün Kremlin burada Ankaranın varlığından narahat olacağı istisna deyil. Buna baxmayaraq, Azərbaycanın təhlükəsizliyi riskdə olduğu üçün Ankara düşünmədən hərbi təlimlərə başladı. Bu təlimlər regionda böyük miqyasda keçirilməklə, Moskva və İrəvana ciddi mesaj xarakterli idi. Türkiyə hərbi rəhbərliyinin nümayəndə heyəti ilə ölkəmizə gəlişi və iki ölkə arasında ikitərəfli hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində yeni müqavilələrin bağlanması üçün danışıqlar, təbii ki, Ankaranın regionda daim qalacığına hesablanır. Əlbəttə ki, Azərbaycan ölkəmizin ərazi bütövlüyünün təmini üçün Türkiyə ordusunun ölkəmizdə qalmasında hesab edirəm ki, maraqlıdır. Çünki yüksək səviyyədə verilən bəyanatlar buna hesablanırdı. Türkiyənin Cənubi Qafqazda möhkəmlənməsi, təbii ki, Rusiyanı ciddi narahat edir. Rusiya hərbi donanmasının Xəzər dənizində hərəkətliliyi və bir hərbi freqatın Bakı buxtasında lövbər salması bu narahatlığın təzahürü idi. Rusiyanın bundan başqa Azərbaycana hər hansı ciddi təzyiqlər edəcəyini düşünmürəm. Onsuz da Qarabağda işğala dəstək verməklə, danışıqları tormozlayıb, Tovuz təxribatlarında Ermənistana tonlarla silah-sursat göndərdi. Ermənistanı əlində saxlamaqla Azərbaycana təzyiq etməyə çalışır".

Politoloq hesab edir ki, şübhəsiz, Azərbaycan ayıq-sayıq olmalı, bütün təhlükələrə qarşı öz gücünü artırmalı, Türkiyə ilə birgə şəkildə çalışmalıdır: "Xüsusən də daxilimizdə Rusiyaya bağlı qüvvələr diqqətə alınmalı, onlar tədricən neytrallaşdırılmalıdır. Daxildə müəyyən qüvvələr var ki, onlar Rusiyanın ölkəmizdə güclənməsinə çalışırlar. Məhz Bakı buxtasında Rusiya freqatının qarşılanması bunun təzahürüdür. Hesab edirəm ki, Azərbaycan dövləti Türkiyə ilə birgə Rusiyanın mümkün təzyiqlərinin qarşısını alacaq. Bundan sonra rəsmi Bakı Ankara ilə hərəkət edəcəksə, Moskva reallıqla barışacaq. Rusiya Türkiyənin maraq dairəsində olan Suriyada fəaliyyət göstərirsə, Ankara niyə öz təbii müttəfiqinin yanında olmasın, Cənubi Qafazda möhkəmlənməsin? Artıq yeni bir siyasi platforma qurulub. Bu, Türkiyə-Azərbaycan siyasi platformasıdır".



***Z.Məmmədli***



# Paşinyan Təhlükəsizlik Şurasının iclasını çağırdı

***Ermənistanda Azərbaycanla Türkiyənin birgə hərbi təlim keçirməsi ilə bağlı Təhlükəsizlik Şurasının iclası baş tutub.***

Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, iclasın əsas gündəmi Azərbaycan və Türkiyə ordularının birgə keçirdiyi hərbi təlimlərin müzakirəsi olub.

Təlimlərin miqyası və müddəti ilə bağlı narahatlığını gizlətməyən baş nazir Nikol Paşinyan Ankaranı regionda sabitliyi pozamqda ittiham edib.

"Biz mövcud təhlükələrə cavab verməliyik. Türkiyəyə qarşı çıxmaq Milli Təhlükəsizlik Şurasının, Xarici İşlər Nazirliyinin və hökumətinə əsas gündəmi olmalıdır"-deyə Paşinyan deyib.

Ölkəsinin yeni milli təhlükəsizlkik strategiyasını qəbul etdiyi xatırladan hökumət başçısı Qarabağ münaqişəsinin yalnız sülh yolu ilə həll oluna biləcəyini təkrarlayıb.

# Putin TŞ-ını topladı, Belarus müzakirə olundu

***Rusiya Prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının daimi üzvləri ilə Belarusdakı vəziyyəti müzakirə edib.***



Bu barədə Putinin mətbuat katibi Dmitri Peskov açıqlamasında bildirib.

O deyib ki, Prezident bu həftə baş tutan və əsasən Belarusdakı vəziyyətin müzakirə olunduğu bir sıra beynəlxalq telefon əlaqələri barədə iclas iştirakçılarına hərtərəfli məlumat verib.

Peskov xatırladıb ki, həftə ərzində Putin Avropa İttifaqı Şurasının sədri Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron, Almaniya kansleri Angela Merkel, Türkiyə Prezidenti Tayyib Ərdoğanla telefon danışığı aparıb.

"Belarusun işlərinə hər hansı bir kənar müdaxilənin qəbuledilməzliyi və bütün daxili problemlərinin bu ölkə rəhbərliyinin vətəndaşlarla dialoq yolu ilə həll etməsinin alternativlərin olmaması vurğulandı", - deyə mətbuat katibi əlavə edib.

# "Navalnıy zəhərlənməyib"



***Həkimlər rus müxalif siyasətçi Aleksey Navalnıyın analizlərində heç bir zəhər tapmayıb.***

"Qafqazinfo" xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Omsk şəhərinin 1 nömrəli təcili yardım xəstəxanasının baş həkiminin müavini Anatoli Kaliniçenko bildirib.

"Qan və sidikdə zəhər və onun izləri müəyyən edilməyib",- deyə Kaliniçenko qeyd edib. Həkim onu da əlavə edib ki, Moskvadakı həmkarları ilə aparılan araşdırmalar və məsləhətləşmələr nəticəsində siyasətçinin zəhərlənmədiyi qənaətinə gəliblər.

Kaliniçenko Omsk həkimlərinin və Moskvadakı həmkarlarının köməyi ilə Navalnıya diaqnoz qoya bildiklərini, ancaq bunu açıqlaya bilməyəcəklərini qeyd edib:

"Müalicə nəticəsində tam bir diaqnoz qoyduq. Təəssüf ki, bunu sizə deyə bilmərəm, ancaq həyat yoldaşının və qardaşının diqqətinə çatdırılıb".

O, müxalifətçinin vəziyyətinin hələ də qeyri-stabil olduğunu və bu vəziyyətdə onun daşınmasının məqsədəuyğun olmadığını bildirib.

# Bayden ABŞ prezidentliyinə namizədliyi qəbul etdi



***Co Bayden ABŞ prezidentliyinə demokratlardan namizəd olmağa rəsmi olaraq razılıq verib.***

"Qafqazinfo" xəbər verir ki o, bu barədə Demokratların virtual konqresində açıqlama verib:

"Demokrat olduğum üçün qürur duyuram və ABŞ prezidentliyinə bu namizədliyi qəbul etməyim mənim üçün böyük bir şərəfdir".

Siyasətçi prezidentliyi dövründə ABŞ-ın "qaranlıq dövrü"nü aşacağına söz verib. "İnsanlara işıq verin, onlar da yollarını tapacaqlar. Bu sözlər bizim dövrümüzə də aiddir. Mövcud prezident Amerikanı uzun müddət qaranlığa qərq etdi. Həddən artıq aqressiya, qorxu və bölünməyə səbəb oldu. Budur, indi də sözümü verirəm: güvənirsinizsə Mən prezident olacağam, mən bizdən yalnız yaxşı şeyləri üzə çıxaracağam, pisin deyil, qaranlığın deyil, işığın müttəfiqi olacağam ",-deyə Bayden bildirib.

# Belarus ordusu genişmiqyaslı təlimlər keçirəcək

***Belarus ordusu Qərb Əməliyyat Komandanlığının rəhbərliyi altında genişmiqyaslı təlimlər keçirəcək.***

TASS-ın verdiyi xəbər görə, bu barədə Belarus Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, hərbi təlimlər avqustun 28-31-də baş tutacaq.

"Hərtərəfli taktiki təlimlər üçün inteqrasiya olunmuş qüvvələrdən ibarət qrup təşkil olunub. Buraya hərbi hava qüvvələri, motorlu tüfənglər, zirehli texnika, artilleriya bölmələri, pilotsuz uçuş aparatları və elektron müharibə sistemləri daxildir", - deyə Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

# Rusiyada koronavirus:son sutka ərzində 90 nəfər ölüb

***Rusiyada son sutka ərzində daha 4870 nəfər yeni növ koronavirusa (COVID-19) yoluxub.***

Operativ Qərargahın verdiyi məlumata görə, Rusiyada COVID-19-a yoluxanların sayı 946 976 nəfərə çatıb. Son sutka ərzində 90 nəfərin koronavirusdan öldüyü bildirilib. Ümumilikdə koronavirusdan ölənlərin sayı 16 189 nəfərə çatıb.

Qeyd edək ki, Rusiya koronavirusa yoluxmaların sayına görə dünyada ABŞ, Braziliya, Hindistandan sonra dördüncü yerdə gəlir.

# YENİ NƏSİL "AKINCI"

## Dronun potensial alıcılardan biri müharibə vəziyyətində olan Azərbaycandır

***Türkiyə yüksək hündürlükdə, uzun müddət dayanıqlı PUA istehsalına başlamağa hazırlaşır, həmçinin bölgədəki hərbi çatışmazlığını aradan qaldırmağa və Vaşinqtonla küsüşdükdən sonra yeni nəsil "F-35" təyyarələrinin itkisinə qismən olsa da, kompensasiya etməyə ümid edir.***

"Baykar Makina" - prezident Rəcəb Tayyib Ərdoğanın gənc kürəkəni Səlcuq Bayraktarın ailəsinə məxsus şirkət avqustun 14-də "Akıncı" pilotsuz təyyarəsinin ikinci prototipi olduğunu və sınaq uçuşlarını uğurla başa vuraraq istehsala buraxılacağını açıqlayıb.

40.000 fut hündürlük və 24 saat davamlı xidmət tavanı PUA-nın yaxın məsafədən hava hücumundan müdafiə sistemlərinə qarşı immunitetə malik olacaq və 600 km (373 mil) radiusla təmin ediləcək. Onun maksimum uçuş çəkisi 4,5 ton, yükləmə gücü 1350 kiloqram (900 kiloqram xarici və 450 kiloqram daxili) olacaq və hər biri 550 at gücündə olan Ukraynanın "İvchenko-Proqres AI-450C" turbopərli mühərriki ilə təchiz ediləcək.



Türkiyə bu günə qədər pilotsuz texnologiya sahəsində əsas tərəfdaşı olan Ukraynadan 12 belə mühərrik idxal edib.

Bəziləri günün sonunda sürəti saatda 400 km-dan çox olmayan PUA ilə bağlı xüsusi nəyin olduğunu soruşa bilər. Ankara bu PUA-ya böyük ümidləri bəsləyir. "Akıncı" yaxın on illikdə kəşfiyyat-nəzarət hədəfi əldə etmə (ISTAR) və komanda-nəzarət-rabitə (C3) vəzifələri üçün əsas hava nəqliyyat vasitəsidir. O, çoxrollu aktiv elektron skan edilmiş serial radarı, SAR / GMTI radarı, geniş əraziyə nəzarət sistemi, elektron müharibə, elektron və siqnal kəşfiyyatı dəsti və ISTAR + C3 dəqiq peyk rabitə sistemlərinə malik olacaq.

Bundan əlavə, PUA MAM-L, MAM-C, CIRIT, Mk81 və Mk82 ümumi təyinatlı bomba və intellektual döyüş sursatları da daxil olmaqla, geniş yerüstü döyüş silahları ilə silahlandırıla bilər. "Roketsan"ın 250 km (155 mil) məsafəli SOM-A kruiz raketinin də "Akıncı"-ya inteqrasiyası planlaşdırılır.

Bir turbopərli mühərriklə təchiz edilmiş dronun kruiz raketləri (SOM) ilə birləşməsi məntiqsiz görünə bilər, amma gələcək 10 ildə Ankara üçün oyun dəyişdiricisi olacağı mümkündür. Xüsusən PKK və İŞİD kimi qeyri-dövlət aktyorlarına qarşı müharibədə. Məhz yeni pilotsuz təyyarə Türkiyə hərbi qüvvələrinə 800 km (təxminən 500 mil) məsafədəki hədəflərə qarşı yüksək dağıdıcı gücü təmin edəcək ki, bu da yalnız "F-4E 2020 Terminator" və "F-16"-nin bacardığı bir şeydir.

Məsələn, İraq və Suriyadakı əməliyyatlarda türk pilotsuz təyyarələri 22 kiloqramlıq MAM-L ağıllı mikro silahlardan istifadə edərək sərhəddən 100 kilometr (62 mil) uzaqlıqda yüngül strukturlar və silahsız yerüstü maşınları hədəf alıb. "Akıncı-SOM" birləşməsi 800 kilometrə qədər məsafədə mühüm hədəflərə daha dəqiq zərbələr endirməyə imkan verəcək.

Bəzi türk analitikləri "Akıncı"nın yerli inkişaf etmiş hava-hava raketləri ilə təchiz oluna biləcəyini iddia edirlər, lakin pilotsuz təyyarənin nisbi ləngliyi və məhdud manevr imkanları nəzərə alınmaqla, bu şişirtmədir. Müşahidəçilər hətta layihə müəlliflərinin ordunun 2021-ci ildə alması planlaşdırılan yerli inkişaf etmiş, çoxfunksiyalı hücum gəmisi "TCG Anadolu"ya bu dronun yerləşdiriləcəyini iddia edirlər.

Ankara 2021-ci ilin əvvəlinə qədər 6 "Akıncı"nı istismara verməyi planlaşdırır. Azərbaycan, Malayziya, Qətər və Ukraynanın bu dronun alınmasında maraqlı olduğu söylənir.

"Akıncı", "F-16" və "F-4" təyyarələrinin qocaldığı vaxtda ortaya çıxıb. Ən pisi odur ki, Vaşinqton keçən il Rusiya hava hücumundan müdafiə sistemlərinin alınması ilə əlaqədar Türkiyəyə "F-35" təyyarələrinin verilməsini dayandırıb. Üstəlik, Türkiyənin yerli "TFX" döyüş təyyarəsi layihəsi maliyyə və texniki cəhətdən sıxıntılarla üzləşib.

Layihə planlaşdırıldığı kimi irəliləsə də, ordunun 2030-cu illərin əvvəllərinə qədər yeni reaktiv təyyarə alması çətin olacaq.

Beləliklə, növbəti 10 il hava qüvvələri üçün kritik olacaq. "Akıncı" Ankaranın əlini gücləndirəcək, aşağı intensivli münaqişə mühitində uzun məsafəli, yer-hava missiyaları üçün yeni bir seçim təmin edəcək, bununla da "F-16" təyyarələrinin yükünü yüngülləşdirəcək. Bunun sayəsində Egey və Aralıq dənizi üzərində daha ucuz və daha uzun hava patrul vəzifələri yerinə yetiriləcək.

Yeni "Akıncı"nın gəlişi, şübhəsiz ki, Türkiyə hava qüvvələrinin "hava-hava" və "yer-hava" müharibəsi doktrinalarını yeniləməsinə səbəb olacaq. Ankarada müzakirə edilən yeni konsepsiya hədəf bölgələrinə uçarkən, "Akıncı" dronlarını "F-16" təyyarələrinin müşayiət etməsini nəzərdə tutur.

Əlavə olaraq, "Akıncı" peyk rabitəsindən istifadə edərək, ən az 800 kilometr məsafəyə, aşağı və orta hündürlükdə hava hücumundan müdafiə sistemlərinin hədəfi olmayan hündürlükdə regional pilotsuz şəbəkə qurmaq üçün istifadə ediləcək.

Məsələn, Qətər və ya Somalidə türk dron bazasını təsəvvür edin. Belə bir bazadan çıxan "Akıncı" SOM raketini atmaq üçün 600 kilometr (373 mil) qədər uça bilər. Raketin öz məsafəsi 250 kilometrdən (155 mil) çox olsa da, Türkiyə 850 kilometrə qədər (528 mil) məsafədəki hədəflərə zərbə vura bilər.

Dronun əsas mənfi tərəfi teztez texniki xidmət və Ukraynadan gətirilən turbopərli mühərriklərdir. "TFX" reaktivi, "Altay" döyüş tankı və "T129" hücum helikopteri də daxil olmaqla, digər yerli hərbi texnika da oxşar mühərrik problemləri ilə qarşılaşır.

Xarici istehsallı mühərriklərlə Türkiyə müdafiə sənayesinin ən zəif yeri olaraq ortaya çıxır. Ankara Ukrayna, İngiltərə və Qətər şirkətlərinin turbopərli, dizel və reaktiv "nou-hau"larına türk şirkətlərinin çatmasının uzun bir yolu var.

Bununla birlikdə, "Akıncı" layihəsi Türkiyəni yeni dronla İraq və Suriyada PKK-ya zərbə vurmaq üçün, eyni zamanda, Liviya, Aralıq dənizi və Egeydə güc proqnozu və bəlkə də dəqiq zərbələr endirmək üçün Türkiyəni qlobal pilotsuz gücə çevirəcəyinə söz verir.

"Akıncı"nın oyun dəyişdirmə perspektivləri hərbi baxımdan açıq olsa da, diplomatiyaya təsiri hər iki istiqamətdə gedə bilər. Bu, Ankaranın xarici siyasət böhranlarının daha sürətli həllinə kömək edəcəkmi və ya onları daha da çətinləşdirir və uzadır? Cavab görünür ki, çox keçmədən ortaya çıxacaq.

***Mətin Gürcan***
***"Əl-Monitor", 20.06.2020***

*Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Dağlıq Qarabağla bağlı həqiqətlər dünyaya car çəkilməlidir

## Natiq Miri: "Özümüz hadisə yaratmalı, torpaqlarımızı işğaldan azad etmək haqqımızı hər zaman istifadə edə biləcəyimizi beynəlxalq ictimaiyyətə bəyan etməliyik"

***Dağlıq Qarabağ həqiqətləri 27 ildir ki, beynəlxalq təşkilatların diqqətinə çatdırılsa da, bu münaqişənin həllində beynəlxalq ictimaiyyətdən əhəmiyyətli reaksiya yoxdur. Baxmayaraq ki, 1993-cü ildən başlayaraq BMT TŞ-nın qəbul etdiyi qətnamələrdə Azərbaycan torpaqlarının 20%-inin işğal altında olduğu deyilir. İllərdir ki, Ermənistanın təcavüzkar siyasətinin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan tərəfindən çox ciddi addımlar atılır.***

Azərbaycanın rəsmi hakimiyyət orqanları, xaricdəki diaspora nümayəndələri Dağlıq Qarabağ həqiqətlərini dünya miqyasında yaymağa, Ermənistanın işğalçı siyasətini ifşa etməyə çalışırlar. Eyni zamanda dünyanın aparıcı KİV nümayəndələrinin Azərbaycana səfərləri təşkil olunur, onlar məlumatlandırılır. Amma hələ də beynəlxalq təşkilatlar təcavüzkar siyasət yürüdən Ermənistanın əleyhinə bəyanatlar vermir, onun işğalçı olduğunu dilə gətirməkdən çəkinirlər. Halbuki Ermənistanın təcavüzkar siyasəti tək Azərbaycan üçün deyil, bütünlükdə regionun təhlükəsizliyi, stabilliyi üçün problemdir. Elə politoloq Natiq Miri də Ermənistanın işğal etdiyi torpaqların terror yuvasına çevrildiyini söyləyir. Politoloq bildirir ki, bu gün işğal edilmiş torpaqlarımızda PKK terrorçuları təlim keçir.

Ekspertin sözlərinə görə, 27 ildir ki, Azərbaycan torpaqların sülh yolu ilə işğaldan azad edilməsi siyasətini yürüdür. Halbuki ərazisinin bir hissəsi işğalda qalan dövlət olaraq Azərbaycanın haqqı var ki, güc yolu ilə öz torpağına sahib çıxsın: "Qeyd etdiyim kimi, işğalda olan torpaqlarımızın azad edilməsi üçün Azərbaycanın Dağlıq Qarabağda antiterror addımları atması yetərlidir. BMT tərəfindən də Azərbaycanın öz torpaqlarını işğaldan, terrorçulardan təmizləmə haqqı verilir".

Həmsöhbətimiz deyir ki, illərdir Azərbaycan münaqişə barədə beynəlxalq ictimaiyyəti məlumatlandırır: "Azərbaycan Dağlıq Qarabağı münaqişə predmeti olaraq deyil, işğal olunmuş ərazilər kimi təqdim edərək, beynəlxalq hüququn və Birləşmiş Millətlər Təşkilatının verdiyi haqdan istifadə etməklə işğal olunmuş ərazilərini azad etməlidir. Yəni Dağlıq Qarabağ münaqişə predmeti deyil. Biz aktiv siyasət yürütməsək, özümüz belə bir proseslər yaratmasaq, bu münaqişəni müzakirə etmək məcburiyyətində qalacağıq. Özümüz hadisə yaratmalı, torpaqlarımızı işğaldan azad etmək haqqımızı hər zaman istifadə edə biləcəyimizi beynəlxalq ictimaiyyətə bəyan etməliyik".

N. Miri bildirir ki, dünyanın ən böyük, ən hegemon ölkələri bu münaqişənin guya həlli üçün vasitəçiliklə məşğuldurlar. Amma bu vasitəçilik heç bir şeyi dəyişməyib. Bu gün də Ermənistanın işğal faktoru davam edir: "BMT Azərbaycanın xeyrinə bu vaxta qədər 4 qətnamə qəbul edib. Lakin bu qətnamələr kağız üzərində qalıb və yerinə yetirilməyib. Nədənsə, beynəlxalq formatların olduğu bütün münaqişələrdə heç bir irəliləyiş yoxdur. Həmçinin münaqişələrin həll olunma ehtimalı özünü azacıq da olsa biruzə vermir. Yəni problemlər ölü nöqtədə dayanıb durublar. Demək ki, vəziyyətləri ölü nöqtədən çıxarmaq üçün hansısa təkana ehtiyac var və bu təkan güc tətbiqi ola bilər. Onu da qeyd edim ki, beynəlxalq formatların olmadığı münaqişələrin həll prosesində irəliləyiş var. Çox maraqlıdır ki, Azərbaycanın 20 faiz torpağı işğal olunmuş vəziyyətdədir, amma cırtdan Ermənistana təzyiq mexanizmi olaraq heç bir sanksiya tətbiq olunmur. Bunun da səbəbləri aydınlaşmalıdır. Artıq Azərbaycan ultimativ şəkildə beynəlxalq strukturlarda, hətta BMT-nin nəzdində bu məsələni tam ciddiyyəti ilə qaldırmalıdır və bu məsələ ətrafında manipulyasiya etmədiyini hər kəsə göstərməlidir. Bu gün təkcə bir milyon məcburi köçkün deyil, Azərbaycanın 99 faiz əhalisi Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad olunmasını istəyir. Çünki bu Azərbaycan üçün şərəf məsələsinə çevrilib. Azərbaycan həqiqətən də öz şərəfini yerdən qaldırmaq üçün bu torpaqları azad etməlidirlər. Torpaqların azad olunması yalnız və yalnız hərbi əməliyyatlardan keçir".



N. Miri bildirir ki, Azərbaycan Dağlı Qarabağ məsələsini Türkiyə ilə ciddi müzakirə obyektinə çevirə bilər. Onun fikrincə, buna çox böyük ehtiyac var: "Əgər Azərbaycan öz işğal altında olan torpaqlarını azad etmək qərarı verəcəksə, bunu Türkiyə ilə ciddi şəkildə müzakirə etməli, bu yöndə strateji planlar hazırlanmalıdır. Çünki bu məsələdə Ermənistan tək deyil. Bölgədə böyük güclərin, o cümlədən Rusiyanın xüsusi maraqları var. Ona görə də bu məsələdə Ermənistana Rusiya tərəfindən dəstək olarsa, Türkiyə də boş oturan deyil. Rusiyanın qarşısını kəsəcək ən uygun güc Türkiyədir. Biz Türkiyənin gücünü Liviyada, Suriyada gördük".

Dağlıq Qarabağ münaqişəsində torpaqların hərb yolu ilə işğaldan azad edilməsi hər zaman aktual olsa da, politoloq son bir ildə beynəlxalq təşkilatlar tərəfindən işğalçı dövlətə qarşı müəyyən təpgilər olduğunu təsdiqləyir. O deyir ki, Azərbaycan beynəlxalq təşkilatlar, münaqişənin həllində vasitəçi dövlətlərlə danışıqlar aparmalı, işğalçı dövlətə qarşı qınağı artırmalıdır.

Qeyd edək ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi priotetdir. Təəssüflə qeyd etmək lazımdır ki, bütün səylərə baxmayaraq, bu günə kimi BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının

Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasına dair məlum dörd qətnaməsinin, eləcə də digər beynəlxalq təşkilatların müvafiq qərarlarının yerinə yetirilməsi istiqamətində heç bir irəliləyiş əldə olunmayıb. Bu gün Azərbaycanın apardığı hücum diplomatiyası sayəsində Ermənistanın işğalçı simasının ifşa edilməsi, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ciddi uğurlar əldə olunub. 27 ildir ki, Ermənistan münaqişənin tənzimlənməsini istəmir, beynəlxalq təşkilatların qərar və qətnamələrinin icrasından boyun qaçırır, danışıqlar prosesini imitasiya edir. Ordumuzun gücü günü-gündən artır, dünyada müşahidə olunan iqtisadi gərginliyə baxmayaraq, Azərbaycan inamla irəliləyir, dinamik inkişaf edir. Beynəlxalq aləmdə artan gərginlik fonunda ölkəmiz sabit, təhlükəsiz məkan kimi dünyanın diqqətini özünə cəlb edir. Bütün bunlar da inkişafımıza dözümsüz yanaşan xarici dairələri, xüsusilə Ermənistanı və erməni lobbisini qıcıqlandırır, narahat edir. Hazırda ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, eləcə də Qarabağ haqqında əsl həqiqətlərin dünyaya çatdırılması, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində artıq bir sıra beynəlxalq təşkilatın qəbul etdiyi sənədlərdə Ermənistan işğalçı dövlət kimi göstərilib. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılıb. Hazırda xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması prosesində Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələri, dövlət siyasətinin prinsipləri, Azərbaycanın milli maraqları rəhbər tutulub. Bu istiqamətdə Diasporla İş üzrə Dövlət Komitəsi daha geniş fəaliyyət göstərir. Komitənin son 2 ildə təşkilatlandırma, təbliğat və maarifçilik meyarlarına söykənən ümumi strategiyası dünya azərbaycanlılarının yeni platformalarda birləşdirilməsi istiqamətində Azərbaycan dövlətinin apardığı böyük işlərə mühüm töhfədir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı



# Killerə 4 milyon dollar verilib – Sensasion iddia

## Gizli mesaj: "Böyük qardaşınızın axırı budur, sizi də bu aqibət gözləyir..."

***20 avqust saat 02 radələrində qanuni oğru Lotu Quli Türkiyənin Antalya şəhərinin Serik bölgəsində yerləşən otellərin birində qətlə yetirilib.***

"Unikal" Axar.az-a istinadən xəbər verir ki, qətli "Xan Bakinski" qələbli Xaqan Dəyanət oğlu Zeynalov həyata keçirib.

Məlumata görə, Xan Bakinskiyə sifarişi Rövşən Lənkəranskinin qohumu Zaur Əliağa oğlu Əhmədov verib. Qətlin icrası üçün Bakinskiyə 4 milyon dollar ödənilib.

İddiaya görə, qətl Rövşən Lənkəranskinin öldürüldüyü gün icra edilməli imiş. Belə ki, 18 avqust 2016-cı ildə İstanbulda qətlə yetirilmişdi. Onun avtomobili güllləbaran edilmişdi. Onun qətlinin sifarişçiləri sırasında Lotu Qulinin də adı çəkilirdi. Qatil isə Qulini 18 avqustda öldürə bilməyib və sifarişi 19 avqust gecəsi yerinə yetirib.

Lotu Quli arxadan, boyun nahiyəsindən 4 güllə yarası alıb və xəstəxanaya çatdırılarkən yolda dünyasını dəyişib. 16 may 1995-ci il təvəllüdlü, qubalı Xan Bakinski - Xaqan Zeynalov - kriminal aləmdə tanınmır. O, yalnız "Jora" ləqəbli Samir Fəqan oğlu İsmayılovun təqdimatı ilə Lotu Quli ilə tanış olub. Daha sonra isə Lotu Quli Xaqanı özünə mühafizəçi götürüb.

Hadisə baş verəndə Lotu Quli tanışları ilə qumar oynayırmış. Qumar masası arxasında "Odessa Nazir" kimi tanınan Nazir Bayram oğlu Əliyev olub. Həmçinin Qulinin yaxınları Samir İsmayılov, Polad Omarov, Tarzan Nazarov, Maqamed Kurbanov da hadisə yerində imiş, əsas şahidlərdir.

Lotu Qulinin mühafizəçisi olan Xaqan Zeynalov "şefini" güllələyəndən sonra qaçarkən onun arxasınca Tarzan Nazarov düşüb və dərhal atəş açaraq, Xaqanı yaralayıb.

Digər bir dəhşətli məqam isə odur ki, qətldən dərhal sonra Polad Omarovun mobil telefonuna naməlum nömrədən mesaj gəlib. Mesajda bildirilib: "Böyük qardaşınızın axırı budur, sizi də bu aqibət gözləyir".

Azərbaycan əsilli "oğru" Nadir Səlifovun (Lotu Quli) qətli ilə bağlı müxtəlif məlumatlar yayılır.

Yenisabah.az xəbər verir ki, məlumatlardan biri də Lotu Qulinin 4 milyon dollar qarşılığında qətlə yetirilməsi barədədir. İddia olunur ki, qətli həyata keçirən Xaqan Zeynalov (Xan Əhmədlinski) sifarişi mərhum "oğru" Rövşən Canıyevin (Rövşən Lənkəranski" əmisi oğlu Zaur Əhmədovdan alıb. Buna görə ona 4 milyon dollar ödənilib. Lotu Qulinin qətli isə qisas məqsədi daşıyıb.

Nadir Səlifovun rəqibi Rövşən Canıyev 2016-cı il avqustun 18-də qətlə yetirilib. Bu olay Lotu Qulinin aktivinə yazılıb. Xan Əhmədlinski də Nadir Səlifovu həmin gün öldürməliymiş. Lakin avqustun 18-nə planlaşdırılan suiqəsd baş tutmayıb. Xan Əhmədlinski sifarişi bir gün sonra, yəni avqustun 19-da icra etməli olub.

Rövşən Lənkəranski qətlə yetiriləndən sonra onun işlərini Zaur Əhmədov davam etdirib. Onun qardaşı Emin Əhmədov da kriminal avtoritetdir. Rövşən Lənkəranski ilə Lotu Quli arasında münasibətlərin düşmənçilik səviyyəsinə çatmasının bir səbəbi də ikincinin Eçin Əhmədovu "oğru" kimi tanımamaqla bağlı kriminal dünyaya çağırışı olub.

Nadir Səlifovun Emin Əhmədovu tituldan məhrum etməsi onsuz da Lotu Quli ilə münasibətləri yaxşı olmayan Rövşən Lənkəranskini qəzəbləndirib. Beləliklə, tərəflər barışmaz düşmənə çevriliblər.

# Balakəndə sahibkar məsuliyyətə cəlb edildi

## Balakəndə obyektinin açılışını edən sahibkar məsuliyyətə cəlb edildi

***Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə şəhər ərazisində karantin qaydalarını pozaraq insanları bir yerə toplayıb, yeni obyektin açılışı məqsədilə məclis təşkil edən şəxs müəyyən edilib.***

Bu barədə "Unikal"a DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan məlumat verilib.



Bildirilib ki, polis əməkdaşları tərəfindən həmin ünvana baxış keçirilən zaman icarədar C.Uqalayevanın kişi salonunun açılışı məqsədi ilə qapalı məkanda 20-yə yaxın şəxsi biryerə toplayaraq məclis təşkil etdiyi və karantin qaydalarını pozduğu aşkarlanıb.

İcarədar barəsində Balakən Rayon Polis Şöbəsində toplanmış materiallar hüquqi qiymət verilməsi üçün məhkəməyə göndərilib.

# Gəncədə evlərdən oğurluq edən şəxs saxlanıldı

***Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ötən ilin müxtəlif vaxtlarında şəhər ərazisində bir neçə evdən oğurluq edən şəxs saxlanılıb.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan Teleqraf.com-a verilən məlumata görə aparılan araşdırmalarla müəyyən edilib ki, Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş, 41 yaşlı Rasim Quliyev 2019-cu ilin aprel ayının 3-də şəhər ərazisindəki evlərdən birinə gizli yolla daxil olaraq oradan 1 500 manat dəyərində televizor oğurlayıb. Bundan başqa Gəncə şəhər xəstəxanaların birindən 1 000 manat dəyərində kompyuter, 350 manat dəyərində printer və 1 790 manat dəyərində müxtəlif dərman preparatlarını oğurlayıb. Daha sonra o, ötən ilin mayın 7-də şəhər ərazisindəki mənzillərin birindən 2 300 manat dəyərində 2 ədəd televizor oğurlayıb.

Davam etdirilən istintaq-əməliyyat tədbirləri nəticəsində R. Quliyevin 2019-cu ilin iyun ayında daha bir şəhər sakininə məxsus mənzilə daxil olaraq oradan 400 manat dəyərində 1 ədəd televizor oğurlaması da aşkar edilib.



R.Quliyev maddi sübutlarla birlikdə istintaqa təhvil verilib. Faktlarla bağlı araşdırma aparılır.

# Sumqayıtda narkotik satan şəxs saxlanıldı

***Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan şəxs saxlanılıb.***

DİN-in Mətbuat Xidmətindən "Qafqazinfo"ya verilən məlumata görə, əməliyyat zamanı Sumqayıt şəhər sakini Məcid Şamilov tutularaq istintaqa təqdim edilib. Onun üzərində şəxs axtarış aparılan zaman əlindəki çantadan iki büküm ümumi çəkisi 1 kiloqramdan artıq olan narkotik vasitə heroin aşkar



olunaraq götürülüb. Məcid Şamilov ifadəsində xarici ölkələrdən birində yaşayan və şəxsiyyəti istintaqla araşdırılan bir nəfərin sifarişi ilə narkotik vasitələrin satışını təşkil etdiyini bildirib. Məcid Şamilov narkotik vasitələri 12 min manata aldığını və heroinin pulunu isə onlayn yolla həmin şəxs göndərdiyini qeyd edib.

Faktla bağlı Məcid Şamilov barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və o, təqsirləndirilən şəxs qismində istiintaqa cəlb olunub. Saxlanılan şəxsin cinayət əlaqələrinin müəyyən edilməsi stiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Saatlıda anasını bıçaqlayan oğul tutuldu

***Avqustun 19-da saat 19 radələrində Saatlı rayon sakini, 1968-ci il təvəllüdlü Afət Mehdiyevanın yaşadığı evdə bıçaqlanaraq xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Saatlı rayon prokurorluğundan "Qafqazinfo"ya verilən xəbərə görə, dərhal prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı Saatlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

Aparılmış araşdırmalarla zərərçəkmişin oğlu 1993-cü il təvəllüdlü Raqif Mehdiyevin şəxsi münasibətlər zəmnində aralarında yaranmış münaqişə zamanı bıçaqla xəsarət yetirməklə Afət Mehdiyevanı qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilib.

Raqif Mehdiyev Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə nəzərdə tutulan cinayət əməlini törətməkdə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.



Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# TƏBİB-dən karantin günlərində toyların keçirilməsinə CAVAB

***"Toyların və ya hər hansı yığıncaqların keçirilməsi ilə əlaqəli qeyd etmək istəyirəm ki, ölkəmizdə tətbiq olunan karantin qaydaları Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən tənzimlənir".***

Unikal.org xəbər verir ki, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında



TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib.

O bildirib ki, bu qərar dövlət tərəfindən verilir:

"Hər birimiz - istər həkimlərin, istər adi vətəndaşlarımızın bu karantin qaydalarına riayət etmək borcumuzdur. Buna həkim olaraq fikrimi bildirə bilərəm. Başqa tərəfdən, bu prosseslərin qiymətləndirilməsi aidiyyəti qurumlar tərəfindən aparılır".

# MTRŞ "Lider TV" ilə bağlı məsələyə aydınlıq gətirdi

***Bəzi informasiya saytlarında "Lider TV" kanalının kabel yayımının dayandırılması və kabel operatorlarının paketlərində həmin kanalın əvəzinə "APA TV" kanalının yayımlanacağı barədə məlumatlar yayılıb.***

Milli Televiziya və Radio Şurasından Unikal.org-a verilən məlumatda bildirilir ki, "Lider TV və Radio-Azərbaycan" MMC-nin müflis elan olunması haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi olmadığından "Lider TV" kanalının lisenziyası qüvvədədir və kanal fəaliyyətini davam etdirir.

"Açıq yerüstü yayımda olan bütün ümumölkə kanalları kimi "Lider TV" kanalı da bütün kabel operatorları vasitəsilə yayımlanır. Milli Televiziya və Radio Şurasının qərarı olmadan həmin kanalın kabel şəbəkələri vasitəsilə yayımın dayandırıl-




ması və həmin kanal əvəzinə "APA TV" və ya "Baku TV" kimi internet televiziya kanallarının kabel şəbəkəsi vasitəsilə yayımlanması barədə xəbərlər həqiqəti əks etdirmir.

Qeyd olunmalıdır ki, "APA TV" və "Baku TV" kimi internet televiziya kanalları açıq yerüstü yayımda olmadığından onların kabel operatorlarının paketlərində yayımlanması qadağandır" , - deyə məlumatda bildirilir.

# "Əvvəllər daşınmaz əmlakla bağlı alqı-satqı müqavilələrində tez-tez mübahisələr yaranırdı"

***"Daşınmaz əmlakla bağlı alqı-satqı müqavilələrində tərəflər bəzən müqavilə qiymətini fərqli şəkildə göstərmək istəyirlər".***

Bunu Notariat Palatası İdarə Heyətinin sədri, 2 saylı Bakı "ASAN xidmət" mərkəzində xüsusi notariusu Hüseyn Məmmədov deyib. O bildirib ki, əmlak qiymətinin düzgün qeyd olunması, onlar üçün əlavə məsrəflərə yol açmır: "Müəyyən olunmuş rüsum eyni şəkildə qalır. Ancaq vətəndaşlar müqavilədə əmlakın qiymətini reallıqdan fərqli şəkildə yazarsa, məsələn, əmlakın qiyməti 100 min manatdırsa, 70-80 min manat qeyd ediblərsə, gələcəkdə müqavilə ilə bağlı hər hansı mübahisələr yarananda yazdıqları məbləğə istinad edə biləcəklər ki, bu da satıcı tərəfin hüquqlarının əhəmiyyətli dərəcədə pozulması və onun ziyan çəkməsinə səbəb olacaq".



Onun sözlərinə görə, depozit hesabının tətbiq olunmadığı əvvəlki illərdə bu müqavilələr üzrə məbləğin alınması barədə tərəflər arasında tez-tez mübahisələr yaranırdı: "Tərəflər pul vəsaitinin tam və yaxud qismən verilmədiyi barədə iddialar irəli sürürdülər. Bunun qarşısını alamq üçün Nazirlər Kabinetinin qərarına əsasən, bu vəsaitin depozit hesabı vasitəsilə ödənilməsi məsələsi gündəmə gəldi. Bundan sonra bu kateqoriyadan olan mübahisələrə demək olar ki, rast gəlmirik".

H. Məmədov onu da deyib ki, Mülki Məcəllənin tələblərinə görə, bağışlanan əmlak əvəzsiz müqavilədir. Onun sözlərinə görə, bağışlama müqaviləsi əvəzsiz olaraq istənilən fəaliyyətli şəxs öz əmlakı üzərində sərəncam verə bilər, yəni əmlakını digər şəxsə bağışlaya bilər: "Bağışlanan əmlakın geri alınması mübahisə halında əsas verən hüquqi amillərin hər hansı birinin etibarsız olması lazımdır. Yəni, burada iradə faktoru, mülkiyyətin qanuniliyi, yəni, mülkiyyət həmin şəxsə məxsusdursa və həmin şəxs şüurlu şəkildə, öz iradəsini düzgün ifadə edirsə, fəaliyyət qabiliyyətində hər hansı məhdudlaşma yoxdursa, öz əmlakını əvəzsiz olaraq digər şəxsə bağışlaya bilər. Bu, geri qaytarılmanı nəzərdə tutmur".

# Mətin Eynullayev Holdinq sədri vəzifəsini ictimai əsaslarla həyata keçirəcək

***Azərbaycan Prezidentinin 19 avqust 2020-ci il tarixli sərəncamı ilə Mətin Eynullayev Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri təyin olunub.***



"Unikal" xəbər verir ki, Mətin Eynullayev Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri vəzifəsini ictimai əsaslarla həyata keçirəcək.

O, hazırda İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini-rəis vəzifəsinin icraçısıdır və bu vəzifədə fəaliyyətini davam etdirəcək.

Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsinə görə, Holdinqin idarəetmə orqanları Müşahidə Şurası və İdarə Heyətidir.

İdarə Heyəti 5 üzvdən - sədrdən və digər üzvlərdən ibarətdir. İdarə Heyətinin üzvlərindən biri, eyni zamanda, Azərbaycan İnvestisiya Holdinqinin idarə edilməsinə məsul olan Baş icraçı direktordur. İdarə Heyətinin digər üzvlərini, o cümlədən Baş icraçı direktoru İdarə Heyəti sədrinin təqdimatı əsasında Müşahidə Şurası vəzifəyə təyin və vəzifədən azad edir. Baş icraçı direktor Holdinqin cari fəaliyyətinə rəhbərlik edir.

Məlumat üçün qeyd edək ki, dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin vahid prinsiplər əsasında idarə olunması, onların fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 7 avqust 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan İnvestisiya Holdinqi yaradılıb və Nizamnaməsi təsdiq edilib.

Dövlət başçısının 12 avqust 2020-ci tarixli Sərəncamı ilə Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının tərkibi təsdiq edilib və Azərbaycan Respublikasının Baş Naziri Müşahidə Şurasının sədri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri, İqtisadiyyat və Maliyyə nazirləri Şuranın üzvləridir.

# Beynəlxalq Miqrasiya Təşkilatı Dövlət Gömrük Komitəsinə yeni nəsil avadanlıq verib

***BMqT-nin Azərbaycan nümayəndəliyi növbəti ofis avadanlığı və kompüterlər dəstini Dövlət Gömrük Komitəsinə təhvil verib.***

Yeni avadanlıqlar Komitənin əməliyyat imkanlarını gücləndirməklə sərhəd təhlükəsizliyinin təmin edilməsinə, qanunsuz miqrasiya, terrorizm və ağır iqtisadi cinayətlərə qarşı mübarizəyə öz töhvəsini verəcək.

Məlumata görə, BMT-nin Miqrasiya Agentliyi olan BMqT təşkilatın İnkişaf Fondu tərəfindən maliyyələşdirilən və Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan nümayəndəliyinin həyata keçirdiyi "Azərbaycanda beynəlxalq qabaqcıl təcrübə və standartlar əsasında sərnişin və sənədləşmə əməliyyatları üzrə bacarıqların artırılması" layihəsi çərçivəsində miqrasiya və sərhəd idarəetmə məsələləri ilə bağlı müxtəlif çağırışlara daha effektli reaksiya vermək üçün lazım olan siyasətin, qanunvericiliyin, əməliyyat sistemlərinin, insan resurslarının, inzibati və texniki strukturların təkmilləşdirilməsində dövlət qurumlarını dəstəkləyir.

Qeyd edək ki,adı çəkilən layihə çərçivəsində artıq BMqT, Birləşmiş Millətlər Təşkilatının Terrorla Mübarizə İdarəsi və Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığı insanların səyahətini asanlaşdırmaq və sərhəd nəzarətini yaxşılaşdırmağa imkan verən Sərnişinlərə dair İlkin Məlumat (API) və Sərnişin Adlarının Qeydiyyatı (PNR) sistemlərinin tətbiqində ölkə hökümətinə dəstək məqsədilə dövlət qurumlarının təmsilçiləri üçün seminar keçiriblər.

# Allahşükür Paşazadə mollalara tapşırıq verdi

***Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə din xadimləri ilə videokonfrans formatında görüş keçirib.***

QMİ-dən "Unikal"a verilən məlumata görə, Azərbaycan Respublikası Dini qurumlarla iş üzrə Dövlət Komitəsinin rəhbərliyinin və yerlərdəki nümayəndələrinin qatıldığı videogörüşdə QMİ-nin paytaxt və bölgələrdəki qazı və səlahiyyətli nümayəndələri iştirak ediblər. QMİ sədri Şeyxülislam A.Paşazadə videoiclasın bütün iştirakçılarını salamlayıb, Vətən uğrunda şəhidlərimizin xatirəsini ehtiramla anıb və Məhərrəm ayının başlanması ilə bağlı məlumat verib.

A.Paşazadə ilk növbədə bildirib ki, müstəqillik dönəmində məscidlərimizin sayının 17-dən iki minə qədər artmasına, dini-mənəvi dəyərlərimizin inkişafı üçün dövlətimiz tərəfindən görülən böyük işlərə hər kəs şahiddir:

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Aşura günündə Təzəpir məscidinə gələrək dindarlar qarşısında unudulmaz çıxışını, Bibiheybət məscidinin təməlqoyma mərasimindəki tarixi əhəmiyyətli nitqini xatırladan QMİ sədri bu ali mənəviyyat yolunu davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev cənablarının milli-dini dəyərlərimizin inkişafı üçün böyük işlər gördüyünü minnətdarlıqla vurğulayıb.

Dini irsə qayğı ilə yanaşan dövlətimizin bu sahəyə diqqət və qayğısı şəraitində hal-hazırda dünyada təlatümlər yaradan koronavirus səbəbindən məscid və ziyarətgahlarımızın qapalı olmasından təəssüfünü ifadə edən Şeyxülislam A.Paşazadə bu il dünyanın bütün nöqtələrində müxtəlif dinlərin müqəddəs bayram və önəmli ayinlərinin məcburi təcrid tədbirləri səbəbindən fərqli, kütləvi mərasimlər olmadan qeyd edildiyini xatırlayıb.

Xəstəliyin səngiməlidiyini və dünyanın müxtəlif ölkələrində yenidən artma meylini vurğulayan QMİ sədri Azərbaycan dövlətinin misilsiz səyləri ilə ölkəmizdə vəziyyətin nəzarətdə saxlanılmasını, yoluxma sayının azalmasının müşahidə olunmasını müsbət hal kimi dəyərləndirib.

Şeyxülislam A. Paşazadə bildirdib ki, dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) ölkəmizdə karantin gündəmə gələn ilk günlərdən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah ilə ətraflı məsləhətləşmələrindən sonra zəruri tövsiyələr nəzərə alınaraq, koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahlarda ibadətlərin müvəqqəti dayandırılmasına dair qərar verilib.

QMİ sədri vurğulayıb ki, pandemiya dövrünün məcburi təcrid tədbirləri virus təhlükəsinin qapalı və açıq məkanlarda insanların sıx toplaşdığı şəraitdə artması ilə əlaqədardır:

"Bu il İslamın vacib şərtlərindən biri olan müqəddəs Həcc ziyarətinin, habelə digər müqəddəs ayin və mərasimlərin müvəqqəti dayandırılması artıq dövrümüzün gerçəkliyidir. Aşura kimi, ənənəvi olaraq, böyük kütləviliyi ilə seçilən, sosial məsafəyə əməl olunmasının təmini qeyri-mümkün olan mərasim insanların virusa yoluxma sayının artma ehtimalı baxımından böyük təhlükə yarada bilər. Bu gerçəkliyi nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri dindarlara müraciət edərək, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarını nəzərə alaraq, bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda təziyə mərasimlərinin keçirilməyəcəyini bəyan edir".



QMİ sədri xüsusi vurğuladı ki, hökümət dini mərasimlərin keçirilməsinə qarşı deyil, dindarların sağlamlığını qorumaq məqsədilə bu addımı atır. İclasda müraciətin mətni oxundu.

Şeyxüslam A. Paşazadə xüsusi vurğulayıb ki, Uca Allahın yaratdığı ən müqəddəs dəyər olan insan həyatının qorunması məramı ilə bu məcburi addımın atılmasında əsas məqsəd vətəndaşlarımızın həyat və sağlamlığının qorunması olub.

Bu məramın bəzən bilərəkdən təhrif olunması cəhdlərinin yolverilməz olduğunu bildirən QMİ sədri bu yanaşmada bəzi qüvvələrin dövlətlə dindarı qarşı-qarşıya qoyma məkrinin olduğunu istisna etməyib. O bildirib ki, dindarlar hər zaman dövlətin yanındadırlar və onun zəruri qərarlarını anlayış və hörmətlə qarşılayırlar.

QMİ sədri dövlətin dinimizə qayğı və diqqətlə yanaşmasından razı olan din xadimlərimizin ölkəmizdəki məzhəblərarası harmoniya mühitinin qorunub saxlanılması, kənar qüvvələrin daxili sabitliyimizi hədəf alan, dini mühitimizə yönəlik məkrli addımlarının qarşısının alınması üçün əllərindən gələni əsirgəmədiklərini vurğulayıb.

Şeyxülislam A. Paşazadə Qafqaz Müsəlmanları İdarəsi ilə Azərbaycan Respublikası Dini qurumlarla iş üzrə Dövlət Komitəsinin koordinasiyalı fəaliyyətinin bu baxımdan xüsusi önəm kəsb etdiyini vurğulayıb və belə bir əməkdaşlıq nümunəsinin mövcudluğuna görə Komitənin rəhbəri cənab Mübariz Qurbanlıya minnətdarlığını bildirib.

Dövlət qurumunun geniş heyətlə videogörüşə qatılması formatında keçirilməsini belə bir nümunəvi əməkdaşlığın göstəricisi kimi dəyərləndirən QMİ sədri dövlət-din münasibətlərinin səviyyəsindən razılığını ifadə edib.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, pandemiyanın qarşısının alınması, onun doğurduğu sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində Azərbaycan dövləti tərəfindən çevik və məqsədyönlü siyasət aparılır, virusa qarşı mübarizənin ilkin mərhələsindən başlayaraq qabaqlayıcı addımlar atılır, yoluxucu xəstəliklə bağlı vəziyyət nəzarət altında saxlanılır:

"Prezident İlham Əliyevin qeyd etdiyi kimi həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sağlamlığı, maddi və mənəvi cəhətdən dəstəklənməsi dayanır.

Pandemiyanın ölkəmizin iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər görüldüyü kimi, dövlətimiz dini sahəyə də diqqət və qayğısını əsirgəmir".

Komitə sədri vurğulayıb ki, pandemiya dövründə dini qurumlara dövlət qayğısı və dəstəyi davam etdirilib, 2 iyun 2020-ci ildə Prezident cənab İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımının göstərilməsi haqqında Sərəncam imzalayıb. Həmçinin hər zaman olduğu kimi, pandemiya dövründə də dövlətimiz dini ibadət ocaqlarının, ziyarətgahların təmir və bərpa olunması istiqamətində fəaliyyətini dayandırmayıb. Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirsaat Baba ziyarətgahının yenidən qurulması və Pir Ömər Sultan ziyarətgahında bərpa-konservasiya işləri ilə tanış olmaq üçün Şamaxıda olublar. Bütün bunlar dövlətimizin dinimizə və mənəvi dəyərlərimizə olan həssas münasibətinin göstəricisidir.

Dünyanı təhdid edən COVİD-19 bəlası ilə mübarizədə dövlət və din xadimlərinin bir araya gələrək qüvvələrini səfərbər etmələrində fayda olduğunu xatırladan Mübariz Qurbanlı pandemiya səbəbilə məscid və ziyarətgahların müvəqqəti bağlı olduğu dövrdə din xadimlərinin fəaliyyətindən razılığını bildirib. Komitə sədri vurğuladı ki, din xadimlərinin insanlara mənəvi dəstəyi, müqəddəs dinimizin aşıladığı yüksək dəyərləri videomoizələrində, onlayn xütbələrində təlqin etmələri, mürəkkəb şəraitdə dini vacibatları yerinə yetirmələri cəmiyyət tərəfindən minnətdarlıqla qarşılanır.

Dövlət Komitəsinin sədri pandemiyanın tezliklə bitməsini arzuladı və videoiclas iştirakçılarını səbrli olmağa dəvət edərək əmin etdi ki, bu dövr bitəcək və biz sizlərlə dini məkanlarda bir araya gələcəyik. QMİ-də pandemiyanın başlanğıc dövründə keçirilmiş toplantıda bütün zəruri tövsiyələrin açıqlandığını bildirən M.Qurbanlı bunun öz müsbət nəticəsini verdiyini diqqətə çatdırdı və bu dəfəki iclasda QMİ Qazılar Şurasının və səlahiyyətli nümayəndələrinin dindarlara Məhərrəmliklə bağlı müraciətini də müsbət dəyərləndirdi. Azərbaycan dövlətinin vətəndaşların sağlamlığının qorunması məqsədilə atdığı addımları şərh edərək yüksək qiymətləndirən M. Qurbanlı din xadimlərinin bu işə dəstəyini vacib saydı, moizə və çıxışlarında bu məqamların vurğulanmasının böyük önəm kəsb etdiyini xüsusi vurğuladı.

Komitə sədri Azərbaycanın unikal dinlərarası və məzhəblərarası tolerantlıq məkanı olduğunu və dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu fəxrlə qeyd etdi. O bildirdi ki, QMİ və Dini Komitə mərkəzdə və yerlərdə eyni məramla xidmət edirlər və bizim üçün müstəqil dövlətçilik mənafeləri, milli maraq və mənəvi dəyərlərimiz vacibdir və bu istiqamətdə hər zaman birgə fəaliyyət və faydalı əməkdaşlıq əzmindəyik. M. Qurbanlı Dövlət komitəsinin TV-lərdə din xadimlərinin insanların mənəvi ehtiyac duyduğu çıxışlarına imkan və mütəmadi qaydada şərait yaradılması məsələsini diqqətdə saxladıqlarını bildirdi.

QMİ sədri Şeyxülislam A.Paşazadənin moderatorluğu ilə davam edən videoiclasda Naxçıvan Muxtar Respublikası üzrə qazı Sahib Məmmədov, Sumqayıt şəhəri üzrə qazı Rauf Sərdarov, Gəncə bölgəsi üzrə səlahiyyətli nümayəndə Tahir Abbasov, Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndə Şahin Həsənli, Cənub bölgəsi üzrə qazı Qəni Axundzadə, Quba bölgəsi üzrə qazı Naib Səttarov, Yeni Günəşli Fatimeyi-Zəhra məscidinin imamı İlqar Abdullayev, Xəzər rayonu üzrə qazı Soltan Əlizadə, İçərişəhər üzrə səlahiyyətli nümayəndə Surxay Məmmədov, Bərdə üzrə qazı Ramazan Hüseynov, Masallı Cümə məscidinin imamı Məftun Hüseynov, İmişli rayonu üzrə səlahiyyətli nümayəndə Adıgözəl Bəşirov çıxış etdilər.

Çıxışlarda din xadimləri öz fəaliyyətlərini QMİ-nin tövsiyə və tapşırıqlarına uyğun olaraq həyata keçirdiklərini və dövlətimizin pandemiyanın qarşısının alınmasına yönəlik addımlarını dəstəklədiklərini bildirdilər. Prosesdə rastlaşdıqları çətinlikləri sadalayan, bununla belə yerlərdə səlahiyyətləri çərçivəsində dini-mənəvi borclarını yüksək səviyyədə yerinə yetirdiklərini diqqətə çatdırdılar. Din xadimləri Uca Allahın köməyi və dövlətimizin gördüyü tədbirlər sayəsində tezliklə virus təhlükəsinin sovuşacağına ümidvar olduqlarını bildirdilər. Öz təkliflərini səsləndirən din xadimləri Məhərrəm ayının həssas məqamlarına xüsusi önəm verilməsinin, milli və mənəvi dəyərlərin üz-üzə qoyulmasına yol aça biləcək məsələlərin diqqətdə saxlanılmasına diqqəti çəkdilər. Xüsusi vurğuladılar ki, son illər Məhərrəmlik dönəmində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi ən münasib əzadarlıq nümunəsidir. Bildirildi ki, bu il də humanist ənənənin davam etdirilməsi, ölkəmizin Mərkəzi Qan bankının paytaxtda və bölgələrdəki filiallarında ehsan niyyəti ilə qan verilməsi təlqin olunacaqdır.

Videoiclasın sonunda şəhidlərin ruhları üçün Quran oxundu, QMİ sədrinin birinci müavini Müfti Salman Musayev dualar etdi.

# Məhərrəmliklə bağlı xalqa müraciət

***Qafqaz Müsəlmanları İdarəsi (QMİ) məhərrəm ayının başlaması ilə əlaqədar ictimaiyyətə müraciət edib.***

"Unikal" həmin müraciəti təqdim edir. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri nəzərinizə çatdırır ki, Hicri-qəməri təqvimi ilə 1441-ci il başa çatır, yeni 1442-ci ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə 2020-cü il avqust ayının 21-nə təsadüf edir.

Məhərrəm ayı Hicri-qəməri ilinin ayları arasında müqəddəs aylardan biridir. Bu ay Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibələrin qadağan olunduğu aylardan biri olmasına baxmayaraq, Aşura günü İmam Hüseyn əleyhissəlam tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi Əhli-Beyt (ə) tarixinə kədərli, lakin, eyni zamanda, inanclı insanlara qürur bəxş edən bir məqam kimi daxil olmuşdur. Kərbəla faciəsinin nəsillərin yaddaşında yaşaması, İmam Hüseyn əleyhissəlamın həyat və mübarizəsinin yad edilməsi olduqca böyük mənəvi-əxlaqi əhəmiyyət kəsb edir. İmam Hüseyn əleyhissəlamın əzadarlığı iman sevgisinin, əqidəyə sadiqliyin, Vətən uğrunda şəhadətə hazırlıq ruhunun təcəssümüdür.

Möhtərəm qardaş və bacılarımız! Məhərrəm ayının 10-u - Aşura günü 2020-ci il avqust ayının 30-na təsadüf edir. Bu münasibətlə bütün dindarlarımıza dərin hüznlə başsağlığı verir, Allah-Təaladan səbr, məğfirət diləyirik.

Bu il Aşura dünyada davam edən koronovirus pandemiyası dövrünə təsadüf edir. Aylardır ki koronovirus pandemiyası bütün dünyanı cənginə alıb, yüz minlərlə insan bu qorxunc bəla üzündən həyatını itirib, milyonlarla insan xəstəxanalarda ölümlə həyat arasında mübarizə aparmaqdadır. İnsan sağlamlığına ciddi təhlükə, ölümcül təhdid olan, hələ də səngiməyən bu bəlanın aradan qaldırılması yönündə dünya birliyi böyük səylə çalışır. Şükürlər olsun ki, dövlətimiz tərəfindən xəstəliyin aradan qaldırılması üçün bütün lazımı tədbirlər görülür, insanlarımız diqqət və qayğı ilə əhatə olunublar. Ölkə rəhbərliyinin qayğı və diqqətini öz üzərində hiss edən insanlarımız hökumətin verdiyi zəruri qərarlara hörmət, məsuliyyət və anlayışla yanaşırlar. Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev cənablarının, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və diqqəti sayəsində vətəndaşlarımızın sağlamlığı üçün önləyici tədbirlər görülür, həm Bakıda, həm də ayrı-ayrı bölgələrimizdə modul tipli xəstəxanalar istifadəyə verilir. Xəstəliklə mübarizədə yerli həkimlər fədakarlıq nümayiş etdirirlər, əcnəbi həkimlər də prosesə cəlb olunur, Nazirlər Kabineti yanında Operativ Qərargah xəstəliyin miqyasının genişlənməməsi, əhalinin sağlamlığının qorunması məqsədi ilə lazımı tədbirlər həyata keçirir, müvafiq tövsiyələrini verir.




Dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) ölkəmizdə karantin gündəmə gələn ilk günlərdən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah ilə ətraflı məsləhətləşmələrindən sonra zəruri tövsiyələr nəzərə alınaraq, koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahlarda ibadətlərin müvəqqəti dayandırılmasına dair qərar verilmişdir. Uca Allahın yaratdığı ən müqəddəs dəyər olan insan həyatının qorunması məqsədi ilə bu məcburi addımın atılmasında əsas məqsəd vətəndaşlarımızın həyat və sağlamlığının qorunmasıdır.

Pandemiya dövrünün məcburi təcrid tədbirləri virus təhlükəsinin qapalı və açıq məkanlarda insanların sıx toplaşdığı şəraitdə artması ilə əlaqədardır. Dünyanın bütün nöqtələrində bu və ya digər şəkildə təcridolunma həyata keçirildiyi, İslamın vacib şərtlərindən biri olan müqəddəs Həcc ziyarətinin, habelə digər dinlərin müqəddəs ayinlərinin müvəqqəti dayandırılması artıq dövrümüzün gerçəkliyidir. Aşura kimi, ənənəvi olaraq, böyük kütləviliyi ilə seçilən, sosial məsafəyə əməl olunmasının təmini qeyri-mümkün olan mərasim insanların virusa yoluxma sayının artma ehtimalı baxımından böyük təhlükə yarada bilər. Bu gerçəkliyi nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri bəyan edir ki, Operativ Qərargahın qərarına əsasən bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda təziyə mərasimləri keçirilməyəcəkdir. QMİ-nin yerlərdəki qazı, səlahiyyətli nümayəndə və imamları bu tövsiyələri dindarlara çatdırmalıdırlar.



İnsan sağlamlığının qorunması Uca Allahın istəyidir və bununla bağlı hər birimizin üzərinə həm özümüz, həm də yaxınlarımızın sağlamlığı ilə bağlı böyük məsuliyyət və dövlətimizin bu istiqamətdə tədbirlərinin səmərəliliyinin təmini baxımından ictimai vəzifə düşür. QMİ Qazılar Şurası və səlahiyyətli nümayəndələri bildirir ki, Uca Allahın buyurduqlarına, müqəddəs hədislərə istinadən özünün, yaxınlarının və ətrafındakıların həyat və sağlamlığını təhlükəyə atmamaq hər bir dindarın borcudur. İmanlı insan təkcə öz canının deyil, başqalarının da canının qorunmasından məsul, mükəlləfdir. Dinimiz müxtəlif xəstəliklərə qarşı önləyici tədbirlərin alınmasına, xüsusilə yoluxucu xəstəliklərə qarşı son dərəcə diqqətli olmağa çağırır. Hər bir insan belə bir təhlükədən özünü gözləməlidir. Bir yerdə yoluxucu xəstəlik olduğunu biləbilə oraya getmək insanın özünü təhlükəyə atması deməkdir. Deməli, belə bir xəstəlik ehtimalı olan yerlərdən uzaq durmaq lazımdır. Yoluxucu xəstəlik olan vəba haqqında Hz. Peyğəmbər (s) belə buyurmuşdur: "Vəbanın ortaya çıxdığını eşitdiyiniz bir yerə getməyin. Əgər olduğunuz yerdə vəba görülərsə, siz də oradan kənara çıxmayın". Yoluxucu xəstəliklərin geniş yayıldığı şəraitdə yaşayan insanlar bu mövzuda ayıq olmalı, heç bir vəchlə öz həyatını təhlükəyə atmamalıdır. Çünki, həm gündəlik həyatımızdan, həm də tarixdən məlum olduğu kimi yoluxucu xəstəliklər məhz insanların etinasızlığı ucbatından sürətlə yayılmış və bəşəriyyətin bəlasına çevrilmişdir. Heç bir müsəlmanın özünü təhlükəyə atmağa ixtiyarı yoxdur. Çünki bizi yaradan Allah bu canı bizə əmanət olaraq vermişdir və əmanəti sahibinə qaytarana qədər onu qorumaq hər birimizin borcudur. Elə isə bu əmanəti qoruyaq və özümüzü təhlükəyə məruz qoymayaq. Qurani-Kərimdə buyurulduğu kimi: "Öz əlinizlə özünüzü təhlükəyə atmayın" (Bəqərə, 195).

Dövlətimiz tərəfindən görülən zəruri tədbirlərə böyük önəm və dəyər verən biz, din xadimləri hər zaman olduğu kimi, dövlətimizin yanındayıq və onun xalqımızın rifah və tərəqqisi naminə səylərini dəstəkləyir, fəaliyyətinə rəvac diləyirik. Öz növbəmizdə, pandemiyaya dair hökumətimiz tərəfindən müəyyən edilmiş bütün zəruri qaydalara əməl etməli, verilmiş tövsiyələri hər kəsə təlqin etməli, xəstəlik təhlükəsinin qarşısının alınması, tezliklə sovuşması üçün əlimizdən gələni əsirgəməməliyik. Ümidvarıq və dualar edirik ki, Allahın izni ilə bu çətin günlər keçəcək, xalqımız yenidən məscidlərdə ibadət etmək, dini ayin və mərasimlərini kütləvi şəkildə yerinə yetirmək lütfünə qovuşacaqdır, inşallah!

Vətənimiz və millətimizin rifahı üçün Allaha dualar etmək hər zaman hər birimizin mənəvi borcudur. Məhərrəmlik dönəmində də bütün ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı Qarabağ, Xocalı şəhidlərinin, suverenliyimiz, ərazi bütövlüyümüz uğrunda canlarından keçən bütün Vətən övladlarının əziz xatirəsini yad edir, Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan tezliklə azad olunmasını diləyirik. Vətəni sevmək imandandır. Allah doğma torpağımız uğrunda canlarını fəda etmiş, Peyğəmbər Məhəmməd Salavatullahın mübarək hədisində buyurulduğu kimi, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamına yüksəlmiş bütün Vətən övladlarına rəhmət eləsin! Allah tezliklə Qarabağımızın işğaldan azad olmasını, Vətən torpağının bütövlüyünün bərpasını bizlərə nəsib etsin, inşallah!

Məhərrəmlik dövründə təziyə ehsanı olaraq imkansız ailələrə, maddi sıxıntı çəkən insanlara ərzaq və ya hər hansı sovqatın çatdırılması Allaha xoş gedən bəyənilən əməldir. Həmçinin, son illər Məhərrəmlik dönəmində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi ən münasib əzadarlıq nümunəsidir. Ümidvarıq ki, inşallah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək, pandemiya səbəbindən məscidlərdə deyil, ölkəmizin Qan bankının paytaxtda və bölgələrdəki filiallarında ehsan niyyəti ilə qan verəcəklər. Həmin məkanların ünvanları Qafqaz Müsəlmanları İdarəsinin rəsmi veb səhifəsində (www.qafqazislam.com) yerləşdirilmişdir.

Uca Allah xalqımızı, dövlətimizi hifz etsin və möhtərəm dövlət rəhbərimizin Azərbaycan naminə fəaliyyətinə rəvac versin! Amin!

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!

# Əsgərlərini xilas edən komandir - Şakir Bayramovun SON DÖYÜŞÜ

***1988-ci ildən başlayan Qarabağ müharibəsi Azərbaycana yüzlərlə qəhrəman tanıdıb. Torpaq, Vətən uğrunda canını fəda etmiş bu qəhrəmanlar haqqında danışılanlara qulaq asdıqca, həm fəxr edirsən, həm də yanıb-yaxılırsan...***

Qürurlanırsan ki, Azərbaycan Ordusunda belə cəsur döyüşçülər varmış... Təəssüflənirsən ki, axı niyə bu cür qəhrəman oğlanları tez itirdik?..

Onlar hələ ölməməli, Qarabağın işğaldan azad edildiyi günü görməli, buna şahid olmalıydılar... Təəssüf, min kərə təəssüf... Belə oğullar Vətənə, xalqa indi çox gərəkdir...

Modern.az saytında şəhidlərimizlə bağlı olan "Sonuncu zəng" rubrikasına davam edirik. Rubrikamızda vətən uğrunda canlarından keçib şəhidlik zirvəsinə ucalan oğul və qızlarımızın ailəsi və yaxınlarıyla sonuncu zəngi, telefon danışığı ya da son görüşü haqqında danışılır.

Rubrikanın növbəti təqdimatı Birinci Qarabağ Müharibəsinin cəsur komandirlərindən olmuş və bu günə kimi haqqında yazılmamış Şakir Balakişi oğlu Bayramov haqqındadır.

Məlumdur ki, Birinci Qarabağ Müharibəsi zamanı mobil telefon yox idi. Həmin dövrdə döyüşçülər bəzən ailələri ilə məktub vasitəsi ilə əlaqə saxlayıb, ya da aradabir qısa müddətə evə getmək ucazəsi alanda yaxınlarının əhatəsində olublar. Məhz buna görə də Şakir Bayramovun son günü barəsində ailəsinin, döyüş yoldaşlarının onunla bağlı xatirələrindən bəhs edəcəyik.

İndi onun ad-soyadı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin "İtkin düşmüşlər" siyahısında qısaca olaraq belə qeyd edilib:

"Bayramov Şakir Balakişi oğlu
Doğum tarixi: 1965.05.20
İtkin düşmə tarixi: 1993.08.17
Doğulduğu yer: Cəbrayıl;
İtkin düşdüyü yer: Cəbrayıl".

Şakir Bayramov haqqında internetdə olan bu qısa məlumat onu tanımayanlara heç nə demir. Halbuki, o, barəsində bəlkə də dastan yazılası cəsur döyüşçü, qorxubilməz komandir, vətənpərvər insan olub. Onu tanıyanlar belə bir döyüşçü itkisinin miqyasını sözlə ifadə etməyə çətinlik çəkirlər...

O, bütün döyüşlərdə əsgərlərilə ön səngərdə - bir cərgədə dayanan komandir olub... Lap elə bu günlərdə həmının haqqında danışmaqdan yorulmadığı şəhid general-mayor Polad Həşimov kimi...

Bəli, Birinci Qarabağ Müharibəsi zamanı da belə komandirlərimiz olub, döyüşə həmişə əsgərlərinin önündə atılan Şakir Bayramov kimi...

O, əsgərlərinin həyatını xilas edib, öz canını qurban verən əzəmətli bir qəhrəman idi... Biz Şakir Bayramovun simasında əsl komandir itirmişik...

Şakir Balakişi oğlu Bayramov 20 may 1965-ci il tarixində Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra keçmiş Sovet Ordusunda hərbi xidmət keçib.

1989-cu ildə ailə həyatı qurub. Üç uşaq atası idi.

Qarabağın digər bölgələri kimi Cəbrayılın da təlatümlü günləri başlayanda Şakir Bayramov könüllü olaraq silaha sarılan döyüşçülərin sırasına qoşulmuşdu. Məqsəd bir idi - doğma torpaqları göz bəbəyi kimi qorumaq, işğal haqda düşünən ermənilərin məkrli niyyətinin qarşısını almaq...

O müharibənin od-alovuna atılanda öncə yaşlı anasını, gənc həyat yoldaşını, körpə uşaqlarını - iki qızı və bir oğlunu deyil, Vətəni düşündü... Anası və həyat yoldaşı Şakiri bu yoldan döndərmək istəsəydi belə, bu, mümkün olmayacaqdı... O, doğulub boya-başa çatdığı rayonun ağır günündə kənarda dayanmağı qeyrətinə sığışdıra bilməzdi... Bilmədi də...

Şakir Bayramov Cəbrayılın qeyrətli oğulları ilə birgə kürək-kürəyə verib Süleymanlı, Qışlaq, Sur, Daşbaşı, Sirik, Dolanlar, Qazanzəmi postlarında düşmənin qarşısını kəsmişdi.

Dəfələrlə çətin döyüşlərdən üzüağ, alnıaçıq çıxdı. Bir sıra hərbi əməliyyatlarda qəhrəmanlıq göstərdi, döyüşçü yoldaşlarını xilas etdi, düşmənin canlı qüvvəsinin məhv edilməsində yaxından iştirak etdi... Hərbi hissə rəhbərliyi döyüşlərdə fəal iştirakını, göstərdiyi şücaətləri nəzərə alıb Şakiri Minaatanlar taburunun komandiri təyin etdi... Bu təyinatda yanılmamışdılar... Şakir Bayramovun komandiri olduğu Minaatanlar taburu ermənilərin başına od ələyirdi... Düşmən cəsur komandirin başına mükafat təyin etmişdi...





Sonuncu dəfə 1993-cü il avqustun 15-də evə gələn komandir bir neçə saatı ailəsi ilə birgə keçirdi, azyaşlı uşaqları ilə oynadı, bir tikə çörək yeyib elə gecəykən hərbi hissəyə qayıtdı...

Səhəri gün ermənilər Cəbrayıl üzərinə genişmiqyaslı hücum etdilər...

Həmin gün Süleymanlı kəndi istiqamətində onun komandiri olduğu bölüyün əsgərləri düşmənlə qeyri - bərabər döyüşə atılmışdı. Bu ölüm-dirim döyüşü Şakirin son döyüşü oldu. Komandir bu döyüşdə son gülləsinədək döyüşdü, əsgərlərini xilas etdi. Düşmənlə qeyri-bərabər döyüşdə heç kimin sağ çıxmayacağını görəndə əsgərlərinə yerlərini dəyişmək - bir qədər geriyə çəkilmək barədə əmr verdi... Onları mühasirədən çıxardı, amma özü azğınlaşmış erməni dəstəsinin qarşısını təkbaşına almaq üçün sinəsini sipər etdi...

O, əsl komandirlər kimi alnından vuruldu... Uzaqdan bu dəhşətli mənzərəni görən əsgərləri onun vurulub yıxıldığı yerə yaxınlaşa bilmədilər...

Komandirin həyat yoldaşı Nəsibə Əhmədova onunla son görüşü belə xatırlayır: "1993-cü ilin avqustun 15- idi. Sonuncu dəfə icazə alıb bir günlüyə evə gəlmişdi. Dedi ki, uşaqları da götürək - onda övladlarımız azyaşlı idilər - gedək şəkil çəkdirək. O zaman təbii ki, heç bir ailədə - heç kimdə fotoaparat yox idi, kəndimizdə bir ya iki fotostudiya fəaliyyət göstərirdi. Mən əvvəlcə istəmədim. Dedim növbəti dəfə gələndə gedib çəkdirərik. Təkid etdi ki yox, gərək indi gedək, yoxsa sonra peşman olacaqsan... Sanki sonuncu görüşümüzün olduğu ürəyinə dammışdı.

Onun istəyilə uşaqların 3-nü də götürüb getdik dəmiryolu stansiyasındakı fotostudiyaya - şəkil çəkdirdik... Amma Şakir o şəkli görmədi... Elə gəldiyi kimi də tələsik çıxıb getdi...

... Həmin şəkli biz torpaqlarımızdan didərgin düşəndən az sonra kimsə gətirib bizə təqdim etdi... Dərd-sərimiz, ağrı-acılarımız o şəkli tamam yadımızdan çıxarmışdı...

Sonralar onun guya, əsirlikdə olduğunu deyənlər oldu...

Hərdən Allaha yalvarıram ki, əgər sağdırsa, yolu açılsın... Sonra da fikirləşirəm ki, belə şey mümkün deyil, düşmən onu sağ qoya bilməzdi...

Təskinliyim təkcə bu ola bilər ki, kaş məzar yeri olaydı, gedib ziyarət edərdik...".

Döyüşçü yoldaşı Süleyman Ağayev: "Mən baş leytenant Şakir Bayramovun Minaatanlar taburunda döyüşürdüm. O, çox vətənpərvər insan idi. Torpağına, Vətəninə, xalqına, əsgərlərinə bağlı hərbçi kimi heç vaxt istəməzdi ki, taburunda bircə nəfərin burnu qanasın.

O, həmişə əsgərlərini qorumaq üçün öndə gedirdi. Ən acığı gələn şey də bu idi ki, kimsə ondan qabağa keçsin... Deyirdi ki, məndən öndə heç kim gedə bilməz. Bizim təkidlərimizə baxmayaraq, arxaya keçməzdi, qabaqda gedərdi... Əsgərlərilə komandir kimi deyil, böyük qardaş kimi davranırdı...

...Onunla birlikdə çox döyüşlərdə olmuşuq. "Şişqaya" əməliyyatında, "Tuğ", "Göy gədik" deyilən yerlərdə ən qızğın döyüşlərə atılmışıq. Xocavənd rayonunun Tuğ kəndini işğaldan azad etmişdik. Xocavəndin 9 kəndi ilə birlikdə həmin yaşayış məntəqəsi də bizim nəzarətimizdə idi...

...Bir dəfə döyüşdə xeyli düşmən əsgəri məhv etmişdik, biri sağ qalmışdı. Həmin erməni səngərdən çıxıb qayalıqlarda gizləndi. Komandir əmr verdi ki, onu diri tutmalıyıq. Şakir bəy düşmənin əlində olan girovları geri qaytarmaq üçün həmin ermənini diri istəyirdi. Amma düşmən hərbçini sağ ələ keçirə bilmədik, bizimlə atışmağa başladığı üçün vurub öldürməli olduq...

...Mən ondan yaşca kiçik idim. Eyni kənddə böyümüşdük. Xaraktercə mülayim, özünə hörmət qazanmağı bacaran adam idi. Böyüklə böyük, kiçiklə kiçik kimi davranırdı...

...Kənddə hamı ona "Bəy" deyirdi. Bu ləqəbi səngərə də daşımışdı, taburda da komandiri "Bəy" deyə çağırırdıq. Kiçikdən böyüyə hər kəs həm onu sevir, həm də hörmət edirdi. Kiminsə yanından görüşmədən keçməzdi. Ailəsinə, övladlarına da çox bağlı idi...

... Sonuncu dəfə 1993-cü il avqustun 16-da bilrikdə döyüşdə olduq. Süleymanlı və Qışlaq kəndlərinin arasında mövqe tutmuşduq. Qeyri-bərabər döyüş idi. Cəbrayılın üzərinə hücuma keçən ermənilər sayca bizdən xeyli çox idi...

Ermənilər tərəfdən 100 nəfərə yaxın döyüşçü var idi. Biz isə həmin mövqedə cəmi 5 nəfər idik. Son patronumuza qədər döyüşdük. Düşmən bizi mühasirəyə alıb məhv etməyə çalışırdı.

Komandir bizə əmr etdi ki, birbirinizdən aralı durmaqla manevr edib mövqeyimizi dəyişək. Onun əmri ilə ərazidən çıxa bildik.

Təəssüf ki, özünü başından vurdular, yıxıldı.. Biz onu döyüş ərazisindən çıxara bilmədik.

...Mən onun yıxıldığını, öldüyünü gözlərimlə gördüm. Sonralar söz-söhbət gəzdi ki, Şakir bəy yaralı halda əsir düşüb.

Komandirin həmin son döyüşündə onun qaynı Mehman Əhmədov da bizimlə birlikdə idi. O da Şakir bəyin necə vurulduğunu gördü...

Sağ qalması, əsir düşməsi çox çətin məsələ idi. Çünki başından qan qarışıq ağ köpük axdığını hamımız gördük. O qədər mərd insan idi ki, bəlkə də ermənilər ona yaxın gəlməsin deyə, özünü partladardı. Mən sonralar həkimlərdən soruşdum ki, o cür yaralanmış adam sağ qala bilərmi? Bəziləri dedi ki, 6-7 saat o vəziyyətdə qala bilərdi. Digərləri bunu inkar etdi...

Biz də çox arzuladıq ki, təki sağ qalsın. Amma inana bilmirəm...

... Şakir bəy şəhid olmazdan 3-4 ay əvvəl oğlu Elçin doğulmuşdu. Çox sevinirdi... Həmişə deyirdi ki, "mənim Elçinim dünyaya gəlib. Şəhid olsam, gözüm arxada qalmayacaq".

Onun sözləri indi də qulağımdadır - "Mənim Elçinim var",- deyirdi.

Sanki özü də şəhid olacağını hiss etmişdi. Tabeçiliyində olan əsgərləri, zabitləri çox qoruyurdu. Hamımızdan yaşca böyük idi və taburda yeganə evli olan şəxs Şakir bəy idi, 3 uşaq atası idi. Ona görə bizə deyirdi: "Mənim evimi-ailəmi əmanət edə biləcəyim oğlum var, siz özünüzü qoruyun, sağ qalın".

Belə bir insan haqqında təəssüflə danışmaq çox ağırdı...".

Oğlu Elçin Bayramov: "Atam sön döyüşdə vurulanda mənin heç 1 yaşım yox idi, onu yaxşı xatırlaya bilmirəm... Haqqında keçmiş döyüşçü dostları həmişə böyük hörmət və ehtiramla danışırlar... Onların atam haqqında söylədikləri, qəhrəmanlığı barədə dediklərindən hər zaman qürürlanıram ki, gör mən necə bir kişinin oğluyam...

Yadımdadır ki, nənəm ölən günə qədər onun bir gün qayıdıb gələcəyinə inanırdı. Çünki atamın məzarı yox idi, nənəm deyirdi ki, "Şakirin sağ qaldığına inanıram".

Nənəm namaz qılırdı, həmişə təsbehi çevirib salavat gətirir, deyirdi ki, "hə, bu dəfə çox yaxşı gəldi, Şakir mütləq qayıdacaq...". Nənəm elə o ümidlə də bu dünyadan köçüb getdi...

2004-cu ildə əsirlikdən azad olunmus bir nəfər atamın sağ olduğunu, guya, Şuşa türməsində saxlanıldığını söyləmişdi... Əmimgil onda çox araşdırma apardılar... 27 il keçməsinə baxmayaraq hələ də ümidini itirməyənlər var... Bəzən adam çox darıxır...".

Şakir Bayramov vurulandan bir həftə sonra - 23 avqustda Cəbrayıl işğal olundu... Aradan 27 il ötür. Torpağı işğal olunan cəbrayıllılar 27 ildir xatirələrin əsiridir. Bu xatirələrdə nələr yoxdur: müqəddəs Hacı Qaraman ocağı, Xudafərin körpüləri, Diridağ, Qız qalası, Gəyən düzü, başı dumanlı Ziyarət, Qartal abidəsi, Dəyirman dərəsi, Mazan nənə piri, Tey dağı, Çoban bulağı, Divlər sarayı, Xan Çinar, Cəbrayıl kəhrizi, Söyüdlü bulağı, Mərcanlı stansiyası, dədə-babaların qəbir yerləri, od vurulan evlərin ərşə dirənən tüstüsü, tar-mar olunan əmlak, şəhid və itkin yaxınlarının ah-naləsi, arvadların qarğışı, kişilərin çarəsizliyi,.. bizi qisasa çağıran nigaran ruhlar...

Şakir Bayramovun keçmiş döyüş yoldaşları, həmkəndliləri qisas ümidilə yaşayır, o günü gözləyirlər...

***Əfqan Qafarlı***

# Hamilə aktrisanın əri öldü, dəhşətli qəzanın qarşısı alındı, "Nərgiz xala" niyə qəzəbləndi? – Bizim filmlər

***1962-ci ildə böyük Adil İsgəndərov İncəsənət İnstitutunda imtahan götürürdü, öz kursu üçün tələbə qəbul edirdi. Söhbət gəzirdi ki, Adil İsgəndərov komediya filmi çəkəcək, o film üçün aktyor yığır əslində. Söz ki var, bir ucu yalandırsa, o biri ucu doğrudur.***

1963-cü ilin filmidir. Sabit Rəhmanın ssenarisi əsasında Adil İsgəndərov ekranlaşdırıb. Həm də kinoda rejissor kimi Adil İsgəndərovun ilk işidir.

1944-cü ildə "Fətəli xan" filmini çəkməyə başlamışdı, amma hansısa səbəblərdən yarımçıq qalmışdı. Nəticədə həmin filmi 1947-ci ildə hansısa Yefim Dziqan çəkmişdi. Təsəvvür edin də, Fətəli xan və Yefim Dziqang Nə isə, mətləb "Əhməd haradaır?" filmidir. Lent.az "Bizim filmlər" layihəsində "Əhməd haradadır?" komediyasından danışır.

Adil İsgəndərovun birinci kursu bütünlüklə filmə dəvət olunub. Amaliya Pənahova, Əbdül Mahmudov, Novruz Axundov, Fikrət Əliyev, Elxan Qasımov, Ramiz Muradov və sair.

Film çox pozitiv başlayır, kənd həyatı, kənd mənzərələri. Filmlər var ki, adam baxanda orda, hadisələrin və ordakı həyatın içində olmaq istəyir. "Əhməd haradadır?" filmi də onlardandır.

Film Hacıkənddə, Ağdaşda, Göygöldə çəkilib. Nar yığımı səhnəsi Ağdaşda, Sürücü Əhmədin maşınını Nərgiz xalanın qaçırdığı səhnə Hacıkənd yolunda lentə alınıb. Bu səhnə barədə hələ söhbətimiz olacaq.

Elə ilk kadrlardan düşürsən o aləmə və axınla gedirsən. Əhməd (Səyavuş Şəfiyev) Bakıdan gəlir dostları ilə eyni maşınla. Kəndlərinə çatanda körpünün üstündə onların yolunu mal-qara kəsir. Əhməd öz kəndlərinin mal-qarasını yoldan uzaqlaşdırmaq üçün əlinə böyük bir dəyənəyi alıb, düşür malların üstünə. Leyla kənardan bunu görür, gəlib Əhmədin əlindən dəyənəyi alıb, acıqla "vurma" - deyir, sonra da ağacı ona qaytarıb, heyvanlara da nəzakətlə yanaşıb onları aparır. Kənd qızının Bakıda təhsil alan gəncə "həyat dərsi".

Sonra Əhməd anası ilə görüşür, birlikdə bacısının üzüm yığdığı sahəyə gəlirlər. Ceyran (Nona Paçuaşvili) üzümü elə yığır ki, elə bil səhnədə konsert verir.

Bayaq dediyim pozitivliyə qayıdıram, film kimi öz-özlüyündə xoş əhval-ruhiyyə yaradır, insanı əməyə, kollektivçiliyə səsləyir. Təbii, sovet filmidir, ideologiyaya işləyir. İş ondadır ki, həmin sovet quruluşunun özü kimi reallıqdan uzaqdır. Üzüm yığmaq, mal otarmaq, ev tikmək heç də kinoda göründüyü kimi musiqili, romantik işlər deyil, əksinə, çox ağır zəhmət və güc, iradə tələb edən işlərdir.

İlk kadrlardan birində Əhmədin atası Şirin kişi (Məmmədrza Şeyxzamanov) internat məktəbinin açılışında çıxış edir: "Bu internat məktəbinə xoş gəlmisiniz. Bu yaxınlarda təzə hamam da tikəcəyik, çarhovuzu da olacaq".

Əslində, bu günün kinosunun sovet kinosundan öyrənməli çox mətləbləri var. İlk növbədə ideologiyaya işləmək, maarifləndirmək, kökündən-təməlindən bəhrələnib, onu möhkəm qoyub, sonra göydələnlərə qalxmaq baxımından.

Bura qədər onu deyim ki, Əhməd roluna namizəd çox axtarılmayıb. Səyavuş Şəfiyev sirk artisti idi və elə ilk sınaqdan Adil İsgəndərov onun üzərində dayandı.

Dostları "uzundraz Oqtay"la, "saqqal Ramiz"in axtarışları üçünsə yaradıcı heyət üz tutub İncəsənət İnstitutuna. Demək olar ki, sözügedən bir kursun bütün tələbələri Oqtayla Ramiz roluna sınaq çəkilişlərində olublar. Nəhayət, Səyavuş Aslanla Novruz Axundov seçilirlər.

Səyavuş Aslanı hamı tanıyır. Novruz Axundov İncəsənət İnstitutunda oxuya-oxuya məktəbdə müəllim işləyirmiş. Onun bu rola çəkilməsinin səbəbkarı filmin Moskvadan gəlmiş operatoru Yuli Fogelman olub. Təkidlə uzundraz Oqtay obrazına onun çəkilməsini istəyib. Bu üçlük filmdə çox maraqlı alınıb. Bəzən ssenaridə olmayan improvizələri də komediya janrına xidmət edib.

Məsələn, pilləkənlərin üstündə üçünün özlərini Leylaya təqdim etməsi bədahətən alınıb. Adil İsgəndərovun kursu çəkilməyə çəkilirdi, amma kimin hansı rola çəkilməyinin söhbəti gedirdi. Daha demirdilər ki, Adil İsgəndərov onları qəbul edəndə artıq hansını hansı rola gözaltı edibsə, onu da çəkəcək. Yəqin, rejissor operatorun da baxışlarını nəzərə aldığı üçün sınaq çəkilişlərinə mane olmayıb.

Leyla ilə Ceyran obrazlarına aktrisa axtarışı çox uzun çəkib.

Leylaya sınaq çəkilişləri saysız-hesabsız olub, nəhayət, bir nəfəri seçiblər, ad-soyadını öyrənəndə biliblər ki, ermənidir, Adil İsgəndərov onu çəkməyə etiraz edib.

Adil İsgəndərov milli filmlərimizdə başqa millətlərin baş rollara, xüsusən ermənilərin çəkilməsinə imkan verməzmiş. Özü kinostudiyaya rəhbərlik edəndə bunu başqa rejissorlardan da tələb edib. Bu filmdə də bir gürcü aktrisa, bir də filmin operatoru başqa millətdəndir.



Leyla roluna isə "Qızmar günəş altında" filminə çəkilmiş fortepiano müəlliməsi Töhfə Əzimovanın namizədliyi veriləndə məlum olub ki, onun həyat yoldaşı Kinostudiyada rəssamdır və artıq ailə qurandan sonra kinoya çəkilmir.

Adil İsgəndərov rəssamı çağırıb xahiş edir ki, xanımını sınaq çəkilişinə gətirsin. Töhfə Əzimova bu rola sınaq çəkilişindən keçəndən sonra rəssam Adil İsgəndərova sadəcə yox deyə bilməyib. Beləcə, milli Leyla tapılandan sonra qalıb milli Ceyran.

Bu yerdə Əhmədin bacısı ilə görüşü səhnəsindən danışmaq istəyirəm.

Əhməd başına üzüm səbətini keçirib bacısına sürpriz eləmək istəyir. Ceyran - qardaşım deyib Əhmədi qucaqlayırg Belə soyuq, lap gürcü qızı kimi.

Azərbaycan qızı çoxdan görmədiyi qardaşını elə qarşılamır. Boynunu qucaqlayıb, bir yarım saat sıxandan sonra üz-gözündən marça-marça öpəcək, çəkilib kənardan boy-buxununa baxıb, bir də təkrar qucaqlayacaq.

Adil İsgəndərov da Bakıda tapa bilmədiyi Ceyranı nədənsə gedib Gürcüstanda axtarmağa. Burda bir müəmma var, onu yəqin ki, yalnız özü bilib. Kənardan aktyor çəkməyən adam özü öz ayağı ilə gedib Tiflisə və tələbə yoldaşı rejissor-pedaqoq Dodo Aleksidzedən Ceyran xəbər alıb.

Qalanını Ceyran rolunun ifaçısının dilindən eşidirik: "Mənim müəllimim Dodo Aleksidze Ceyran rolu üçün aktrisa axtardığını, tələbələrə baxmaq istədiyini dedi. Mən o vaxt ikinci kursda oxuyurdum. Biz bir neçə etüdlər göstərdik. Adil İsgəndərov məni görən kimi "bu qız, Ceyranı tapdım" dedi. Sonra mənim sarı saçlarımı, qaşlarımı qara rəngə boyadılar. Yadımdadır, bu rola çəkilməyi həm istəyirdim, həm də yox. Qəribə bir təzad içindəydim. Amma yenə də sonunda getdim. Bu rola da təsdiqlənməyimə hələ də təəccüblənirəm. Bilmirəm, çilli, kürən, qıvrımsaç gürcü qızı ilə azərbaycanlı Ceyran arasında nə bənzərlik tapılıb. Sanki o boyda Azərbaycanda

Ceyran tapmaq çox müşkül imiş. Kaş ki, heç seçilməsəydim..."

Bu kaş ki, seçilməsəydimg sözündə bir nisgil var aktrisanın. Nona Paçuaşvili gəlir Bakıya film çəkilişlərinə. Yeni ailə qurduğundan yoldaşı Tamaz da az sonra onun arxasınca Bakıya gəlir. Mehmanxanada bir yerdə qalırlar. Tamaz fars dili mütəxəssisi olub. Xüsusi vallarda fars dilindən mətnləri dinləyib öyrənirmiş. Valı qoyub dinlədiyi qurğuda nasazlıq olur, onu düzəltmək istəyəndə Tamazı cərəyan vurur. Nona dərhal təcili yardım çağırır, amma kömək edə bilmirlər, Tamaz dünyadan köçür.

Həmin vaxt Nona dörd aylıq hamilə imiş. Həyat yoldaşının cansız cismini Gürcüstana yola salandan sonra filmin çəkilişlərində çətinliklə iştirak edib, könülsüz. Ona görə də obrazı elə də parlaq alınmayıb, rejissorsa ona mizan verməkdə çətinlik çəkib, necə istəyib, elə də çəkilib. Yoldaşının dəfnindən qayıdandan sonra hamiləliyi bəlli etdiyindən filmin bəzi səhnələri hətta ya təxirə salınıb, ya da kənardan çəkilib. Məsələn, Əhmədlə Ceyranın rəqs və mahnı səhnələri daha çox olmalıymış. Elxan Qasımov həm də rəqqas olduğundan rəqs səhnələrinin "yanmasına" çox təəssüflənir.

Yoldaşının adını oğluna qoyub Nona. Çəkildiyi filmə də uzun illər sonra baxıb, "Əhməd haradaır?" filminin Bakıda keçirilən yubileyində.

Film həm də şofer Əhməd rolunun ifaçısı Elxan Qasımovun kinoda ilk işidir. Hərçənd operator bu rola milliyyətcə yəhudi aktyor İqor Kvaşanı təklif edib, amma Adil İsgəndərov razılaşmayıb. Adil İsgəndərovun kursundan olan Elxan Qasımovu operator çəkmək fikrində olmayıb. Yəhudi operatorun xanımı "Elxan Qasımovun dodaqları çox qalındır, o rola yaramır" - deyib. Operator da bunu rejissora pıçıldayıb. Adil İsgəndərov - "qada, Elxan Qasımovu sənin arvadın üçün seçmirik e, rola seçirik" - deyib.

Aktyor həm də rəqqas olduğundan çevik hərəkətləri filmdə işə yarayıb. Məsələn, bəzi səhnələrdə tryukları özü həyata keçirib. Elə sürücü Əhmədin Ceyrandan razılıq cavabı aldığı yerdən yıxılmasını. Üç metr hündürlükdə tikinti çalasına yıxıldığı səhnəni aktyor özü oynayıb. Ayağında da Mahmud Esenbayev "Mən rəqs edəcəyəm" filminə çəkiləndə onun üçün məxsusi tikilmiş rəqs ayaqqabısı olub. Qıvraqlıq üçün film boyu Elxan Qasımov onun ayaqqabısını geyinib ki, yerişini yeriyə bilsin - yeni hərəkətləri qıvraq olsun.

Elxan Qasımov danışır ki, Gəncədə, Göygöldə çəkilişlər zamanı əhali onlarla çox isti rəftar edirdi: "Evlərinə qonaq çağırmaq üçün növbəyə dururdular. Təsəvvür edin, Məmmədrza Şeyxzamanov, Mustafa Mərdanov, Nəcibə Məlikova, onların da kölgəsində Siyavuş, mən... insanlar bu aktyorları yaxından gördüklərinə çox sevinirdilər. Kino çəkilişi o vaxt hadisə sayılırdı. Hamı o hadisənin iştirakçısına çevrilmək istəyirdi".

Aktyor filmin ən maraqlı və ekstremal kadrından da söhbət açdı: "Göygöl-Hacıkənd yolunda çəkirdik Nərgiz xalanın mənim maşınımı qaçırtdığı yeri. Sürücü kabinənin aşağısında oturmuşdu, yəni Nəcibə xanımın ayaqlarının yanında. Maşın yavaşca hərəkət etməli, mən də arxasınca qaçmalı idim. Kadr deyən kimi maşın başladı arxaya hərəkət etməyə. Mən də tez qaçıb tullanıb kabinənin qapısını açdım, əyləci basıb, maşını saxladım. Sürücü özünü itirmişdi. Ayağımı əyləclə bərabər Nəcibə xanımın ayağına da basmışam, kapron corabı cırılıb. Nəcibə xanım qəzəbləndi, mən də pərt oldum. Adil müəllim dedi ki, Nəcibə xanım, elə olmasaydı, maşın arxaya sürət alıb aşa bilərdi. Sonra aktrisa "yaxşı, gəl çəkilək" - dedi".

Eldəniz Zeynalov da ilk dəfə bu filmlə gəlib kinoya.

Filmin dekorasiyası kinostudiyanın pavilyonunda qurulub. Əliağa Ağayevin çəkildiyi kassa səhnəsi tamamilə kartondan qurulmuş dekorasiyadır. Aktyorun yediyi yemək isə dekorasiya deyil, qoyun içalatının qızartmasıdır. Səhnə çəkilib bitincəyə qədər hamısını özü həzm-rabitədən keçirib.



Başını daz qırxdırıb, özünə uzun bığ qoymaq aktyorun şəxsi təşəbbüsü olub. Əliağa Ağayev kassada işləyən adamı elə təsəvvür edib, rejissor da qəbul edib.

"Odegtaksi, min, getg Get dəg"

Filmdəki ev tikintisində çəkilən səhnələr o vaxt Bakıda Şərifzadə küçəsində aparılıb. Yasamalın tikiləsi bu filmlə tarixə düşüb.

Filmi Moskva senzurası əvvəlcə qəbul edilməyib, deyiblər ki, komediya kimi zəif alınıb. Bu səbəbdən çox az tirajla ekranlara buraxılıb. Tezliklə Türkmənistan, Özbəkistan, Rusiyanın müxtəlif şəhərlərindən Moskvaya bu filmi göndərmək üçün sifarişlər gəlib. Beləliklə, film SSRİ-də ən çox nümayiş olunan filmlərdən biri olub. (Aydın Kazımzadə, "Kinosalnamə" verilişi, 09.11.2013)

Akademik Cəfər Cəfərov yazır ki, filmin dramaturgiyası yarıdan sonra get-gedə zəifləyir. Film daha çox film-konsertə oxşayır. (Aydın Kazımzadə, "Kinosalnamə" verilişi, 09.11.2013)

Qayıdıram, əvvəldə dediyim səhnəyə: "Hamam tikəcəyik, çarhovuzu da olacaqg" - dillərə düşmüş "bayatıdır".

"Əhməd haradadır?" filmindən belə sitatlar bu günə qədər dillər əzbəridir:

"Arvad nədir? Kişini evə bağlayan kəndir!"

"Hə... qəmədiyə düzəltmisiz?"

"Əhməd, toyundur e.."

"Qızı biyabır elədik, qızı!"

"Sən hələ Nərgiz xalanı tanımırsan!"

"Zülümov dedi, qutardı!"

"Əhmədlərin hamısını çağırdım ki, işi birdəfəlik həll edək" və sairgsadaladıqca bitməz. Moskva senzurası bu ifadələrin duzunu hardan anlayardı ki, komediya olduğunu da bilsing

Hardan bilsin ki, Lütfəli Abdullayev, Bəşir Səfəroğlu çəkilən film komediya olmasa da komediya kimi görünəcək. Ağahüseyn Cavadovun simasından komediya yağır.

87 dəqiqəlik filmin bəstəkarı Rauf Hacıyevdir. Filmi səsləndirənlərin də əməyi az deyil. Hər obrazın özünə uyğun səsin tapılması az iş deyil. Yusif Vəliyev Şirin rolunda Məmmədrza Şeyxzamanovu səsləndirib. Həsənağa Turabov Əhməd - Səyavuş Şəfiyevi. Müxlis Cənizadə Sürücü Əhməd - Elxan Qasımovu. Sofa Bəsirzadə Ofeliyanı. Hökumə Qurbanova Leyla rolunda Töhfə Əzimovanı səsləndirib.

1964-cü ildə ekranlara çıxmış Azərbaycan komediyası "Əhməd haradadır?" filmindən danışdıq. Bu janrda yeni filmimizdən danışmaq arzusu iləg

***Ramilə Qurbanlı***



# Koronavirusu keçirib-keçirmədiyini bilmək istəyənlərin nəzərinə: pulsuz və təhlükəsiz...

***Koronavirusun Azərbaycanda yayılmağa başladığı vaxtlarda bu virusun mövcudluğuna inanmayanlarla yanaşı, xəstəliyi qışda keçirdiyini düşünənlər də var idi. Əhalinin bir qismi hələ də koronavirusu qış aylarında keçirdiyini düşünür. Onlar bunu həmin vaxtlarda qeydə alınan yüksək qızdırma və halsızlıqla əlaqələndirirlər. Bu vaxta qədər koronavirusa yoluxmamış şəxslər arasında da bu düşüncədə olanlar var.***

Ümumdünya Səhiyyə Təşkilatı isə koronavirusun ötən ilin dekabr ayından yayıldığını bildirərək fevral ayında pandemiya elan edib. Lakin xəstəliyə ilk yoluxma halının noyabrda baş verməsi ilə bağlı məlumatlar da var. Bu səbəbdən də onlarla, bəlkə də yüzlərlə insan qış aylarında ölkəmizdə yayılan ağır xəstəliyin koronavirus olduğunu düşünürlər. Ətrafında xeyli koronavirusa yoluxmuş şəxsin olmasına baxmayaraq özündə hər hansı narahatlıq hiss etməyənlərin, təbii olaraq, "koronavirusu keçirmişəm, immunitetim yaranıb" qənaətinə gəlməyinə səbəb olur. Lakin belə düşünənlərin özlərində də bəzən buna qarşı şübhə yaranır.

Koronavirusun ölümcül virus olmadığı hər kəsə məlumdur. Artıq dəfələrlə qeyd olunub ki, bu virusdan ölənlər, əsasən, başqa ağır xəstəlikləri olan şəxslərdir. Bədənə daxil olan virus immun sistemini zəiflətdiyi üçün orqanizmin digər xəstəliklərə müqaviməti azalır və xəstə ölür. Bununla yanaşı koronavirusu heç nə olmamış kimi keçirənlər də az deyil. Hətta bəlkə də çoxumuzun ətrafında ailə üzvləri koronavirusa yoluxub, lakin özünün testi neqativ çıxan insanlar var.

Məhz bu səbəbdən də, yəni koronavirusu simptomsuz keçirənlərin, bədənində koronavirusa qarşı immuniteti yaranan insanların faizini müəyyənləşdirmək üçün dünyanın bir sıra ölkələrində seroloji testlər keçirilir. Artıq bir çox ölkələrdə pandemiya səbəbi ilə alınan qabaqlayıcı tədbirlərin aradan götürülməsi və ikinci dalğanın yayılmasına mane olmaq məqsədi ilə bu xəstəliyə qarşı immuniteti yaranan şəxslərin müəyyənləşdirilməsi prosesi başlayıb.

Əvvəllər Covid-19-la bağlı PSR testləri icra olunurdu ki, bu analizlər birdəfəlik nəticə verirdi, hazırda bədəndə bu virusun olub-olmadığını müəyyənləşdirirdi. Seroloji testlər isə tam fərqlidir. Belə ki, bu testlər orqanizmin bu virusla qarşılaşıb-qarşılaşmaması və bədəndə virusa qarşı immunitetin formalaşması barədə məlumat verir.

Artıq ölkəmizdə də əhali arasında təsadüfi seçilmiş insanlardan, təxminən 1650-yə yaxın şəxsdən seroloji testlərin götürülməsi prosesi başlanılıb. İlkin mərhələ olaraq, Bakı, Sumqayıt və Gəncə şəhərlərində təsadüfi proqramla seçilmiş 1650-yə yaxın şəxsdən testlər götürüləcək.

Azərbaycanda bu testlərin keçirilməsini müraciət olunan şəxslərin əlinə düşən gözəl fürsət kimi dəyərləndirmək olar. Çünki TƏBİB-in infeksionistləri açıqlamalarında bildirib ki, onlara "öyrənmək istəyirəm ki, mən koronavirusa yoluxub keçirmişəm, yoxsa yox?" sualı ilə müraciət edənlərin sayı çoxdur. Belə ki, tamamilə pulsuz və təhlükəsiz həyata keçirilən seroloji testlər koronavirusu keçirib-keçirmədiyini düşünənlər üçün dəqiq cavab öyrənməyə, şübhələrdən qurtulmağa kömək olacaq.

Testlərin götürülməsi prosesi isə heç də qorxulu deyil. Proses adi qan analizindən qətiyyən fərqlənmir. Üstəlik, bu testi verən şəxs istəsə, ona qanın ümumi analiz cavabları da əlavə olaraq təqdim olunur.

***Bəxtiyar Umarlı***

# Oturaq işin zərərlərini necə azaltmaq olar?

***"Oturaq vəziyyət insan pozasının fizioloji tələbat baxımından ən qeyri-funksionalıdır".***

"Unikal" deyerler.org-a istinadən bildirir ki, bunu "Sputnik" radiosuna müsahibəsində kardioloq Vladimir Xoroşev deyib.



"İnsan ayaqüstə olarkən və ya uzanarkən onun arteriyaları düz vəziyyətdə qalır. Oturarkən isə damarlar daralır və arterial qanın axını kəskin azalmağa başlayır. Bu, çox pis haldır. Qan axışının yavaşlaması həmin arteriyalarda aterosklerotik dəyişikliyin artmasına səbəb ola bilər. Bu isə çox ağır fəsadlara - aşağı ətraflarda arterial yolların zədələnməsinə yol aça bilər. Təəssüf ki, bunun müalicəsi də çox bahadır", - kardioloq bildirib.

Oturaq işin mənfi fəsadlarını azaltmağa gündə yarım saat - bir saatlıq fiziki məşğələlər yardımçı ola bilər: "Oturaq poza ən əlverişsizidir. Əgər insanın oturaq həyat tərzindən çəkinmək imkanı varsa, bunu etmək gərəklidir. Müasir ofislərdə ayaqüstü kompüter stollarının quraşdırılması boşuna deyil. Belə yerdə insan oturmur, ayaqüstə qalır. Bu funksional olaraq alverişlidir. Bilmək lazımdır ki, ayaqüstə qalmaq heç də zərərsiz deyil, ancaq insan hər 30 dəqiqədən bir hərəkət edərsə, bu ziyanı azalda bilər".

# Alimlər koronavirusun ən zəif nöqtəsini tapdı

***Çikaqo Universitetinin (ABŞ) molekulyar mühəndislik məktəbinin alimləri ilhamverici xəbər yayıb.***

Milli.Az bildirir ki, tədqiqatçılar yeni tip koronavirusun zəif nöqtələrindən birini tapıblar. Bu nöqtə Mpro proteazı adlanır, vücuddakı virusun çoxalması ilə əlaqəli mexanizmə cəlb edilir.

Tədqiqatçılar proteazda əvvəllər araşdırılmamış hissənin tapıldığını, bunun da COVID-19-a qarşı effektiv dərmanların tətbiqi nöqtəsi ola biləcəyini söyləyib. Və dərhal həll yolu təklif ediblər: koronavirus infeksiyası ilə mübarizə aparmaq üçün ebselen adlı dərman molekulundan istifadə etmək. Hazırda bu molekulun eşitmə itkisi, tinnitus və bipolyar pozğunluğun müalicəsində təsirinin araşdırıldığı bilinir.

Belə bir tapıntı koronavirusun müalicəsinə yol aça bilərmi?

Bu barədə tanınmış virusoloq, E.İ.Martsinovski Seçenov Universitetinin tibb elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü Aleksandr Lukaşev danışıb:

"Proteaz, eləcə də polimeraz müxtəlif virusların çoxalması üçün istifadə etdiyi fermentlərdir. Onlar çoxdan bəri bir çox virusun müalicəsində istifadə edilir. Bu fermentlərə təsir edən və virusun çoxalmasını ləngidən molekul tapmaq uzun yolun ilk addımlarıdır. Belə bir molekulun tapılması çox yaxşıdır, amma hələ də yerinə yetirilməli şərtlər var. Həmin molekul aşağı toksikliyə, bədənə daxil olduqda yaxşı xüsusiyyətlərə malik olmalıdır - düzgün paylanmalı, metabolizə edilməli, ifraz olunmalıdır. Bütün bu parametrlərə cavab verməkdən əlavə, ən azı bir il çəkən və milyonlarla dollara başa gələn 1-ci, 2-ci və 3-cü mərhələlərin klinik sınaqlarından keçməlisiniz.



Digər dərmanlarla təcrübə göstərir ki, hər sonrakı mərhələdən keçmək üçün 90% şans var. Hər halda, bu, faydalı tapıntıdır. SARS-CoV-2-nin tədqiqatında nə qədər irəliləyiş olsa, bəşəriyyət yeni infeksiyaya nəzarət etmək qabiliyyətinə daha yaxın olacaq". (publika.az)

# İmmun sistemi gücləndirməyin yolları açıqlandı

***Koronavirus pandemiyasına, bütövlükdə yoluxucu xəstəliklərə qarşı qorunmaq, orqanizmin immun sistemini gücləndirmək üçün sadə vasitələrdən yararlanmaq olar.***

"Unikal" deyerler.org-a istinadən bildirir ki, ABŞ Pensilvania Universiteti immunologiya fakültəsinin direktoru Con Ueri immun sistemi güclü saxlayan ən mühüm amillər arasında yuxu olduğunu qeyd edib. Belə ki, gündə altı saat və daha az yatan insanlar virusa yoluxduqları təqdirdə yeddi saat və daha çox yatanlara nisbətən dördqat çox soyuqdəymə xəstəliyinə tutulurlar.



Həmçinin maqniumun böyük miqdarda olduğu qidaları qəbul etməyin zəruriliyi də qeyd edilir. Belə ki, beyini və bütün orqanizmi rahatladan, yaxşı və sakit yuxuya dəstək verən maqnium həmçinin psixoloji sarsıntıların, həyacanın da öhdəsindən gəlmək üçün səmərəli vasitədir.

"İmmun sistemi birdən-birə gücləndirmək olmaz. Xəstələnəndən sonra vitamin qəbul etmək mənasızdır. Lakin gündəlik həyat tərzinizə müəyyən dəyişikliklər edərək onlara müntəzəm əməl etsəniz, xəstəliklərin artdığı payız mövsümü ərəfəsində immun sisteminizə kömək etmiş olarsınız", - ekspert vurğulayıb.

# Pəhriz məhsulları hər orqanizm üçün fərdi qaydada olmalıdır

***Artıq çəkidən azad olmağın müxtəlif üsulları var. Şübhəsiz ki, bu sahədə idman məşğələlərlə yanaşı, diyetik yeməklərə üstünlük verilməsi də əsas və aparıcı yer tutur.***

Diyetik yemək duz, şəkər və un məmulatlarından istifadə edilməməklə hazırlanır. Həmin yeməklərin hazırlanmasında xüsusi qida məhsullarından istifadə olunur. Məsələn, xörəklərin tərkibinə un məmulatı kimi yalnız yulaf və qarabaşaq unu daxil edilir.

Orqanizmə uyğun olan düzgün qida məhsullarının müəyyənləşməsi üçün mütəxəssislərə müraciət etmək vacibdir, çünki pəhriz məhsulları hər orqanizm üçün fərdi qaydada hazırlanır.

"Unikal" AZƏRTAC-a istinadən bildirir ki, həkim-diyetoloq Ləman Süleymanova deyib: "Diyetik yeməklərdən ibarət pəhrizə başlamamışdan əvvəl hormon və insulin çatışmazlığı analizləri ilə yanaşı, orqanizmin ümumi analizləri verilməlidir. Həmin analizlərə, eləcə də hər kəsin xəstəlik və fərdi keyfiyyətləri nəzərə alınmaqla pəhriz menyusu tərtib edilir. Məsələn, uşaqlar üçün, şəkərli diabet xəstələri, mədəsində qastrit olanlar və s. üçün fərdi menyular var".

Arzuolunmaz çəkidən xilas olarkən mütləq sağlamlığın da qeydinə qalmaq tələb olunur. Əks təqdirdə orqanizm üçün təhlükə yaranmış olar.

# Avroliqada Azərbaycan klublarını güclü komandalar gözləyir




***Gələn həftə Avropa Liqasında mübarizəyə qoşulacaq Azərbaycan klublarını II və III təsnifat mərhələlərində daha güclü komandalar gözləyir.***

”Unikal” qəzetinin məlumatına görə, bu turnirdəki təmsilçilərimiz “Neftçi”, “Keşlə” və “Sumqayıt” I raund səddini keçərsə, tanınmış klublardan birinə rəqib ola bilər.

Çünki həm “Neftçi”, həm “Keşlə”, həm də “Sumqayıt” növbəti mərhələlərdə səpələnməmişlərin sırasında yer alacaq. II raundun Liqa yolunda 72 komanda 36 cütlüyə bölünəcək. 25 komanda məhz II təsnifat mərhələsindən mübarizəyə qoşulacaq ki, onlardan 19-u avqustun 31-dəki püşkatmada səpələnmişlərdə olacaq.

Təmsilçilərimizə potensial rəqiblər olan həmin klublar arasında “Tottenhem”, “Volfsburq”, “Qranada”, “Milan”, “Reyms” kimi “Top-5” liqaların iştirakçıları da var. Həmçinin komandalarımız “Qalatasaray”, “Bazel”, “Reyncers” kimi güclü rəqiblərlə də qarşılaşa bilər.

III təsnifat mərhələsinin Liqa yolunda isə 52 komanda 26 cütlük formalaşdıracaq. 13 klub məhz bu raunddan avrokubok macərasına başlayacaq ki, onlardan 5-i səpələnmişlərdə yer alacaq. Azərbaycan komandaları əgər III təsnifat mərhələsinə qədər irəliləməyə müvəffəq olsalar, orada “Sportinq”, PSV, AEK, LASK və ya “Rostov”la üz-üzə gəlmək ehtimalı yaranacaq. Bu mərhələnin püşkatma mərasimi isə sentyabrın 1-də baş tutacaq.

**Avropa Liqası**

II təsnifat mərhələsi

Səpələnmişlər:

“Tottenhem” (İngiltərə)
“Bazel” (İsveçrə)
“Kopenhagen” (Danimarka)
“Volfsburq” (Almaniya)
BATE (Belarus)
“Qalatasaray” (Türkiyə)
“Standard” (Belçika)
“Qranada” (İspaniya)
“Milan” (İtaliya)
“Reyncers” (Şotlandiya)
“Reyms” (Fransa)
“Rio Ave” (Portuqaliya)
“Dinamo” (Moskva, Rusiya)
“Slovan” (Çexiya)
“Yablonets” (Çexiya)
“Hayduk” (Split, Xorvatiya)
“Kolos” (Ukrayna)
“Villem II” (Niderland)
“Hartberq” (Avstriya)

Səpələnməmişlər:

“Aris” (Yunanıstan)
OFİ (Yunanıstan)
“Osiyek” (Xorvatiya)
“Göteborq” (İsveç)
“Vikinq” (Norveç)
“Kaysar” (Qazaxıstan)

**III təsnifat mərhələsi**

Səpələnmişlər:

“Sportinq” (Portuqaliya)
PSV (Niderland)
AEK (Yunanıstan)
LASK (Avstriya)
“Rostov” (Rusiya)

Səpələnməmişlər:

“Riyeka” (Xorvatiya)
“Şarlerua” (Belçika)
“Desna” (Ukrayna)
“Alanyaspor” (Türkiyə)
“Senneryusk” (Danimarka)
“Anortosis” (Famaqusta, Kipr)
“Sankt-Qallen” (İsveçrə)
“Voyvodina” (Serbiya)

Qeyd edək ki, I təsnifat mərhələsi çərçivəsində “Neftçi” - “Şkupi”, “Keşlə” - “Laçi” və “Sumqayıt” - “Şkendiya” oyunları avqustun 27-də keçiriləcək.

# Dünya çempionu 1 milyonluq turnirin qalibi oldu

***Norveçli dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi rapid üzrə seriya turnirinin final yarışı başa çatıb.***

”Unikal” qəzeti xəbər verir ki, həlledici mərhələdə amerikalı Hikaru Nakamuranı məğlub edən qrossmeyster turnirin qalibi olub.




Beş yarışdan ibarət seriya turnirinin bir mərhələsində Rusiya təmsilçisi Daniel Dubov, qalan mərhələlərdə isə M.Karlsen qalib gəlib. Turnirin üçüncü mərhələsinin B qrupunda mübarizə aparan Azərbaycan şahmatçısı Teymur Rəcəbov məğlub olduğu üçün yarışda iştirakını dayandırıb. Turnirin mükafat fondu 1 milyon ABŞ dolları olub.

# Millimizin futbolçusu ən yaxşılar sırasında

***Ukraynanın ”Dnepr” klubunun yetişdirdiyi ən yaxşı futbolçulardan ibarət rəmzi komanda açıqlanıb.***

”Unikal” qəzetinin məlumatına görə, siyahı ” Sport.ua” saytı tərəfindən hazırlanıb. siyahıda Ukrayna ”Aleksandriya”sında çıxış edən Azərbaycan millisinin müdafiəçisi Pavel Paşayev də yer alıb. 32 yaşlı oyunçu ”Dnepr”in yetişdiyi ən yaxşı sol cinah müdafiəçisi hesab edilib. Qeyd edək ki, Pavel Paşayev 2017-ci ildən ”Aleksandriya”da çıxış edir. O, 16 yaşında ”Dnepr”in akademiyasına keçib.




# "Barselona"nın yeni baş məşqçisindən ilk transfer

***”Barselona” baş məşqçi Ronald Kumanın təyinatından sonra ilk transferini həyata keçirib.***

”Unikal” qəzeti xəbər verir ki, bu barədə klubun rəsmi saytı məlumat yayıb.

Kataloniya təmsilçisi Sequndada çıxış edən ”Las Palmas”da çıxış edən Pedro Qonsales Lopesi (Pedri) heyətinə cəlb edib. 17 yaşlı yarımmüdafiəçi ilə 2022-ci ilin yayına qədər müqavilə imzalanıb.

Qeyd edək ki, İspaniyanın U-19 millisinin üzvü ötən mövsüm Sequndada 16 oyuna 4 qol vurub, 7 qol ötürməsi edib. İspaniya mediası Pedro Qonsales Lopesi gələcəyin İnyestası adlandırır.

# Tanınmış futbolçu meydanda huşunu itirdi

***Səudiyyə Ərəbistanının ”Əl Hilal” komandasında çıxış edən Bafetimbi Qomisin oyun vaxtı halı pisləşib.***

”Unikal” qəzeti xəbər verir ki, 35 yaşlı hücumçu ”Əl-Əhli” ilə matçın 12-ci dəqiqədə huşunu itirib.

Fransız futbolçu həkimlərin müdaxiləsindən sonra qarşılaşmaya davam edib və onun komandası 2:1 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, Bafetimbi Qomis 2017/2018 mövsümündə Türkiyə təmsilçisi ”Qalatasaray”da çıxış edib. O, həmin dönəmdə ”Kasımpaşa” ilə matçda da eyni aqibətlə üzləşib.

Xatırladaq ki, Qomis ilk dəfə 2009-cu ildə Fransa millisinin təlim-məşq toplanışında yerə yıxılıb və həkimlər ona huşunu itirmə diaqnozu qoyub.

# AFFA A millimiz üçün rəqib tapdı

***Futbol üzrə Azərbaycan milli komandası yoldaşlıq oyunu keçirəcək.***

“Unikal” qəzeti AFFA-nın saytına istinadən xəbər verir ki, millimiz Lyublyana şəhərində Sloveniya komandası ilə qarşılaşacaq. Yoldaşlıq oyunu ilə bağlı əlavə məlumat veriləcək.

Qeyd edək ki, müvafiq günlərdə milli komandaların yoldaşlıq oyunu keçirməsi UEFA-nın tələbidi.

# Ulduz futbolçu ilə bağlı inanılmaz iddia: Xanımına onunla xəyanət edir

***“Milan”ın isveçli super ulduzu Zlatan İbrahimoviç və italyan aparıcı Diletta Leotta üçün sürpriz bir iddia ortaya atılıb.***

İbra və Diletta, İtaliyada karantin dövründə bir reklam çəkilişində görüşmüşdülər. Cütlük iki gün əvvəl Sardunya adasında bir restoranda görülüb. Bir çox İtaliya qəzeti müxtəlif iddialar irəli sürsə də, ən aydın iddianı ”CHİ” tabloid jurnalı irəli sürüb.

Jurnalın üz qabığında ”Yay sürpriz cütlüyü” başlığı ilə çıxıb. Leottanın nümayəndələri dərhal ”əlaqəsi yoxdur” deyərək iddianı rədd ediblər.

”The Sun”a danışan Leottanın nümayəndəsi, ”İki peşəkar insan reklam sahəsində əməkdaşlıq etmək üçün bir araya gəldi və heç bir əlaqə yoxdur” deyib.

Bundan əlavə, İbrahimoviç 18 ildir 49 yaşlı həyat yoldaşı Helena Seger ilə evlidir və onların iki oğlu var.

Zlatan tərəfdən hələ ki bir açıqlama verilməyib.

# “Mançester Yunayted”in kapitanı saxlanıldı

***“Mançester Yunayted”in futbolçusu Harri Maquayr saxlanılıb.***

“Unikal” qəzeti xəbər verir ki, müdafiəçi Yunanıstanın Mikonose şəhərində bir barda dalaşıb. Bu barədə “Protothema” nəşri məlumat yayıb.

Xəbərdə, kapitan və iki dostunun barda digər ingilislərlə dalaşdığı bildirilib. Daha sonra hadisə yerinə gələn polisə də müqavimət göstərən Maquayr və dostları saxlanılıb.“Mançester Yunayted” klubunun bir nümayəndəsi də “Sky Sports”a açıqlamasında ingilis müdafiəçinin saxlanıldığını təsdiqləyib.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# "Toya gedəndə sənətçinin sanballı itir" - Oksana



***"Toylara artıq getmirəm. Səhnədə rəqs edirsən, tamaşaçı oturub izləyir. Diqqət yayınmır, sonda səni alqışlayır. Toyda isə fərqlidir. Sən oynayırsan heç kim baxmır: biri yeyir, o biri içki içir, qaçır, danışır. Bu da məni özümü pis hiss etməyimə səbəb olur. Başladım özümlə mübarizə aparmağa: ya bunu edəcəm, ya yox. Qərar verdim ki, artıq toylara getməyim. Toya gedəndə sənətçinin sanballı itir".***

Bu sözləri rəqqasə Oksana Rəsulova "MTV Azərbaycan"-da "Ulduzun vaxtı" proqramında deyib. Sənətçi pandemiyadan əvvəl də toylara getməyi özünə qadağa qoyduğunu açıqlayıb: "Qərar verdim ki, artıq aktrisa kimi çalışacam. Lazımi qədər də gəlir əldə edirəm".

Oğlu Osmandan danışan Oksana "Çox gözlənilən bir övlad idi. Hamiləlik dövründə belə özümə qadağa qoymurdum, nə istəyirdim yeyirdim. 56 kiloqramdan qalxdım 86-ya. İradəm var, məqsədçiyəm, karantində belə kökəlmədim. Yeməyi sevirəm, pəhriz də belə yeməkdən imtina etmirəm" sözlərini söyləyib.

O.Rəsulova ailə qurmasından danışıb: "Gözdən uzaq yaxşıdır. Göz önündə olmuşam, sonu yaxşı bitməyib. Bir çox ailələr göz önündə olanda pis olur. Evlənib-boşananları qınamıram, çox şey olur ki, biz bilmirik. Tamaşaçı bizi başa düşməlidir, gizli məqamları aşkar etmək olmur. Ailə həyatını gizli saxlayanda daha uzunömürlü olur. Son günlər sosial şəbəkədə o qədər neqativ hadisələr oxuyuruq ki... Hər şeyi qabarıq yayırlar. Hətta arada istəyirdim sosial şəbəkə profillərimi balayım".

# "Anamın ikinci dəfə ərə getdiyi adam gərəksiz biridir" - Səidədən etiraflar



***"Özümü güclü bilirdim, zəiflədim. Özümə dedim ki, toparlan, atan səni belə görmək istəmir. Kənardan adamı müzakirə etmək, qınamaq asandır. Deyirlər, Səidə gülür, danışır. Məni sevənlər bilir ki, nələr çəkirəm. Hamı bilir ki, atama necə bağlı olmuşam. Onunla yaşamışam. Onun acı sözü belə şirin idi. Bəzənib nəyisə göstərməyimin səbəbi başqadır".***

Axşam.az xəbər verir ki, bu sözləri mərhum Xalq artisti Rafael Dadaşovun müğənni qızı Səidə dadaşova deyib. "Həyat, sevgi və göz yaşları" proqramında qonaq olan sənətçi atasından söz açıb.

Səidə R.Dadaşovun həyat yoldaşına şiddət göstərməsi haqda söz-söhbətlərə cavab verib: "Mənə şər-böhtan atıb, ünvanıma çirkab sözlər deyirlər, gözdən salmağa çalışırlar. Amma yetimin də Allahı var. Atam haqqında çox şey danışırdılar. Deyirdilər, guya şiddət göstərib. Nə məcbur edirdi atamın yanında qalırdın? Əgər bunu istəmirsənsə, nə gəzirsən? Mən bir insanı sevmirəmsə, niyə ondan söhbət açım?

Hansı ailədə söz-söhbət olmur? Xalqın sevdiyi birini gözdən salmaq olmaz. Atam hər zaman məni qoruyurdu. deyirdi, qızımı çirkaba batırmayın, çünki məni öldürmüş olursunuz. Deyirdi, qızıma toxunduqca, məni məhv edirsiz (ağlayır)".

Anası ilə münasibətlərindən danışan müğənni bunları əlavə edib: "Mənimlə anamın şəkillərini yayıb, deyirlər yalanı ifşa edildi. Pərdə arxasındakı məqamları bilmirsiz. Anam 15 yaşımdan yanımda olub. Danmıram ki, anam olmayıb... Sadəcə alınmadı... Anamın ikinci evliliyindən olan uşağa atam soyadını verdi. Necə mənim atam mərhəmətsiz ola bilər? Atam sənə sillə vurub, döyübsə, niyə yanında idin? Anamın o uşağının atası gərəksiz adamdır, heç haradadır bilinmir. Allah onu islah etsin. Nəyəsə göz yumurduqsa, anamıza görə edirdik. Heç vaxt demirdim, ana, niyə ikinci dəfə ailə qurdun? Heç kimə qarşı deyiləm, sadəcə, atamı xoşbəxt görmək istəyirdim".



# "Niyə mənə vəfasız çıxdın?" - Damla ağır itkisindən yazdı

***Müğənni Damla sosial media hesabında mərhum atası ilə bağlı paylaşım edib.***

"Unikal" ölkə.az-a istinadən bildirir ki, ifaçı ''İnstagram'' hesabında dünyasını dəyişən atasının videosunu yayımlayıb.

"O qədər qürurlanıram ki, sənin kimi atam olub. Ancaq indi səndən yalnız quru şəkillər, videolar qalıb. O qədər darıxmışam, o qədər canım yanır. Sənəti, insanlığı, təhsili, nitq qabiliyyətini, Allah qorxusunu, haqqı, dürüstlüyü, susmağı, bədii ədəbiyyatı, musiqini, bitliləri, heyvanları, vəfalı olmağı mənə sən sevdirmisən, sən oyrətmisən, ata. Bilirdin axı mənim səndən başqa heç kimim yoxdur. Niyə mənə vəfasız çıxdın. Niyə buraxdın getdin? Axı ''İnsan vəfasız olmaz'' kəlməsini özün öyrətmişdin", - Damla qeyd edib.

Xatırladaq ki, sənətçinin atası ötən il dünyasını dəyişib.

# Gülay şərh yazdı: "Ürəyim sənə qurban..."

***Tanınmış cütlük Gülay və Kamil Zeynallıdan xəbər var.***

"Unikal" big.az-a istinadən xəbər verir ki, idmançı Kamil Zeynallı "İnstagram" hesabında qızı Sahilə ilə görüntüləndiyi video paylaşıb. Video marağa səbəb olaraq qısa zaman ərzində çoxsaylı baxış və rəylər alıb.

Rəylərin içində Gülay Zeynallının şərhi isə xüsusi diqqət çəkib. Belə ki, müğənni qızına "ürəyim sənə qurban" sözlərini yazıb.

Qeyd edək ki, son zamanlar Kamil və Gülay cütlüyünün boşandıqları xəbəri müzakirə olunurdu. Lakin hər iki tərəf bu xəbəri təkzib edir. Gülayın bu şərhi də izləyicilər tərəfindən bəyənilərək xoş qarşılanıb. Bundan əlavə, son zamanlar cütlük eyni yerlərə istirahətə birlikdə gedirlər. Bir yerdə görüntüləndiyi fotolar paylaşmasalar da, eyni yerlərdən paylaşımlar edirlər.